RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 92 (9837) 7 may 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Güclü siyasi hakimiyyətdən güclü milli iqtisadiyyata



## Ümummilli Lider Heydər Əliyev milli iqtisadiyyatın qurucusudur

Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin yaranması Ümummilli Liderin adı ilə bağlıdır. Heç şübhəsiz, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha çətindir. Bunu müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu da bir daha təsdiq edir. Bu müddət ərzində dövlətimizə və onun müstəqilliyinə qarşı qəsdlər olsa da onların qarşısı qətiyyətlə alınmışdır.

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Dövlət müstəqilliyi iqtisadiyyatımızın milli maraqlarımıza uyğun inkişaf etdirilməsinə şərait yaratdı. Artıq Azərbaycanın siyasi müstəqillik əldə etməsi iqtisadi problemlərə milli iqtisadiyyatın inkişafı kontekstindən, dövlətçilik və milli maraqlar baxımından yanaşmağı tələb edir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini əldə etməsəydi və onu son illərə kimi qoruyub saxlaya bilməsəydi nə neft strategiyasını həyata keçirə bilərdik, nə də ölkəmizin strateji əhəmiyyətə malik olan beynəlxalq iqtisadi layihələrdə iştirakı mümkün olardı.

Hər bir xalqın, millətin xoşbəxtliyi ilk növbədə onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən olunur. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış olan xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa daha tez nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

→ 6

# Azərbaycan ilə Belarus arasında iqtisadi-ticari münasibətlər daha da inkişaf etdirilməlidir

## Azərbaycan Prezidenti İlham Əliyev Belarusun Baş nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Belarus Respublikasının Baş naziri Aleksandr Turçini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla Belarus arasında əlaqələrin möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını qeyd edərək, Aleksandr Turçinin Baş nazir vəzifəsinə təyin olunmasından sonra ilk səfərlərindən birini Azərbaycana etməsinin məhz ölkələrimiz arasında olan sıx tərəfdaşlıq münasibətlərinin mahiyyətindən xəbər verdiyini dedi.

Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında mövcud siyasi əlaqələrin ruhuna uyğun olaraq iqtisadi-ticari münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

→ 2

# Azərbaycanla Vyetnam əməkdaşlıq potensialını inkişaf etdirmək üçün bütün imkanlara malikdir

## Azərbaycan Prezidenti İlham Əliyev "Vietnam News Agency" agentliyinə müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

→ 2

# *Yaxın Şərq:* Azərbaycanın çoxqütblü xarici siyasətinin yeni istiqaməti

Prezident İlham Əliyev bu ilin əvvəlində yerli televiziya kanallarına verdiyi geniş müsahibədə Azərbaycanın xarici siyasətindən bəhs edərkən yeni dünya nizamının formalaşması prosesinə toxunmuşdu. Dövlət başçısının sözlərinə görə, Azərbaycanın xarici siyasət hədəfi yeni nizamda aktiv rol oynamaq və bundan geosiyasi dividendlər əldə etməkdir. Prezident İlham Əliyevin bu bəyanatının nəticələrini az müddət keçməsinə baxmayaraq, artıq görməyə başlamışıq. Dövlətimiz yerləşdiyimiz regiondan kənarda baş verən proseslərdə iştirak edir və bununla da yeni statusunu - orta güc olduğunu əməli addımlarla təsdiq edir. Eyni zamanda Azərbaycanın geosiyasi aktor olaraq bu proseslərdə mövcudluğu həm regional iştirakçılar, həm də daha iri güc mərkəzləri tərəfindən qəbul edilir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanın xarici siyasətinin uğurlu çoxqütblü formatı bu reallığın əyani təsdiqidir.

→ 10

# Şuşada Azərbaycan ruhu

## Əzəli sakinlərinə qovuşan, tarixi şöhrətini özünə qaytaran Zəfər qalamızın mədəniyyəti də dirçəlir




Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezidentin sərəncamında vurğulanır ki, Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur: "1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır".

→ 15

# Azərbaycan tezliklə regionda əczaçılıq mərkəzinə çevriləcək

Ölkəmizdə əczaçılıq sahəsində fəaliyyət göstərən bir çox şirkət mövcuddur. Bu şirkətlər sağlamlıq sektorunun inkişafı və əhalinin dərman ehtiyaclarının qarşılanması baxımından mühüm rol oynayırlar. Müəssisələr əsasən dərman istehsalı, distribusiya, ticarət və tibb avadanlıqları sahələrində fəaliyyət göstərirlər. Tədbir çərçivəsində iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Pirallahı Sənaye Parkından bəhs edərkən bu barədə danışmışdır: "Sənaye parkının rezidenti olan "Diamed Co" MMC müasir texnologiyalar əsasında birdəfəlik şprislər istehsal edir. Digər bir rezident "R-Pharm" MMC müxtəlif dərman vasitələrinin qablaşdırılmasını həyata keçirir. Hazırda sənaye parkında Türkiyənin "Gen İlaç ve Sağlık Ürünleri A.Ş." şirkəti ilə birgə beynəlxalq keyfiyyət standartlarına və Azərbaycanın milli əczaçılıq təhlükəsizliyi prioritetlərinə uyğun yeni əczaçılıq zavodu tikilir.

→ 12

# Azərbaycan ilə Belarus arasında iqtisadi-ticari münasibətlər daha da inkişaf etdirilməlidir

## Azərbaycan Prezidenti İlham Əliyev Belarusun Baş nazirini qəbul edib



*Əvvəli 1-ci səh.*

Aleksandr Turçin, ilk növbədə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

İlk dəfə Bakıya səfər etdiyini deyən Belarusun Baş naziri paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə Azərbaycanla Belarus arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı. Bu xüsusda Gəncə avtomobil zavodunda Belarus avtomobil texnikasının istehsalı və bu texnika üçün Azərbaycanın müxtəlif bölgələrində servis mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulandı. Azərbaycanda lift, məişət texnikası, kənd təsərrüfatı, xüsusilə heyvandarlıq, südçülük, ətçilik və quşçuluq üzrə birgə istehsal sahələrinin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinə dair müzakirələr aparıldı. Hökumətlərarası komissiyaya qeyd olunan istiqamətlər üzrə müvafiq tapşırıqlar verildi.

Söhbət zamanı dost ölkə Belarusun şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərində iştirakı məmnunluqla qeyd edildi. Belarusun Baş naziri ölkəmizə səfəri çərçivəsində azad edilmiş ərazilərə gedəcəyini və vəziyyətlə yerində tanış olacağını bildirdi.

Görüşdə ölkələrimiz arasında şəhərsalma sahəsində təcrübə mübadiləsinin aparılmasının vacibliyinə toxunuldu.

Dövlətimizin başçısı 2026-cı ildə Azərbaycanın Dünya Şəhərsalma Forumuna evsahibliyi edəcəyini deyərək, Belarusu da bu tədbirdə yaxından iştiraka dəvət etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavininin və məhkəmə kollegiyaları sədrlərinin, apellyasiya məhkəmələrinin məhkəmə kollegiyaları sədrlərinin və bəzi birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə uyğun olaraq,

**Azərbaycan Respublikasının Ali Məhkəməsi üzrə:**

1.1. Çingiz İsgəndər oğlu Əsgərov Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Hafiz Qənbər oğlu Nəsibov Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.3. Xəqani Səyyad oğlu Məmmədov Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.4. Kəmalə Nəbi qızı Abiyeva Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.5. Sənan Firudin oğlu Hacıyev Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

**apellyasiya məhkəmələri üzrə:**

1.6. Elmar Eldar oğlu Rəhimov Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.7. Rəşad Ziyaviddin oğlu Mamedov Gəncə Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.8. Şamil Qəhrəman oğlu Rzaquliyev Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.9. Hökümə Çingiz qızı Babayeva Sumqayıt Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.10. Rövşən Rafiq oğlu Rəfiyev Şəki Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.11. Elçin Şirin oğlu Hüseynov Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.12. Tale Suliddin oğlu Kərimov Şirvan Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.13. Araz Firidun oğlu Hüseynov Bakı İnzibati Məhkəməsinin sədri təyin edilsin;

1.14. Zəfər Arif oğlu Quliyev Gəncə İnzibati Məhkəməsinin sədri təyin edilsin;

1.15. İmran Ramazan oğlu Burcayev Sumqayıt İnzibati Məhkəməsinin sədri təyin edilsin;

1.16. Fehruz Novruz oğlu Abbasov Şirvan İnzibati Məhkəməsinin sədri təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

1.17. İlham Bayram oğlu Əhmədov Bakı Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

1.18. Rəşad Seylan oğlu Məmmədov Gəncə Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

1.19. Mübariz Rahil oğlu Hüseynov Şəki Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

1.20. Namidar Əlöysət oğlu Misirzadə Şirvan Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.21. Nemət Əlimusa oğlu Musayev Qazax Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.22. Rəşad Rafiq oğlu Mustafayev Sumqayıt Şəhər Məhkəməsinin sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2025-ci il*

# "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Gömrük Xidməti (Federal Gəlirlər Şurası) arasında ilkin elektron məlumat mübadiləsinin yaradılması haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il fevralın 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Gömrük Xidməti (Federal Gəlirlər Şurası) arasında ilkin elektron məlumat mübadiləsinin yaradılması haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2025-ci il*



# Azərbaycanla Vyetnam əməkdaşlıq potensialını inkişaf etdirmək üçün bütün imkanlara malikdir

## Azərbaycan Prezidenti İlham Əliyev "Vietnam News Agency" agentliyinə müsahibə verib

*Əvvəli 1-ci səh.*

**- 2025-ci il mayın 7-8-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam Azərbaycan Respublikasına dövlət səfəri edəcək. Siz ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın indiki vəziyyətini necə qiymətləndirirsiniz?**

- Əvvəlcə qeyd etmək istərdim ki, Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir. Belə ki, 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib. O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub. Şübhəsiz ki, bu əlamətdar səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib.

Mənim 2014-cü ildə ölkənizə dövlət səfərim və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanqın Azərbaycan Respublikasına rəsmi səfəri iki dövlət arasında münasibətlərdə yeni səhifə açdı və onların gələcək inkişafına təkan verdi. Prezident Çıonq Tan Şanqın səfəri çərçivəsində rəsmi şəxslərlə yanaşı, neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrin işgüzar dairələrinin iştirakı ilə Birinci Azərbaycan-Vyetnam biznes forumu keçirildi.

Müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyətin yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. Komissiya mütəmadi dialoq və birgə təşəbbüslərin səmərəli reallaşdırılmasında mühüm platformadır. Xarici İşlər nazirliklərinin xətti ilə siyasi məsləhətləşmələr aparılır. Onlardan sonuncusu bu il aprelin ikinci yarısında keçirilib. Hər iki ölkənin parlamentlərində parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir.

Ölkələrimiz ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir.

Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bizim bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur.

Ölkələrimiz neft sahəsində də qarşılıqlı fəaliyyət göstərir. 2019-cu ildə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" ilə SOCAR arasında müqavilə imzalanıb. Neft sahəsində əməkdaşlığımız möhkəm tarixi təmələ əsaslanır - çünki Azərbaycan mütəxəssisləri Vyetnamın neft sənayesinin yaradılmasında və inkişafında əsas rol oynayıblar. Təsadüfi deyil ki, 1981-ci ildə Sovet İttifaqının köməyi ilə yaradılan "Veso Petrol" müştərək müəssisəsinin ilk baş direktoru azərbaycanlı Cəlal Məmmədov olub.

Mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığımızın kökləri sovet dövrünə gedib çıxır, amma son illərdə daha da inkişaf edib. 1955-ci ildə Azərbaycan bəstəkarı Qara Qarayev Vyetnam müharibəsi haqqında ilk sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı bəstələyib, onun premyerası 2023-cü ildə Hanoyda olub. 1959-1962-ci illərdə Prezident Ho Şi Minin dəvəti və sovet hökumətinin təklifi əsasında azərbaycanlı rejissor Əjdər İbrahimov Vyetnamda kino məktəbinin yaradılmasında fəal iştirak edib, orada ustad dərsləri keçib və üç film çəkib. O, bu xidmətlərinə görə Vyetnam Sosialist Respublikasının ali "Əmək" ordeni ilə mükafatlandırılıb.

Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı təhsil alıb, onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələr tutur. Mənim 2014-cü ildə Hanoya səfərim zamanı Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları ilə görüş oldu, onlar ölkəmiz və burada keçirdikləri illərlə bağlı səmimi sözlər ifadə etdilər. 2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis edildi.

Ölkələrimiz arasında mədəni əlaqələrdən söz düşmüşkən qeyd etmək istərdim ki, onlar müxtəlif təşəbbüslər və layihələr vasitəsilə inkişaf etməkdə və möhkəmlənməkdə davam edir. Məsələn, 2024-cü ildə Bakıda sizin əsgərlərin Vyetnam müharibəsində qəhrəmanlığına həsr edilmiş "Əfsanə yaradanlar" filminin nümayişi oldu. Həmin il paytaxtımızda Vyetnam Lideri Ho Şi Minin Azərbaycana səfərinin 65 illiyi münasibətilə Vyetnam Günləri keçirildi.

Heydər Əliyev Fondu 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir. Bu ilin aprelində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkənizə səfəri çərçivəsində vitse-prezident Vo Ti An Suan, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Baş katibinin xanımı No Fon Li, yaradıcılıq sənayesinin nümayəndələri, Hanoy Ticarət və Turizm Kollecinin rəhbərləri, həmçinin Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşüb. Görüş çərçivəsində Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bağlı sertifikat təqdim edilib.

Beləliklə, Azərbaycanla Vyetnam arasında münasibətlər bütün əsas sahələr üzrə uğurla inkişaf edir.

**- İkitərəfli münasibətlərin yeni səviyyəyə qaldırılması kontekstində Vyetnam Liderinin Azərbaycana qarşıdakı səfəri nə kimi əhəmiyyətə malikdir?**

- Məlum olduğu kimi, cənab Lamın qarşıdakı səfəri onun Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi qismində ilk səfəri olacaq. Tərəflərin ikitərəfli münasibətlərin dərinləşdirilməsi səylərini əks etdirən və qarşılıqlı fəaliyyətdə yeni istiqamətlər açan bu hadisə böyük siyasi əhəmiyyətə malikdir. Bu kontekstdə səfəri haqlı olaraq Azərbaycan-Vyetnam əməkdaşlığının inkişafında mühüm mərhələ kimi qiymətləndirmək olar.

Səfər proqramına ikitərəfli gündəliyin əsas aspektlərini əhatə edən məsələlərin geniş dairəsi daxildir. Bu, aktual mövzulara dair hərtərəfli fikir mübadiləsi aparmağa, yanaşmaları razılaşdırmağa və gələcəkdə qarşılıqlı fəaliyyətin perspektiv istiqamətlərini müəyyənləşdirməyə imkan verəcək. Siyasi dialoqa, iqtisadi-ticari əlaqələrə, həmçinin humanitar və mədəni mübadiləyə xüsusi diqqət yetiriləcək.

Bundan başqa, partiyalararası dialoqun inkişafına ayrıca əhəmiyyət verilir. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir. Qarşıdakı səfər siyasi və ideoloji zəmində qarşılıqlı fəaliyyətin yüksək səviyyəsinin əlavə təsdiqi olacaq.

İnanıram ki, cənab Lamın səfəri daha fəal əməkdaşlığa mühüm təkan olacaq, Azərbaycanla Vyetnam arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət ruhunda inkişafı üçün yeni üfüqlər açacaq.

**- Vyetnam ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişafı üçün hansı perspektivlər və potensial mövcuddur?**

- Hesab edirəm ki, ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir. İqtisadi-ticari münasibətlərdən danışarkən qeyd etmək lazımdır ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur.

Ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri turizmdir. Bakı ilə Vyetnam şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması turizm proqramlarının inkişafı ilə paralel surətdə iki ölkənin vətəndaşlarının bir-birinin mədəniyyətinə və tarixinə marağının artmasına kömək edəcək. Müştərək mədəniyyət layihələrinin intensivləşdirilməsi, səhiyyə və ekologiya sahələrində humanitar missiyalarla bağlı proqramların və birgə təşəbbüslərin inkişafı - bütün bunlar ölkələrimiz üçün qarşılıqlı maraq doğuran istiqamətlərdir.

Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq. Onlar Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramlarından istifadə edə bilərlər. Bu, akademik mübadilə, elmi tədqiqatlar və Azərbaycanla Vyetnam arasında şəxsi təmasların möhkəmləndirilməsi üzrə imkanları yaxşılaşdıracaq. Mübadilə proqramlarının reallaşdırılması, həmçinin elmi-texniki sahədə əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafı üçün daha bir perspektivli istiqamətə çevrilə bilər.

## "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il fevralın 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2025-ci il*

## Gədəbəy Aşıq Məktəbinə Aşıq Ələsgərin adının verilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 147** **Bakı şəhəri, 2 may 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Gədəbəy Aşıq Məktəbinə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, el sənətkarı Aşıq Ələsgərin adı verilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Gədəbəy Rayon İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Medianın İnkişafı Agentliyində media subyektlərinin rəhbərləri ilə görüş keçirilib



Mayın 6-da Medianın İnkişafı Agentliyində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərliyi ilə görüş keçirilib.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru, Müşahidə Şurasının üzvləri, televiziya kanallarının, informasiya agentliklərinin, bir sıra aparıcı çap və onlayn media subyektlərinin rəhbərləri iştirak ediblər.

Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində bu gün media Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. O medianın ictimai-siyasi və mədəni həyatdakı yerinə, mədəniyyətin, maarifçiliyin inkişafında roluna diqqət çəkərək bundan sonrakı mərhələdə eyni funksiyaları yeni dövrün tələblərinə uyğun qurmalı olduğunu qeyd edib, rəqəmsal transformasiya şəraitində informasiya təhlükəsizliyinin əhəmiyyətini vurğulayıb, dövlət-media münasibətləri, medianın aktual məsələləri barədə fikirlərini bölüşüb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov isə Agentliyin fəaliyyət istiqamətlərindən, həyata keçirilən tədbirlərdən, media sahəsində aparılan islahatların nəticələrindən və sahənin inkişaf perspektivlərindən danışıb.

Müzakirələr zamanı qeyd olunub ki, Milli Mətbuatın 150 illiyi çərçivəsində müxtəlif beynəlxalq və yerli səviyyəli tədbirlərin təşkili, tanınmış xarici media subyektlərinin tərəfdaşlığı ilə inkişaf proqramlarının həyata keçirilməsi, habelə Azərbaycan mətbuatının tarixini və bu gününü təcəssüm etdirən, bu istiqamətdə cəmiyyətin məlumatlandırılmasına yönəlmiş digər layihələrin icrası planlaşdırılır.

Görüşdə media rəhbərlərinin təklifləri dinlənilib, media sahəsinin gələcək inkişafı və müasir çağırışlar barədə qarşılıqlı fikir mübadiləsi aparılıb.

# Azərbaycanda sosial investisiya layihələrinə yatırım "Japan Tobacco International" şirkəti ilə müzakirə olunub



İqtisadiyyat naziri Mikayıl Cabbarov İsveçrənin "Japan Tobacco International" şirkətinin baş icraçı direktoru Eddi Pirard ilə görüşüb.

AZƏRTAC nazirliyin yaydığı məlumata istinadən xəbər verir ki, qonağa ölkəmizin əlverişli iqtisadi imkanları, biznes mühiti, həmçinin sənaye sahələrinin inkişaf perspektivləri və istehsalın lokallaşdırılması tədbirləri barədə məlumat verilib.

Tərəflər şirkətin ölkəmizdəki fəaliyyəti, tütün məmulatlarının istehsalı ilə bağlı qanunvericilik və aksiz vergisinin tətbiqi, Azərbaycanda sosial investisiya layihələrinə yatırım imkanlarını müzakirə ediblər.

# Azərbaycan ilə İran arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələri barədə fikir mübadiləsi aparılıb



Mayın 6-da xarici işlər nazirinin müavini Yalçın Rəfiyev ölkəmizdə səfərdə olan İran İslam Respublikasının xarici işlər nazirinin müavini, İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Səid Xətibzadə ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfərindən sonra Azərbaycan-İran ikitərəfli əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, eləcə də regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıq əlaqələri barədə fikir mübadiləsi aparılıb.

Tərəflər həmçinin İran və Azərbaycanın araşdırma və beyin mərkəzləri arasında təmasların və əməkdaşlığın qurulmasının ikitərəfli əməkdaşlığa əlavə təkan verəcəyini, iki ölkənin ictimaiyyətləri arasında müxtəlif mövzular barədə məlumatlılığın artmasına xidmət edəcəyini qeyd ediblər.

Nazir müavinləri həmçinin digər regional və qlobal məsələlər ətrafında müzakirə aparıblar.

# Belarusun Baş naziri Fəxri xiyabanı ziyarət edib



Belarus Respublikasının Baş naziri Aleksandr Turçin mayın 6-da Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

# Belarusun Baş naziri Zəfər parkını ziyarət edib



Azərbaycanda rəsmi səfərdə olan Belarus Respublikasının Baş naziri Aleksandr Turçin mayın 6-da Bakıdakı Zəfər parkını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Belarusun Baş naziri parkdakı Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi.

Qeyd olundu ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib. Xatırladaq ki, 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə parkın açılışı olub.

# Azərbaycan və Belarus hökumətlərinin başçıları Füzuli və Ağdam rayonlarında olublar














Mayın 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikasının Baş naziri Aleksandr Turçini Füzuli Beynəlxalq Aeroportunda qarşılayıb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, sonra Ə.Əsədov və A.Turçin iki ölkənin nümayəndə heyətlərinin müşayiəti ilə Ağdam Sənaye Parkına gəliblər. Hökumət başçıları sənaye parkının ərazisinə baxış keçirib, bir sıra müəssisələrin fəaliyyəti ilə tanış olublar.

Azərbaycanın Baş naziri Əli Əsədov və Belarusun Baş naziri Aleksandr Turçin Füzuli və Ağdam rayonlarına səfər çərçivəsində, həmçinin Ağdamın Sarıcalı kəndində yenidənqurma işləri barədə məlumatlandırılıblar. Bildirilib ki, Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Kənd 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub.

Baş nazirlər, həmçinin Ağdam rayonunun Qızıl Kəngərli kəndinə səfər ediblər. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini Dövlətxan Dövlətxanov hökumət başçılarına bu kənddə yaradılacaq aqrar şəhərcik haqqında məlumat veriblər.

# Belarus Baş nazirinin Azərbaycana rəsmi səfəri başa çatıb



Mayın 6-da Belarus Respublikasının Baş naziri Aleksandr Turçinin Azərbaycana rəsmi səfəri başa çatıb.

AZƏRTAC xəbər verir ki, Belarusun Baş naziri Aleksandr Turçini Füzuli Beynəlxalq Hava Limanında Azərbaycanın Baş naziri Əli Əsədov yola saldı.

# Parlament diplomatiyası

## Parlament nümayəndə heyəti Əbu-Dabidə Şeyx Zayed məscid kompleksi ilə tanış olub







Birləşmiş Ərəb Əmirliklərində rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Əbu-Dabidə Şeyx Zayed məscid kompleksini ziyarət edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, burada qonaqlara ölkənin ən böyük məscidinin Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Əl Nəhyanın təşəbbüsü ilə inşa edildiyi barədə məlumat verilib. Qeyd edilib ki, cümə və bayram namazlarında məscidə gələnlərin sayı 40 min nəfərə çatır.

Məscidlə tanışlıqdan sonra spiker Sahibə Qafarova məscidin xatirə kitabına ürək sözlərini yazıb.

*"Azərbaycan"*

## Azərbaycan Milli Məclisi ilə BƏƏ Federal Milli Şurası arasında Anlaşma Memorandumu imzalanıb

**Milli Məclisin Sədri Sahibə Qafarovanın Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri davam edir.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, səfər çərçivəsində mayın 6-da bu ölkənin Federal Milli Şurasında keçirilən görüşdən sonra tərəflər arasında Anlaşma Memorandumunun imzalanma mərasimi olub.

Azərbaycan Respublikası Milli Məclisi ilə Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası arasında Anlaşma Memorandumunu iki ölkənin spikerləri - Sahibə Qafarova və Saqr Qobaş imzalayıblar.

Qeyd olunub ki, bu sənəd tərəflər arasında birgə işi - koordinasiya və parlament təcrübəsi mübadiləsini daha da artırmağa imkan verəcək, əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcək.

*"Azərbaycan"*





## BƏƏ Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verir












Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri çərçivəsində mayın 6-da bu ölkənin Federal Milli Şurasının Sədri Saqr Qobaş ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin sədrini səmimiyyətlə salamlayan Saqr Qobaş bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə töhfə verəcəyinə inamını ifadə edib. Saqr Qobaş ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verdiyini qeyd edərək, xüsusilə iqtisadi əməkdaşlıq sahəsində əldə olunan nəticələrdən razılığını ifadə edib.

Bu səfərin onun Milli Məclisin Sədri kimi Birləşmiş Ərəb Əmirliklərinə ilk səfəri olduğunu deyən spiker Sahibə Qafarova Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib.



Söhbət zamanı qeyd olunub ki, ölkələrimizi tarixi, dini və mədəni köklər birləşdirir və ikitərəfli əlaqələrimiz qardaşlıq, qarşılıqlı hörmət, etimad və dəstək mühitində inkişaf edib. Görüşdə münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində ölkələrimizin liderlərinin birgə səylərinin, həmçinin yüksəksəviyyəli qarşılıqlı səfərlərin xüsusi əhəmiyyəti vurğulanıb. Söhbət zamanı beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələləri barədə də fikirlər ifadə olunub. Qeyd olunub ki, ölkələrimiz BMT, İƏT və Qoşulmama Hərəkatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir və qarşılıqlı dəstək nümayiş etdirirlər. Milli Məclisin Sədri Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi barədə məlumat verib. Qeyd olunub ki, ölkəmizin sədrliyi ilə həyata keçirilən tədbirlər təşkilatın institusional inkişafına və onun beynəlxalq mövqelərinin möhkəmlənməsinə töhfələr verir. O, Birləşmiş Ərəb Əmirlikləri parlamentinin təmsilçilərinin Parlament Şəbəkəsinin tədbirlərində iştirakından məmnunluğunu bildirib.

Federal Milli Şuranın Sədri Saqr Qobaş Sahibə Qafarovanı yenidən Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədri seçilməsi münasibətilə təbrik edərək, beynəlxalq münasibətlərdə müşahidə olunan qütbləşmə və gərginliklər fonunda Parlament Şəbəkəsinin mühüm rol oynaya biləcəyini və ölkəsinin bu platforma çərçivəsində əməkdaşlığa əhəmiyyət verdiyini bildirib.

Görüşdə ölkələrimiz arasında münasibətlərin ruhuna uyğun olaraq, qanunverici orqanlarımız arasında da uğurlu əlaqələrin qurulduğu qeyd olunaraq, vurğulanıb ki, həm qarşılıqlı əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq bu sahədə müsbət nəticələrin əldə olunmasını şərtləndirib. Spiker Sahibə Qafarova Federal Milli Şuranın Sədri ilə bundan öncə keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, bu cür təmasların, o cümlədən, qarşılıqlı səfərlərin münasibətlərə müsbət töhfələr verdiyini bildirib. Söhbət zamanı dostluq qruplarının fəaliyyətinin də parlamentlərarası əlaqələrin inkişafında əhəmiyyəti diqqətə çatdırılıb. O, BƏƏ parlamentinin üzvlərinin mütəmadi olaraq Milli Məclisin təşkil etdiyi beynəlxalq tədbirlərdə iştirakından razılığını bildirib.

Görüşdə Azərbaycanın COP29-a sədrliyi ilə BƏƏ-nin COP28-ə sədrliyi arasında çox uğurlu əməkdaşlıq olduğu bildirilib. Həmçinin, COP29 çərçivəsində keçirilən Parlament Toplantısında BƏƏ parlamentinin 3 nümayəndəsinin iştirak etdiyi, tədbirin təşkilində tərəflər arasında təcrübə mübadiləsi aparıldığı da diqqətə çatdırılıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan Milli Xalça Muzeyində "Rabat xalça sənəti" immersiv sərgisi açılıb


















Azərbaycan Milli Xalça Muzeyində "Xalçaçı günü" peşə bayramı münasibətilə "Rabat xalça sənəti" immersiv sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və ölkəmizdə səfərdə olan Mərakeş Krallığının xanım Şahzadəsi, Rabat Mədəni İrsinin Qorunması Fondunun prezidenti Lalla Hasnaa iştirak ediblər.

Tədbir Heydər Əliyev Fondu, Rabat Mədəni İrsinin Qorunması Fondu, Azərbaycanın Mədəniyyət Nazirliyi, Mərakeş Krallığının ölkəmizdəki səfirliyi, Azərbaycan Milli Xalça Muzeyi, Mərakeş Sənətkarlıq Evi və Mərakeş Milli Muzeylər Fondunun təşkilatçılığı ilə keçirilib.

Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova xalça sənətinin təkcə Azərbaycan üçün deyil, eyni zamanda, dünya mədəni irsinə böyük töhfə olduğunu deyib. 2016-cı ildən Prezident İlham Əliyevin Sərəncamı ilə mayın 5-nin ölkəmizdə "Xalçaçı günü" peşə bayramı kimi qeyd edildiyini vurğulayıb. "Azərbaycanın ənənəvi xalçaçılıq sənəti"nin 2010-cu ildə UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildiyi qonaqların diqqətinə çatdırılıb.

Bədii hissədə "Pəri xanımın sehrli nağılı" animasiya filmi nümayiş olunub, Xalq artisti Faiq Sücəddinovun Xalq rəssamı Eldar Mikayılzadənin sözlərinə bəstələdiyi "Sevərək toxu!" adlı yeni mahnısı ifa edilib.

Sonra sərginin açılışı olub.

Burada Rabat xalçasının möhtəşəmliyi fiziki və rəqəmsal sərgi təcrübəsini birləşdirən immersiv və vizual cəhətdən maraqlı bir ssenari vasitəsilə təqdim edilib. Sərgidə bədii fotolar, qrafik illüstrasiyalar və XX əsrə aid orijinal Rabat xalçası, həmçinin Azərbaycanın XX əsrin əvvəllərində Qazax xalçaçılıq mərkəzinə aid xalça təqdim olunur. Bu eksponatlar iki qədim tekstil ənənəsi arasındakı əlaqəni nümayiş etdirir. Bədii səyahət kimi qurulan sərgi Rabat xalçasının mənşəyini, onun incə toxuculuq texnikalarını və bu ənənənin qorunub saxlanmasında qadın sənətkarların əsas rolunu nümayiş etdirir. Sərgidə, həmçinin müxtəlif kompozisiyalar, muzeydə toxunan xalçalar da təqdim olunur.

Tədbirdə muzeyin Ənənəvi texnologiya şöbəsində toxunan "Nəqşicahan" xalçasının qədim ənənələrə uyğun hanadan kəsimi mərasimi də keçirilib, xalçaçılara həsr edilmiş rəsm əsərlərindən ibarət videoçarx nümayiş olunub.

Sərgi mayın 10-dək davam edəcək.

Daha sonra qonaqlar Azərbaycan Milli Xalça Muzeyi ilə tanış oldular. Qonaqlara xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verildi. Bildirildi ki, muzeyin kolleksiyasının "qızıl fondu"nu Azərbaycanın 7 regionunun xovlu və xovsuz xalça nümunələri təşkil edir.

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən tədbir keçirilib







Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən tədbir keçirilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Nazir Anar Əliyev Ümummilli Lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanı o zamankı ittifaq məkanında geridə qalan aqrar respublikalar sırasından dinamik inkişaf edən qabaqcıl respublikalar sırasına çıxardığını vurğulayıb. Bildirib ki, Ulu Öndərin 1993-cü ilin iyun ayında xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas edib.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin ölkəmizin sosial inkişaf strategiyasını da formalaşdırdığını diqqətə çatdıran nazir qeyd edib ki, Ulu Öndərin müəllifi olduğu, 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında da Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunub. Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsi nəticəsində Azərbaycan mühüm tarixi nailiyyətlərə imza atıb, möhtəşəm tarixi Zəfər qazanıb.

Dövlətimizin başçısının tapşırıqları əsasında son illər icra olunan ardıcıl sosial islahatların uğurlarını diqqətə çatdıran Anar Əliyev Ulu Öndərin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının nazirlik üzrə Yasamal rayonu, Salatın Əsgərova 85 ərazi partiya təşkilatının fəaliyyətini qeyd edib.

Nazirliyin Aparatında və tabeliyindəki qurumlarda 96 ərazi partiya təşkilatının yaradıldığı, nazirlik sistemi üzrə YAP üzvləri olan əməkdaşların sayının 5 min 500-ə yaxın olduğu bildirilib.

Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, hələ sovet dövründə Ulu Öndərin gördüyü böyük işlərin Azərbaycanın sonralar müstəqil dövlət kimi inkişaf etməsində mühüm rola malik olduğunu, respublikamıza rəhbərliyə qayıtdıqdan sonra müstəqil Azərbaycan dövlətini quraraq onu uzunmüddətli tərəqqi yoluna çıxardığını qeyd edib.

Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində bu gün Azərbaycan nəinki regionda lider dövlətdir, həmçinin böyük bir coğrafiyanı əhatə edən məkanda söz sahibi kimi böyük nüfuza malikdir.

Sonra nazirlik sistemində çalışan əməkdaşlardan daha 144 nəfərə YAP-ın üzvlük vəsiqələri təqdim olunub.

Partiyaya yeni üzv qəbul olunan əməkdaşlar göstərilən yüksək inam və etimada görə minnətdarlıqlarını ifadə ediblər.

# Azərbaycan - Macarıstan hərbi əməkdaşlığı inkişaf etdirilir



Mayın 6-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Macarıstan Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi, professor, general Qabor Böröndinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib, əklil və gül dəstələri qoyaraq xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Zəfər parkına gələn Macarıstan nümayəndə heyəti Zəfər abidəsinin önünə əklil qoyub.

Nazirlikdə keçirilən görüşdə Azərbaycanın müdafiə naziri qonaqları salamlayıb və onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyətindən razılıq ifadə edən nazir Macarıstanın bütün səviyyələrdə ölkəmizə dəstəyini xüsusi qiymətləndirib.

Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlərdən danışan müdafiə naziri ölkələrimiz arasında strateji əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün bütün imkanların mövcud olduğunu vurğulayıb.

General Q.Böröndi öz növbəsində səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Qarşılıqlı etimad və dostluğa dayanan münasibətlərimizin inkişaf etdirilməsində bu cür səfərlərin və keçirilən görüşlərin müsbət təsirini qeyd edib.

Görüşdə hərbi əməkdaşlığın gələcək perspektivləri və maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Azərbaycan Ordusunun Baş Qərargahında təşkil edilən rəsmi qarşılanma mərasimində hər iki ölkənin Baş Qərargah rəisləri fəxri qarovul dəstəsinin önündən keçib. Azərbaycan və Macarıstan respublikalarının Dövlət himnləri səsləndirilib. General Q.Böröndi protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

General-polkovnik K.Vəliyev macarıstanlı həmkarı ilə görüşüb.

Görüşdə Azərbaycan və Macarıstan arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və gələcəkdə daha da genişləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı təcrübə mübadiləsinin, o cümlədən hərbi qulluqçuların peşəkarlığının artırılması məqsədilə birgə təlimlərin keçirilməsinin vacibliyi qeyd olunub.

1923 *Azərbaycanın özü qədər əbədi* 2025

# Güclü siyasi hakimiyyətdən güclü milli iqtisadiyyata

**Azərbaycan Respublikasının müstəqil dövlət kimi təşəkkülündə və inkişafında, yeni dövrün tələblərinə cavab verən milli iqtisadiyyatımızın formalaşmasında Müasir Azərbaycanın Qurucusu, Ulu Öndər Heydər Əliyevin böyük və əvəzsiz xidmətləri vardır.**

Ulu Öndər hər şeydən əvvəl Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi ilə yanaşı, həm də onun qorunması ənənəsini yaratmışdır. Bu baxımdan birmənalı şəkildə qeyd etmək lazımdır ki, dövlətçilik tariximizin ən çətin və məsuliyyətli dövrü Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərlə bağlıdır. Bu tarixi dövrün siyasi-iqtisadi, sosial-mədəni aspektlərinin öyrənilməsi və tədqiq olunması hər zaman öz aktuallığını saxlayacaqdır. Çünki bu, ölkəmizin bugünkü və gələcək inkişaf vektorlarının bir daha müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi baxımından olduqca əhəmiyyətli və vacibdir.

Ümummilli Lider Heydər Əliyevin titanik fəaliyyəti, xüsusilə də onun dövlət quruculuğu və sosial-iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımlar milli iqtisadiyyatımızın əsaslarını yaratmaqla yanaşı, həm də Azərbaycanı regionun aparıcı güc mərkəzinə çevirmişdir.

Heydər Əliyevin "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir" fikri bir daha təsdiq edir ki, Ümummilli Lider milli iqtisadiyyatımızın inkişafına, sosial-iqtisadi məsələlərə dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi böyük önəm vermişdir.

1990-cı illərin ortalarından etibarən ölkəmizdə dövlət quruculuğu ilə iqtisadi quruculuq prosesinin bir-birini uğurlu bir şəkildə tamamlaması və uzlaşdırılaraq həyata keçirilməsi müstəqil dövlət kimi uğurlarımızı şərtləndirən başlıca amil kimi qiymətləndirilməlidir.

Ulu Öndər Heydər Əliyev yeni dövrün tələblərinə cavab verən və müstəqil dövlət kimi Azərbaycanın milli maraqlarını nəzərə alan iqtisadi strategiyanı, ölkəmizin iqtisadi sahədə strateji hədəflərini müəyyən etmiş və bu barədə demişdir: "Mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Məqsədimiz güclü iqtisadiyyatımızı qurmaqla ədalətli və humanist sosial siyasətə nail olmaqdır. Məhz bu, dövlət siyasətimizin əsas prinsipləridir".

### İqtisadi islahatlara siyasi impuls

Nəzərə almalıyıq ki, dünyanın bir sıra inkişaf etməkdə olan ölkələri, o cümlədən Asiya "pələngləri" nəzərəçarpacaq iqtisadi tərəqqiyə bazar iqtisadiyyatına keçməklə nail olmuşlar. Lakin bu ölkələrdə azad iqtisadiyyatın inkişafına yönəldilmiş radikal iqtisadi islahatlar kursunun ardıcıl davam etdirilməsi güclü siyasi hakimiyyətin sayəsində mümkün olmuşdur. Azərbaycanda da iqtisadi transformasiya prosesinin dönməz xarakter almasında Heydər Əliyevin siyasi qətiyyəti və iradəsi həlledici rol oynamışdır.

Hər bir ölkədə həyata keçirilən əsaslı iqtisadi dəyişikliklərin uğurla başa çatdırılması hər şeydən əvvəl cəsarətli siyasi qərarların qəbul edilməsindən, siyasi və ideoloji oriyentirlərin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasından asılıdır. Siyasi impuls olmadan iqtisadi və institusional islahatları həyata keçirmək və uğurla başa çatdırmaq mümkün deyil.

Keçmiş ittifaq respublikalarının bir çoxundan fərqli olaraq, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi hakimiyyət sistemi sabit şəkildə idarə edilmişdir. Dövlət idarəçiliyi sistemində iyerarxiya prinsipinə ciddi şəkildə əməl edilməsi ölkənin vahid mərkəzdən idarə edilməsinin səmərəliliyini artırmışdır. Hakimiyyətin icra və qanunverici orqanları arasında konstruktiv əməkdaşlıq ölkədə vahid dövlət siyasətinin həyata keçirilməsinə əlverişli şərait yaratmışdır.

Heydər Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın dövlət maraqlarının qorunmasında mühüm rol oynamış, ölkəmizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət imkanlarını xeyli genişləndirmiş, sosial-iqtisadi inkişaf üçün uzunmüddətli perspektivlər açmışdır.

Müstəqillik illərində Heydər Əliyevin milli iqtisadiyyatımızın inkişafı üçün əsas xidmətləri bir tərəfdən ictimai-siyasi sabitliyin təmin edilməsi, digər tərəfdən isə iqtisadi islahatların aparılmasına ardıcıl siyasi dəstəyin verilməsi ilə izah olunur.

Xarici ekspertlər ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsini və milli iqtisadiyyatın formalaşdırılması sahəsində strateji addımların atılmasını ölkəmizin mövcud potensialının reallaşdırılması üçün "imkanlar pəncərəsi" kimi dəyərləndirirdilər.

İqtisadi islahatların həyata keçirilməsində beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq mühüm rol oynamışdır. Azərbaycan Respublikası Dünya Bankına və BVF-yə üzv dövlət kimi 1992-ci ildə qəbul edilsə də, həmin təşkilatlarla intensiv əməkdaşlığa, birgə hazırlanmış iqtisadi proqramların və layihələrin həyata keçirilməsinə, kredit transların açılmasına əsasən 1995-ci ildən başlanılmışdır. Bu, hər şeydən əvvəl onunla izah olunur ki, 1995-ci ilədək ölkəmizdə siyasi vəziyyətin qeyri-sabitliyi şəraitində beynəlxalq maliyyə təşkilatları Azərbaycanla fəal əməkdaşlığa meyil etmir və kreditlərin ayrılmasında gözləmə mövqeyi tuturdular.

Genişmiqyaslı islahatlar aparmadan, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində köklü dəyişikliklər etmədən müəyyən edilmiş iqtisadi strategiyanın reallaşdırılmasına nail olmaq qeyri-mümkündür. İqtisadi islahatları isə yalnız güclü siyasi iradəyə və qətiyyətli mövqeyə malik olan dövlətlər uğurla həyata keçirə bilir. Bu baxımdan Heydər Əliyevin qəbul etdiyi radikal qərarlar islahatların dönməzliyinin təmin edilməsində həlledici rol oynamışdır.

### Dövlət müstəqilliyi və iqtisadi inkişaf

Bəli, Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin yaranması Ümummilli Liderin adı ilə bağlıdır. Heç şübhəsiz, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha çətindir. Bunu müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu da bir daha təsdiq edir. Bu müddət ərzində dövlətimizə və onun müstəqilliyinə qarşı qəsdlər olsa da, onların qarşısı qətiyyətlə alınmışdır.

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Dövlət müstəqilliyi iqtisadiyyatımızın milli maraqlarımıza uyğun inkişaf etdirilməsinə şərait yaratdı. Artıq Azərbaycanın siyasi müstəqillik əldə etməsi iqtisadi problemlərə milli iqtisadiyyatın inkişafı kontekstindən, dövlətçilik və milli maraqlar baxımından yanaşmağı tələb edir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini əldə etməsəydi və onu son illərə kimi qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını həyata keçirə bilərdik, nə də ölkəmizin strateji əhəmiyyətə malik olan beynəlxalq iqtisadi layihələrdə iştirakı mümkün olardı.

Hər bir xalqın, millətin xoşbəxtliyi ilk növbədə onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən olunur. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış olan xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa daha tez nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

### Azərbaycan iqtisadiyyatı vahid xalq təsərrüfatı kompleksinin tərkibində

Heydər Əliyevin hələ birinci dəfə respublika rəhbərliyinə gəlişindən öncə Azərbaycan iqtisadiyyatı dərin böhran keçirirdi. 1960-cı illərdə sosial-iqtisadi inkişaf göstəricilərində ciddi geriləmə meyilləri müşahidə edilirdi. Xüsusilə də respublikamız milli gəlirin artım tempinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, əmək məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə idi. Azərbaycan orta ittifaq göstəricisindən milli gəlirin həcminə görə 2, əsas fondlara görə 1,8, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı. Aqrar-sənaye kompleksi üzrə istehsal səviyyəsi aşağı düşməkdə davam edirdi. Taxılın, pambığın, üzümün, tərəvəzin, çay yarpağının və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi.

Respublikanı belə bir ağır vəziyyətdən qurtarmaq üçün çıxış yolu axtarıb tapılmalı, iqtisadiyyatın inkişafı üçün yeni konseptual proqram işlənməli, köklü struktur dəyişiklikləri həyata keçirilməli idi. Bir sözlə, Azərbaycanın sosial-iqtisadi həyatında əsaslı dönüşə ehtiyac var idi. Belə bir dönüşü isə yalnız güclü, bacarıqlı, yüksək təşkilatçılıq keyfiyyətlərinə malik olan cəsarətli bir rəhbər edə bilərdi. Belə bir rəhbər məhz Heydər Əliyev oldu.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçiləndən az müddət sonra Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda etdiyi məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyəti hərtərəfli təhlil etdi, sosial-iqtisadi və mədəni quruculuq sahəsində buraxılmış ciddi nöqsanları və çatışmazlıqları müəyyənləşdirdi. Beləliklə, 1969-1970-ci illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsinin başlanğıcı oldu.

Heydər Əliyevin yorulmaz fəaliyyəti və əzmkarlığı, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı Azərbaycanın 1970-1980-ci illərdə əldə etdiyi uğurların əsasını qoydu. Bu illər ərzində görülmüş işlər ölkəmizin iqtisadi gücünün və potensialının formalaşdırılmasında həlledici rol oynadı. Lakin yaradılmış bu potensial nə 80-ci illərin sonlarında, nə də 90-cı illərin əvvəllərində qorunub saxlanıldı.

1970-1985-ci illərdə respublikamız güclü iqtisadi və intellektual kadr potensialına malik olmaqla bir çox məhsulun istehsalına görə keçmiş müttəfiq respublikalar arasında qabaqcıl yerlərdən birini tuturdu.



Ümummilli Lider Heydər Əliyev milli iqtisadiyyatın qurucusudur

Hələ SSRİ dağılmamışdan əvvəl ekspertlər siyasi müstəqilliyə iqtisadi cəhətdən tam hazır olan iki respublikadan biri kimi məhz Azərbaycanı qeyd edirdilər. Çıxarılan belə bir nəticə ölkəmizin təkcə təbii sərvətlərinin zənginliyinə deyil, həm də milli iqtisadiyyatımızın inkişaf perspektivlərinə əsaslanırdı. Belə ki, keçmiş Sovet İttifaqı dövründə Azərbaycanın büdcəsinin gəlirləri xərclərindən bir qayda olaraq çox olurdu. Azərbaycanda həmçinin istehsal olunan milli gəlirlə istehlak olunan milli gəlir arasında birincinin xeyrinə böyük fərq əmələ gəlirdi.

Azərbaycan keçmiş ittifaqın tərkibində olan müttəfiq respublikalardan biri kimi son 70 ildə özünəməxsus iqtisadi inkişaf yolu keçib. Bəs respublikamız bu müddət ərzində mövcud maneələrə və məhdudiyyətlərə baxmayaraq öz iqtisadi potensialını, milli iqtisadi maraqlarını reallaşdıra bilibmi? Bu sualları cavablandırmağa çalışaq.

Sovet İttifaqının mövcud olduğu illərdə Azərbaycanın müstəqil iqtisadi siyasət həyata keçirmək imkanlarının məhdud olmasına baxmayaraq, ölkəmiz həmin dövrdə iqtisadi sahədə ciddi uğurlar əldə etmişdir. 1970-1985-ci illərdə respublikamız iqtisadiyyatın bütün sahələrində güclü iqtisadi və kadr potensialına malik olmuşdur. Bir çox məhsulun istehsalına görə keçmiş SSRİ respublikaları arasında qabaqcıl yerlərdən birini tutmaqla Azərbaycan həmin məhsulların əksər hissəsini müxtəlif regionlara göndərirdi.

1970-1985-ci illərdə xalq təsərrüfatının artım sürəti orta ittifaq səviyyəsindən yüksək olmuşdur. Həmin dövrdə respublikamızda istehsal olunan milli gəlir 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı məhsulu 2,3 dəfə artmışdır. Bu dövrdə həmçinin 211 yeni iri sənaye obyekti tikilib istifadəyə verilmişdir. 1986-cı ilin məlumatlarına əsasən, ittifaq üzrə istehsal olunan məişət kondisionerlərinin 100 faizi, neft-mədən avadanlığının 70 faizi, elektrik mühərriklərinin 12 faizi, soyuducuların 6 faizi Azərbaycanda istehsal edilirdi. Eyni zamanda ittifaq üzrə istehsal olunan üzümün 27 faizi, tütünün 16 faizi, baramanın 13 faizi, pambıq mahlıcının 9 faizi, yaşıl çay yarpağının 5 faizi, tərəvəzin 3 faizi Azərbaycanın payına düşürdü.

Bu rəqəmlər Sovet İttifaqının mövcud olduğu illərdə Azərbaycanın əsaslı iqtisadi inkişaf yolu keçdiyini göstərir. 1980-ci illərdə yeni sənaye müəssisələrinin açılması, maşın və avadanlıqların alınması SSRİ-nin digər respublikalarına nisbətən Azərbaycanda əsas kapitalın (əsas fondların) daha sürətlə artmasına səbəb olmuşdur.

Qeyd edilən dövrdə Azərbaycan iqtisadiyyatı vahid xalq təsərrüfatının tərkib hissəsi olsa da, Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda genişmiqyaslı iqtisadi quruculuq prosesinə start verilmişdir.

### Azad iqtisadiyyatın inkişafına konstitusion təminat

Heydər Əliyevin dövlət quruculuğu sahəsində atdığı strateji və siyasi xarakterli mühüm addımlardan biri də 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi təşəbbüsü oldu.

Hər bir dövlətin Əsas Qanunu - Konstitusiyası həm də ölkənin hansı siyasi və iqtisadi inkişaf yolunu seçdiyini müəyyənləşdirir. Yeni Konstitusiya dövlət idarəçiliyinin formasını, vətəndaşların və dövlətin hüquq və vəzifələrini müəyyən etməklə yanaşı, həm də iqtisadi sistemin əsaslarını, dövlətin iqtisadi strategiyasının əsas prinsplərini özündə əks etdirmişdir.

Heydər Əliyev yeni Konstitusiyanın müəllifi kimi bir tərəfdən ölkədə dövlət idarəçiliyinin əsaslarını, digər tərəfdən də Azərbaycanın iqtisadi inkişaf modelinin əsas prinrsiplərini təsbit etmişdir. Bu həm də iqtisadi ideologiyanın müəyyən edilməsi deməkdir. Mahiyyəti etibarilə iqtisadi ideologiya dövlətin iqtisadi strategiyasını, iqtisadi islahatların konseptual əsaslarını, seçilmiş iqtisadi modelin əsas prinsiplərini, ölkənin milli iqtisadi mənafeyi və maraqları ilə bağlı məsələləri özündə birləşdirir.

Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi ideologiya artıq Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Belə bir ideologiyanın əsasını hər şeydən əvvəl mülkiyyət münasibətləri təşkil edir. Mülkiyyətin toxunulmazlığı və onun dövlət tərəfindən müdafiə edilməsi artıq konstitusion müddəaya çevrilmişdir. Əsas Qanunda həm də qeyd edilir ki, Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. "İqtisadiyyatın inkişafı xalqın rifahının yüksəldilməsinə xidmət edir" müddəası isə iqtisadi siyasətin sosialyönümlü olmasını təsbit edir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, ölkəmizdə prezidentli respublika üsuli-idarəsinin seçilməsi iqtisadi sistemin transformasiyasının və radikal iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi baxımından özünü doğrultmuşdur. Təsadüfi deyildir ki, bir çox ekspert keçid mərhələsində olan ölkələr üçün prezidentli respublikaya əsaslanan dövlət idarəçiliyini daha məqsədəuyğun hesab edir.

Azərbaycan Respublikasının Konstitusiyası iqtisadi siyasətin hazırlanması və həyata keçirilməsi ilə bağlı olan bütün idarəetmə halqalarının iqtisadi idarəçilik sahəsində hüquq və səlahiyyətlərini, onların əsas vəzifələrini dəqiq müəyyən etmişdir. Belə ki, ali icra hakimiyyəti - Azərbaycan Respublikasının Prezidenti dövlətin iqtisadi və sosial proqramlarını təsdiq etməklə sosial-iqtisadi siyasəti müəyyən edir. Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı kimi sosial-iqtisadi proqramların icrasını, yəni dövlət başçısı tərəfindən müəyyən edilmiş iqtisadi siyasətin həyata keçirilməsini təmin edir. Mərkəzi icra hakimiyyəti orqanları isə öz səlahiyyətləri daxilində müvafiq proqramların reallaşdırılmasında iştirak edir, dövlətin ayrı-ayrı sahələr üzrə müəyyən edilmiş siyasətini həyata keçirir.

Qeyd edilən müddəalar iqtisadi islahatların dönməzliyinə konstitusion təminat verməklə yanaşı, həm də bazar münasibətlərinin ölkənin iqtisadi həyatına daha dərindən nüfuz etməsi üçün hüquqi-ideoloji zəmin yaradır.

### Azad iqtisadiyyat və azad cəmiyyət

Heydər Əliyevin sosialist təsərrüfat sisteminin mövcud olduğu illərdə Azərbaycanın rəhbəri, Sovet İttifaqı hökumətinin isə vəzifəcə ikinci şəxsi olmasına baxmayaraq, o, 1993-cü ildən - müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, müasir cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. Bu yol isə iqtisadiyyat üzərində dövlət inhisarçılığının aradan qaldırılmasından, sahibkarlığın inkişaf etdirilməsindən, iqtisadi azadlığın təmin edilməsindən başlayır.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövr ərzində iqtisadiyyatın liberallaşdırılmasına yönəldilmiş tədbirlər eyni zamanda insan azadlığının və cəmiyyətin demokratikləşməsinin iqtisadi-ideoloji əsaslarının yaradılması kimi də qiymətləndirilə bilər. Azad cəmiyyət iqtisadiyyatın, xüsusilə də özəl bölmənin və sahibkarlığın inkişafına şərait yaratdığı kimi, azad iqtisadiyyat da cəmiyyətdə demokratik dəyişikliklərin sürətlənməsinə xidmət edir. Xatırlatmaq istərdik ki, Heydər Əliyev BVF-nin nümayəndə heyəti ilə görüşündə iqtisadiyyat və demokratiyanın qarşılıqlı əlaqəsinin mahiyyətini açan belə bir fikir söyləmişdir: "İqtisadi əsas olmasa, demokratiyanı yaratmaq mümkün deyil… Azərbaycanda ictimai-siyasi sabitliyin təmin edilməsi, iqtisadiyyatın tənəzzülünün qarşısının alınması və nəhayət, makroiqtisadi inkişafın əldə olunması - bunlar hamısı birlikdə Azərbaycanda həqiqi demokratiyanın yaranmasının əsaslarıdır".

Ümummilli Lider güclü və inkişaf edən iqtisadiyyatı azad və demokratik cəmiyyətin formalaşdırılmasının həlledici və zəruri şərti hesab edirdi. Bəli, milli iqtisadiyyatını formalaşdıra bilməyən, milli sərvətlərinə sahiblənməyən, yoxsulluq və səfalət, borc içərisində yaşayan ölkələr azad və demokratik cəmiyyət qura bilməzlər. Bu gün müstəqil Azərbaycan Respublikası özünün indiyə kimi topladığı iqtisadi gücü ilə təkcə azad cəmiyyətin qurulması üçün deyil, həm də heç kimdən asılı olmadan müstəqil siyasətin həyata keçirilməsi üçün möhkəm əsaslar yaratmışdır.

### "Əsrin müqaviləsi" Azərbaycanın strateji uğuru kimi

Təcrübə göstərir ki, milli iqtisadiyyatını yenicə formalaşdırmaqda olan ölkələrin sosial-iqtisadi inkişafı ilkin mərhələdə sənayenin bir və ya iki sahəsindən asılı vəziyyətdə olur. Və həmin sahələr ölkədəki bir çox iqtisadi problemin həllində mühüm rol oynayır. Azərbaycanda da sosial-iqtisadi inkişaf üçün lokomotiv funksiyasını məhz neft sektoru yerinə yetirməkdədir. Bu baxımdan hesab edirik ki, bir çox maneə və təzyiqə baxmayaraq, Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ölkədə iqtisadi inkişafın əsasını qoydu. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu müqavilənin imzalanması ilə Azərbaycan həm də özünün siyasi və iqtisadi diplomatiya tarixində çox böyük bir uğuruna imza atdı. Sevindirici haldır ki, əldə edilmiş bu nailiyyət sonradan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin reallaşması ilə tamamlandı.

"Əsrin müqaviləsi" böyük siyasi əhəmiyyətə malikdir. Onun imzalanması dövlət müstəqilliyimizin təsdiqi kimi qiymətləndirilir. Bu müqavilə Azərbaycanın regionda geostrateji mövqeyini daha da gücləndirmiş, dünyanın ən iri neft şirkətlərinin ölkə iqtisadiyyatına cəlb edilməsinə, dünyanın aparıcı dövlətləri ilə iqtisadi əlaqələrimizin daha da inkişafına, siyasi və iqtisadi diplomatiya sahəsində Azərbaycanın müstəqil dövlət kimi manevretmə imkanlarının artmasına şərait yaratmışdır.

"Əsrin müqaviləsi"nin iqtisadi əhəmiyyəti də çoxşaxəlidir. Belə ki, bu müqavilə ilə Azərbaycanın enerji təhlükəsizliyinin əsası qoyuldu. Xarici investisiyaların cəlb edilməsi üçün yaşıl işıq yandı. Ölkəmizin regional və beynəlxalq iqtisadi inteqrasiya prosesində yaxından iştirakına əlverişli şərait yarandı. Hazırda neft sektoru ölkənin makroiqtisadi göstəricilərinə, xüsusilə də iqtisadi artım tempinə, sənaye istehsalının və ixracatın həcminə, büdcə və valyuta gəlirlərinə həlledici təsir göstərməkdədir. Bu təbiidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, neft sektoru hələ müəyyən müddət iqtisadiyyatda həlledici rol oynayacaq.

### Neft gəlirlərinin səmərəli idarə edilməsi modeli

Dünya ölkələrinin təcrübəsinə istinadən qeyd etmək olar ki, hər bir ölkənin təbii sərvəti iqtisadi inkişaf üçün zəmin yaratsa da, onun həlledici şərti kimi çıxış etmir. Nə qədər təzadlı görünsə də, dünyanın zəif inkişaf etmiş ölkələrinin əksəriyyəti təbii ehtiyatları zəngin olan ölkələrdir. Belə bir təzad həmin ölkələrdə mövcud iqtisadi potensialın reallaşdırılmasına şərait yaradan səmərəli iqtisadi sistemin olmamasının nəticəsidir.

Ulu Öndər Heydər Əliyev məhz böyük şəxsiyyətlərə xas olan uzaqgörənliklə bu gerçəkliyi nəzərə alaraq, neft gəlirlərinin idarə edilməsinin ən effektiv modelini yaratdı. Bu model neft-qaz ixracından əldə edilən valyuta gəlirlərinin Dövlət Neft Fondunda toplanılmasını və həmin vəsaitlərin mərkəzləşdirilmiş qaydada istifadəsini nəzərdə tutur.

Böyük məbləğdə neft gəlirlərinin səmərəli idarə edilməsi baxımından Dövlət Neft Fondu hazırda mühüm rol oynayaraq üç mühüm makroiqtisadi funksiyanı yerinə yetirir: birincisi, neft dollarının ölkənin valyuta bazarına təzyiq göstərməsinə imkan vermir; ikincisi, dividendlər hesabına öz həcmini artırır; üçüncüsü, ölkənin maliyyə sistemini "neftsiz iqtisadiyyat rejimi"nə uyğunlaşdırır.

### İnstitusional islahatlar və idarəetmə sistemində dəyişikliklər

İdarəetmə islahatları bir qayda olaraq yalnız azad iqtisadiyyatın inkişafına və bürokratik meyillərin aradan qaldırılmasına, çevik idarəçiliyə və koordinasiyaya şərait yaratdığı halda yüksək iqtisadi və təşkilati effektə malik olur. Ümumiyyətlə, dövlət idarəetmə sistemində islahatlar ağrılı və çətin prosesdir. Lakin siyasi hakimiyyəti güclü və sabit olan ölkələrdə iqtisadi islahatlar və struktur dəyişiklikləri daha davamlı və rəvan bir şəkildə həyata keçirilir. Çünki hakimiyyətin siyasi gücü həmin islahatların aparılması yolunda qarşıya çıxan "maneələri" asanlıqla dəf etməyə imkan verir. Heydər Əliyevin milli iqtisadiyyatın formalaşması və inkişaf etdirilməsi, o cümlədən idarəetmə və dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi sahəsində qəbul etdiyi qərarlar bunu bir daha təsdiq edir.

Bütün postsosialist ölkələri və keçmiş ittifaq respublikaları kimi, Azərbaycan da bazar iqtisadiyyatına keçid prosesinə qəbul edilmiş ümumi "reseptlər" əsasında başlamışdır. Bu mənada transformasiya dövrünü yaşayan ölkələrdə iqtisadi islahatların gedişi və onun mərhələləri bir-birindən demək olar ki, fərqlənmir. Başlıca fərq həmin ölkələrin seçmiş olduğu tənzimləmə və idarəetmə modelindədir. Sözsüz ki, iqtisadi potensialı, sənaye strukturu, milli iqtisadi maraqları, geopolitik mövqeyi, yeni iqtisadi münasibətlərin formalaşması sürəti bir-birindən fərqli olan ölkələrin tənzimləmə modeli və idarəetmə sistemi də eyni ola bilməz. Bunu nəzərə alaraq, Heydər Əliyev tərəfindən Azərbaycanda sosial-iqtisadi inkişafın spesifik xüsusiyyətlərini və mövcud reallıqlarını nəzərə alan iqtisadi tənzimləmə modeli və idarəetmə sistemi qurulmuşdur.

Azərbaycanda iqtisadi islahatların institusional problemlərinə, xüsusilə də iqtisadiyyatın idarə edilməsinin təşkilati strukturunun təkmilləşdirilməsinə, bazar infrastrukturunun formalaşdırılmasına, islahatların kadr təminatı ilə bağlı problemlərin həllinə Ümummilli Lider tərəfindən xüsusi diqqət yetirilirdi. Onun tərəfindən "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" 29 dekabr 1998-ci il tarixli fərmanın imzalanması idarəetmə islahatlarının konseptual əsaslarının hazırlanması və bu prosesin geniş miqyasda həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir.

*Dövlət idarəetmə sisteminin yenidən qurulması prosesində diqqət yetirilməli mühüm məsələlərdən biri də idarəetmə islahatlarının iqtisadi islahatların tempi ilə düzgün əlaqələndirilməsidir. Yəni idarəetmə sisteminin restrukturizasiyası ilə yeni iqtisadi sistemin formalaşması və iqtisadi münasibətlərin yeniləşməsi bir-birini tamamlamalıdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Heydər Əliyev idarəetmə sisteminin təkmilləşdirilməsi ilə aparılan iqtisadi islahatların sinxronlaşdırılmasını təmin etmiş və bu da öz növbəsində iqtisadiyyatın effektiv tənzimlənməsinə əlverişli şərait yaratmışdır.*

*(Ardı var)*

**Azər ƏMİRASLANOV,**
***Azərbaycan Respublikası Milli Məclisinin***
***İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri***

1923 *Azərbaycanın özü qədər əbədi* 2025

# Heydər Əliyev epoxası



**Tarix, şəxsiyyət və xalq anlayışları arasında belə bir qızıl asılılıq aksiomu mövcuddur: tarixi məhz dahi şəxsiyyətlər öz işıqlı əməlləri ilə yazır və tarixdə yaşayırlar. Nadir şəxsiyyət və dühanın tarixi məhvərindən dəyişə bilməsi üçün isə tarixi zərurətin yaranması mütləqdir, labüddür. Hər hansı bir xalqın var oluşu isə bilavasitə onun lider yetirə bilməsinə, o lideri müəyyən tarixi situasiyalarda qoruyaraq ətrafında birləşə bilməsinə bağlıdır.**

Hər bir xalqın böyüklüyü, tarixinin möhtəşəmliyi onun yetişdirdiyi görkəmli şəxsiyyətlərin həyatı, fəaliyyəti ilə bilavasitə bağlıdır. "Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevə məxsusdur. Doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə Ümummilli Liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Heydər Əliyev bəşəriyyətin sülh, əmin-amanlıq, dostluq və firavanlıq içində yaşaması üçün çox işlər görmüşdü.

XX əsrin sonuna yaxın dövlət müstəqilliyini əldə etmiş Azərbaycan xalqı məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında üzləşdiyi faciələri aradan qaldırmış, milli varlıq və idrakının, özünüdərkinin ali təzahür forması olan suveren, azad dövlət ideyasını uğurla gerçəkləşdirmişdir. Məhz ona görə də bu böyük insan təkcə öz ömrünün, bir insan həyatının deyil, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində özünə əbədi yer qazanmış dahi şəxsiyyətdir. Ulu Öndərin mənalı və şərəfli ömür yolunun hər bir parlaq səhifəsi xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir.

Azərbaycan xalqı may ayının 10-nu - dahi şəxsiyyətin anadan olduğu günü tarixin ən əziz günlərindən biri kimi qeyd edir. 102-ci ildönümü ərəfəsində olduğumuz böyük öndərin xatirəsi onu həmişə əziz tutan milyonları bir daha öz nuruna bürüyür. Heydər Əliyev şəxsiyyəti tariximizdə, milli siyasi təfəkkürümüzdə çox böyük məna yükü daşıyan fenomenə çevrilibdir.

Qüdrətli və böyük insan Heydər Əliyevin Azərbaycan xalqının tarixi taleyində oynadığı rol misilsizdir. Türk dünyasının fəxri olan Ulu Öndər Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetirdiyi böyük dühalardan biri kimi ehtiramla xatırlanır. Zaman ötdükcə, illər keçdikcə bir çox meyar, prinsip dəyişir, ancaq obyektiv tarixi meyillərin və həqiqətin meyarı isə dəyişməz qalır. Odur ki, Azərbaycan xalqının Ümummilli Lideri, dərin zəkası və rəhbərlik etmək istedadı, uzaqgörənliyi və nüfuzu ilə bütün dünyanı heyran qoymuş Ulu Öndər Heydər Əliyev haqqında keçmiş zamanda danışmaq mümkün deyil. Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev XX əsrin ən böyük liderləri sırasındadır. O, müasir demokratik Azərbaycanın ən yeni tarixinin yaradıcısı və müəllifidir. Tarixi yaradan, onun gedişinə müsbət təsir göstərən, tarixdə iz qoyan şəxsiyyətlər yüzilliklər boyu yadda qalır. Heydər Əliyev Azərbaycanın və dünyanın ən görkəmli siyasətçilərindən biridir. Onun fəaliyyəti təkcə siyasətlə məhdudlaşmırdı. Hərtərəfli şəxsiyyət olan Heydər Əliyev həm tarixçi, həm memar, həm iqtisadçı idi. O, mədəniyyəti və mədəni dəyərləri çox yüksək qiymətləndirərək, milliliyə böyük önəm verərək adət-ənənələrin qorunub saxlanılmasında əvəzsiz işlər görmüşdür.

Azərbaycan ötən yüzillikdə iki dəfə dövlət müstəqilliyi qazanıb. Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq və onu həyata keçirmək güclü dövlət siyasətinin və eyni zamanda milli liderin olmasını tələb edib. Məhz dövlət müstəqilliyini qoruyub saxlamaq, müstəqil dövlət quruluşunu, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq və digər ümummilli məqsədlər Azərbaycan xalqının təkidli tələbindən sonra 1993-cü ildə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin qətiyyətli əməyi sayəsində mümkün olmuşdur.

Ulu Öndərin gərgin zəhməti nəticəsində Azərbaycan onun hakimiyyətinin birinci dövründə - 1969-1982-ci illərdə respublikada güclü iqtisadiyyatın təməlinin qoyulması sayəsində qısa müddət ərzində yüksək iqtisadi inkişafa nail olub. Bu, Heydər Əliyevin görkəmli dövlət xadimi, peşəkar siyasətçi olmaqla yanaşı, həm də respublikanın xalq təsərrüfatına dərindən bələd olan ölkə başçısı olduğu barədə fikirləri təsdiqləyir. Çünki 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə yürüdülən iqtisadi və sosial siyasət sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişaf etməsi, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yalnız xalq təsərrüfatının dərin bilicisi olmaqla müvəffəq olmaq mümkün idi. Məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatların sayəsində Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi.

Heydər Əliyevin fəaliyyəti nəticəsində respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanın keçmiş müttəfiq respublikaları sırasında öncül yerlərdən birini tutmasına gətirib çıxartdı. Azərbaycan quruculuq, yaradıcılıq və tərəqqi dövrü keçirirdi, cəmiyyətin bütün təbəqələrində fasiləsiz inkişaf, irəliləyiş ruhu hökm sürürdü.

Heydər Əliyev ittifaq dövlətinin rəhbərliyində işlədiyi beş il ərzində də dünya siyasətinin ən nüfuzlu nümayəndələri sırasında özünə layiqli yer tutdu, vətənimizin və xalqımızın şərəfini yüksəklərə qaldırdı. Məhz bu baxımdan öz dövrünün ən xarizmatik dövlət xadimi və ən praqmatik siyasətçisi kimi tanınan Heydər Əliyev ümumbəşəri dəyərlərin daşıyıcısı missiyasına yüksələn universal şəxsiyyət kimi regionun coğrafi sərhədlərinə sığmayaraq ümumdünya kontekstinə çıxdı.

Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik, iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazisini təşkil edir. Bu baxımdan keçən əsrin 70-80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müstəqillik yolunda mühüm təməl hesab edilməlidir. Bu mənada Ulu Öndərin fəaliyyəti ilə təkcə ittifaq respublikası olan Azərbaycanın deyil, həm də gələcək müstəqil Azərbaycanın möhkəm təməli, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının bünövrəsi qoyuldu. Onun ikinci hakimiyyəti illərində isə Azərbaycan dünya miqyasında tanınan və tərəqqiyə doğru gedən dövlət statusunu qazandı. Ulu Öndərin yenidən ölkəyə rəhbərliyi sayəsində siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. Ulu Öndərin hakimiyyətə gəlişi ilə öz həqiqi dövlət müstəqilliyinə qovuşmuş Azərbaycanın inkişaf strategiyası müəyyən edildi. Bu strateji konsepsiya ölkəmizin potensial imkanları, milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmaqla hazırlandı.

Ulu Öndər ilk növbədə çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində siyasi iradə nümayiş etdirdi və iqtisadi transformasiyanın qanunauyğunluqlarını nəzərə alaraq əsaslı islahatlara start verdi. O, Azərbaycanın milli inkişaf doktrinasını hazırlamaqla respublikamızın uzunömürlü tərəqqisinə dərin əsaslar yaratdı.

Müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində və zəngin iqtisadiyyata malik olmasında neft amili xüsusi rol oynayır. Neft sərvətlərinin mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası isə düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun neft siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaradıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesində tamamilə yeni mərhələnin əsası qoyuldu. Bu dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kampaniyalarını cəlb etmək və yeni nəql marşrutları yaratmaqdan ibarət idi. Digər sahələrdə də özəlləşdirmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verdi və liberal iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yarandı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. Ulu Öndərin atdığı qətiyyətli addımlar sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycanın gələcək rifahının başlanğıcı olmaqla respublikanın enerji sektorunun inkişafı iqtisadiyyatın qeyri-neft sahəsinin fəal artımına gətirib çıxarmışdır. Həm də bu sazişin böyük iqtisadi faydası ilə yanaşı, daha bir əhəmiyyəti var idi: saziş dünyanın aparıcı dövlət və şirkətlərini bir daha əmin etdi ki, Azərbaycan müstəqil və etibarlı tərəfdaşdır. Bu ölkədə işləmək və sərmayə qoymaq olar. "Əsrin müqaviləsi" bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı və bir qədər sonra dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yarandı. Müqavilənin imzalanması Azərbaycan iqtisadiyyatının digər sahələrinə də xarici sərmayələr qoyuluşunda həlledici rol oynadı. Bununla da iqtisadiyyatımızın inkişafında ilk addımlar atılmağa başlandı.

1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası isə respublikamızın siyasi-iqtisadi, sosial-humanitar bölmələri ilə bağlı bütün təfərrüatları özündə əks etdirməklə strateji əhəmiyyətinə görə seçildi.

Ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklər müşahidə olunmağa başladı. Beləliklə də, Ulu Öndər Heydər Əliyev həm nəzəri səviyyədə, həm də praktikada norma və dəyərlər məcmusunu həyata keçirmiş, bu məcmu həyat qabiliyyətli demokratiya modelinə çevrilmişdir. Heydər Əliyevin Prezident olduğu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır. Azərbaycanın iqtisadi-sosial və siyasi-hüquqi sisteminin qurulmasında olduğu kimi, demokratik inkişafa, xüsusilə də söz və mətbuat azadlığına olan diqqət və qayğısı da özünü yüksək nəticələrdə göstərmişdir. Ulu Öndərin Azərbaycan mətbuatının inkişafında rolu özünü müstəqillik illərində də nümayiş etdirmişdir. Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin prezidentliyi dövründə ölkə kökündən dəyişmiş, daxili və xarici siyasətin bir çox istiqamətində əhəmiyyətli uğurlar qazanılmışdır. Azərbaycan dövləti uzunmüddətli yaşamaq qabiliyyətini, cəmiyyət isə tarixi prosesin növbəti mərhələsində iştirak etməyə hazır olduğunu nümayiş etdirmişdir. Müasir Azərbaycan Respublikasının müstəqilliyi həm ölkənin sadə vətəndaşları, həm də qlobal miqyaslı mühüm güc mərkəzləri üçün aksioma çevrilmişdir.

Ulu Öndər əsl ümumxalq məhəbbəti qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanın sabitlik və təhlükəsizliyinin qarantı oldu, ölkəmizi inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi. Dövlətçilik tariximizin müasir mərhələsinin əsasını qoydu, Azərbaycanın reallıqlarını, ictimai-siyasi, mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl bir elmi-nəzəri sistem - dövlət quruculuğu fəlsəfəsini, dövlətçilik ideologiyasını yaratdı.

Beləliklə, bu nailiyyətlərin hər birini diqqətlə təhlil edərkən Ulu Öndər Heydər Əliyevin qərar və təşəbbüslərinin nə qədər strateji əhəmiyyət daşıdığını və Azərbaycanın uzaq milli hədəflərini özündə ehtiva etdiyini görürük. Yalnız dünya inkişafının perspektivini aydın görən, ona doğru addımlayan və ölkəsini, xalqını ona doğru istiqamətləndirən Heydər Əliyevin uzaqgörən siyasəti müasir Azərbaycanın dünya birliyinə təbii inteqrasiyasını təmin edərək, onun müstəqilliyini əbədi və dönməz prosesə çevirdi.

Heydər Əliyev iki müxtəlif iqtisadi sistemin mövcud olduğu dövrdə ölkəyə rəhbərlik edib və hər iki dövrdə iqtisadi münasibətlərin real xarakterinə uyğun siyasət yeridib, beləliklə, xalqımızın maddi rifahı təmin olunub, ədalətlilik, bərabərlik prinsipi nəzərə alınıb. Müxtəlif tarixi-iqtisadi şəraitdə, həmçinin siyasi quruluşların fərqli olduğu bir zamanda ölkəyə rəhbərliyi, cəmiyyətin inkişaf mexanizmlərini görməsi, onu hərəkətə gətirməsi və sürətləndirməsi, davamlılığı, dayanıqlığı təmin etməsi Heydər Əliyev fenomeninin xarakterik cizgiləri kimi qeyd edilməlidir.

Heydər Əliyev azadlığı, müstəqilliyi bir dəyər kimi həmişə yüksək qiymətləndirərək xalqımızın milli varlığının qorunması, inkişafı, ərazi bütövlüyünün bərpası üçün daim mübarizə aparmışdır. O, azad, müstəqil respublikanı xalqımızın ən böyük tarixi nailiyyəti sayır və onu qorumağın yollarını göstərirdi.

Ümummilli Lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi fəaliyyətinin məzmunu, həqiqətən, gələcəyin bir yol xəritəsi, strategiyası kimi əhəmiyyətlidir. O, Azərbaycana rəhbərliyinin birinci dövründə xalqın milli dirçəlişinə, oyanışına çalışırdısa, sonrakı dövrdə müstəqilliyi qorumağı, inkişaf etdirməyi, möhkəmləndirməyi strateji hədəf kimi qiymətləndirir və tam əminliklə deyirdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır. Azərbaycanın müstəqilliyinin qorunmasında gənclərin üzərinə düşən böyük məsuliyyətdən bəhs edərkən onları daim çalışmağa, təhsil almağa, vətənpərvər bir insan kimi yetişməyə səsləyirdi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yüzilliklər boyu yetirdiyi nadir şəxsiyyətlərdən biri olmaqla milli qürur mənbəyimizdir. Onun həyatı, fəaliyyəti, Azərbaycan tarixində xüsusi mərhələ kimi dövlətə, xalqa xidmətləri həmişə öyrənilməli, gənclərin vətəndaşlıq mövqeyinin, milli mənlik şüurunun formalaşdırılmasında örnək göstərilməlidir. Ulu Öndərimizin tarixi xidmətlərinin müxtəlif elmi istiqamətlər üzrə geniş və daha dərindən, sistemli şəkildə davamlı olaraq araşdırılması və ideyalarının təbliği işində yeni texnologiyalardan məqsədyönlü istifadə edilməsi vacibdir.

Heydər Əliyev elə bir şəxsiyyət və lider olmuşdur ki, onun irsinin öyrənilməsi və təbliği ümumdövlət, ümumxalq işidir və bunun üçün elmi-tədqiqat institutlarına və xüsusi akademiyaya ehtiyac var. Yüksək milli-əxlaq nümunəsi olan Ümummilli Lider Heydər Əliyevin fenomenal irsi və mənalı həyat yolunun fəal təbliği bu gün xüsusi əhəmiyyət kəsb edir. Gənc nəsli və yeniyetmələri milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda tərbiyə etmək üçün biz Heydər Əliyev şəxsiyyətinə müraciət etməliyik və bu dahi insanın həyatının əbədi milli örnək kimi geniş təbliğ olunmasına çalışmalıyıq.

Öyrənildikcə öyrənilən, heç zaman tükənməyən Heydər Əliyev irsi, onun yaradıcı zəkası hələ uzun illər çoxtərəfli araşdırmaların mövzusu olacaq. Və hər zaman bu şəxsiyyətin tarixdə oynadığı əhəmiyyətli rol daha dərin və daha geniş məzmunda, konseptual şəkildə açılacaqdır.

Bir həqiqət isə heç zaman dəyişməyəcək: Heydər Əliyev müasir Azərbaycanın qurucusu, Ümummilli Lideri olmaqla yanaşı, həm də tərəqqi və ədalət, sülhpərvərlik və humanizm ideyalarına, bəşəri dəyərlərə əsaslanan geniş spektrli fəaliyyəti ilə dünya tarixinin yetişdirdiyi nadir şəxsiyyətlərin ön sırasında layiqli yerini qoruyub saxlayacaqdır!

Dünya azərbaycanlılarının həqiqi lideri səviyyəsinə yüksəlmiş Heydər Əliyevin ideyaları, əsasını qoyduğu işlər bu gün də yaşamaqdadır. Ulu Öndərin çox böyük dəqiqliklə işləyib hazırladığı strateji kursu 2003-cü ilin oktyabrından onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir.

Müstəqil Azərbaycan ildən-ilə güclənir, sürətlə inkişaf edir. Bu gün Azərbaycan Avropa ilə Asiyanı əlaqələndirən ölkə kimi dünyanın Qərb siyasətində də, Şərq tərəfdaşlığında da əsas tarazlıq nöqtələrindən biridir. Müstəqillik qazanmış yeni ölkələr sırasında bütün mənalarda Azərbaycan müstəqil dövlət kimi inkişaf etməyin və fəaliyyət göstərməyin ən müasir modelidir. Aparılan iqtisadi siyasət sayəsində Azərbaycanın makroiqtisadi inkişafında dayanıqlılıq təmin edilib və bir çox dövlətin uzun müddət ərzində əldə edə bilmədiyi yüksəliş tempinə nail olunub.

Prezident İlham Əliyev Azərbaycan Respublikasını təməl dövlətçilik prinsipləri zəminində və ardıcıl yaradıcı fəaliyyət əsasında yenidən qurmuş, sürətlə və hərtərəfli şəkildə inkişaf etdirərək yeni mərhələyə çatdırmağın mümkünlüyünü qəti şəkildə isbat etmişdir. Aparılmış məqsədyönlü siyasət nəticəsində müstəqil Azərbaycan möhkəm ictimai-siyasi sabitliyə, inkişaf etmiş və modernləşdirilmiş iqtisadiyyata, güclü hərbi-sənaye kompleksinə, davamlı milli-mənəvi dəyərlərə malik olan qüdrətli dövlət səviyyəsinə çatdırılmışdır.

Ötən dövr ərzində ən mühüm nailiyyətlərimizin sırasında təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Əlbəttə, Vətən müharibəsində qazanılmış Qələbə həm də həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi 2003-cü ildən başlayaraq yeni dinamika almışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqilliyini yeni qazanmış dövlətimizi tarixinin ən qüdrətli ölkəsinə çevirmiş, ən güclü inkişaf mərhələsinə çatdırmışdır. Azərbaycanın sosial-iqtisadi inkişafı üçün misilsiz nailiyyətlərə imza atmışdır. Bütün mövcud resursları ən optimal qaydada ölkənin tərəqqisinə yönəldərək Azərbaycanı başdan-başa abadlıq-quruculuq meydanına çevirmişdir. Ölkə rəhbəri həyata keçirilən məqsədyönlü dövlət proqramları ilə bir sıra problemlərin qısa müddətdə həllinə nail olmuşdur.

Bütün bu işlər bir daha göstərir ki, Prezident İlham Əliyev öz müdrik sələfi, adı ən yeni tariximizə böyük qurucu, qalib, xilaskar kimi daxil olmuş Heydər Əliyevin başladığı və ərsəyə gətirdiyi işləri qətiyyətlə, uğurla, dövlətçiliyimizin tərəqqisi naminə əzmlə davam etdirir. Prezident İlham Əliyevin ölkəmizə böyük istedad və bacarıqla rəhbərlik etməsi, Heydər Əliyev siyasi kursunu, onun Azərbaycan naminə amallarını böyük ustalıqla davam etdirməsi hər birimizin qəlbini iftixarla döyündürür.

Hər birimizə böyük örnək olan və fərəh verən digər amil isə dövlət başçısının bütün sahələrdə həyata keçirdiyi strateji əhəmiyyətli islahatların daha çevik və yüksək səmərəliliklə həyata keçirilməsinə böyük töhfələr verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqımızın xoşbəxtliyi, dövlətimizin möhkəmlənməsi və qüdrətlənməsi istiqamətində həyata keçirdiyi görkəmli və bənzərsiz fəaliyyətidir. Mehriban xanım Əliyeva uzun illərdir ki, Prezident İlham Əliyevlə birlikdə müasir Azərbaycan dövlətinin quruculuğunda yaxından iştirak edir. Mehriban xanım Əliyevanın göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun hər bir sahədə dəstəklənməsinə və uğur qazanmasına yönəlmiş Mehriban Əliyevanın geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir. Ölkəmizin birinci xanımı reallaşdırdığı uğurlu layihələrlə dövlət müstəqilliyimizin əsaslarının və Prezident İlham Əliyevin liderlik nüfuzunun möhkəmlənməsinə böyük ictimai dəstək qazandırmışdır.

Mehriban Əliyevanın qeyri-adi rəhbər istedadı, zəngin idarəçilik təcrübəsi, başladığı hər bir işdə əməli surətdə sübut olunmuş ictimai-siyasi xadim vərdişləri onun qarşıya qoyduğu məsələlərin həllinə yanaşmalarını yüksək peşəkarlıq və məsuliyyət səviyyəsində təzahür etdirir. Onun rəhbərliyi ilə istər ölkəmizdə, istərsə də ölkə hüdudlarından kənarda həyata keçirilən çoxsaylı layihələr əhalinin maddi rifahının yüksəlməsinə və dünya arenasında Azərbaycanın imicinin daha da möhkəmlənməsinə xidmət edir. Mehriban xanımın Azərbaycanın dünyada yüksək və qədim mədəniyyətə, müasir demokratik və ədalətli idarəetmə metoduna malik müstəqil dövlət kimi tanınmasında böyük xidmətləri var.

Azərbaycan Vətən müharibəsindəki qələbəmizi davam etdirən diplomatik nailiyyətləri ilə də bölgədə yeni reallıqlar yaradıb. Azərbaycan indiyə qədər dövlət rəhbərliyimizin əzmkar siyasəti sayəsində çox xəyalları reallaşdırmağa müvəffəq olub. İrəlidəki bir çox böyük perspektiv də zaman-zaman gerçəkliyə çevriləcək və ölkəmiz dünyanın bu günü və gələcəyinə mühüm töhfələr verəcəkdir. Düşməndən təmizlənmiş ərazilərimizdə başlanan dirçəliş prosesləri, resurslarla zəngin bu torpaqlarda sosial-iqtisadi həyatın bərpası da ölkəmiz üçün yeni inkişaf imkanları yaradır.

Bu gün Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işləri ilə heyrətləndirir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir, Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur.

Vətənimiz Heydər Əliyev dühasından bəhrələnən, daha yeni, müasir şəraitə uyğun siyasi intellektə və potensiala malik bir siyasətçinin - İlham Əliyevin rəhbərliyi altında işıqlı gələcəyə doğru addımlayır.

Bu işdə hər birimiz, hər bir Azərbaycan vətəndaşı möhtərəm Prezidentimizə yardımçı olmalı, bununla da dövlətçiliyimizin, müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunmasına öz töhfəmizi verməliyik…

Ümummilli Lider Heydər Əliyevi yad edərkən, xatirəsini anarkən xalqımıza ərmağan etdiyi müstəqil Azərbaycanı qorumağı, ölməz ideyalarını yaşatmağı qarşımızda bir vəzifə olaraq görürük. Bu gün Azərbaycan xalqının hər bir vətəndaşı üçün Ümummilli Lider əvəzolunmaz insan, həmişəyaşar əbədi şəxsiyyətdir. Cəmiyyətimizin inkişafı Ulu Öndərin ideyalarına əsaslanır. Heydər Əliyev yolu ilə, Heydər Əliyev ideyaları ilə Azərbaycan daim böyük uğurlar qazanıb və bundan sonra daha möhtəşəm qələbələr qazanacaqdır!

*Ümummilli Lider Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, bu gün Heydər Əliyev bizim ürəyimizdə yaşayır, qəlbimizdə yaşayır, onun əməlləri, ideyaları yaşayır, onun siyasəti yaşayır və əbədi yaşayacaqdır!*

**Asif ƏSGƏROV,**
***Milli Məclisin deputatı***

1923 *Azərbaycanın özü qədər əbədi* 2025

# Müasir Sumqayıt Heydər Əliyev

## *Sənaye şöhrətini özünə qaytaran şəhərin iqtisadi nailiyyətləri*

**Bu günlərdə Sumqayıtda əsl bayram ab-havası yaşanır. Respublikamızın hər yerində olduğu kimi, şəhərimizdə də müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü geniş şəkildə qeyd olunur. Keçirilən tədbirlərdə şəhər ictimaiyyətinin nümayəndələri Ulu Öndəri minnətdarlıq və qədirbilənliklə anır, əziz xatirəsini böyük ehtiramla yad edirlər.**





### Zəfərimizin yaratdığı reallıqlar yeni uğurlarla əlamətdardır

Heydər Əliyevin şah əsəri olan Azərbaycan dövləti möhtərəm Prezident İlham Əliyevin müdrik siyasətinin nəticəsində artıq 5-ci ildir ki, öz tarixinin ən şərəfli günlərini yaşayır. Torpaqlarımızın işğaldan azad olunması, ərazilərimizdə erməni separatizminə son qoyulması hər bir azərbaycanlının əbədi fəxarət mənbəyidir.

Böyük məmnunluqla qeyd etməliyik ki, cənab Prezident İlham Əliyev tarixi zəfərimizdən sonra yaranmış reallıqları yeni və əlamətdar hadisələrlə, nailiyyətlərlə zənginləşdirir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri, Böyük qayıdış proqramının sürətlə həyata keçirilməsi, keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma evlərinə dönüşü Azərbaycan dövlətinin qüdrətinin növbəti möhtəşəm təcəssümünə çevrilmişdir. Eyni zamanda Prezident İlham Əliyev mütərəqqi xarici siyasət kursunun nəticəsidir ki, Azərbaycan beynəlxalq münasibətlər sistemində yüksək imicə malik, yeni dünya nizamının formalaşmasında fəal iştirak edən dövlət kimi qəbul olunur. Prezident İlham Əliyevin adı isə dünyanın nüfuzlu siyasi liderləri ilə bir sırada çəkilir. Ötən ay Prezident İlham Əliyevin Çin Xalq Respublikasına etdiyi uğurlu dövlət səfəri bütün bunların növbəti təzahürü oldu.

Olduqca qürurvericidir ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünü mühüm siyasi-diplomatik və iqtisadi nailiyyətlər, tariximizin əlamətdar hadisələrlə daha da zənginləşməsinin fonunda qarşılayırıq.

### Ulu Öndər Sumqayıtı inkişafının yeni mərhələsinə yüksəltmişdi

Heydər Əliyevin doğum gününün hər il Sumqayıt ictimaiyyəti tərəfindən dərin ehtiramla qeyd edilməsi Ümummilli Liderə olan ümumxalq ehtiramının göstəricisidir. Eyni zamanda bu ehtiram şəhərimizin inkişafı və yüksəlişi ilə bağlı göstərdiyi misilsiz xidmətlərinə görə Sumqayıt sakinlərinin Ulu Öndərə olan əbədi minnətdarlıqlarının ifadəsidir. Çünki bu gün özünün iqtisadi nailiyyətləri ilə keçmiş şöhrətini bərpa edən Sumqayıtın tarixi inkişaf yollarında Ulu Öndər Heydər Əliyevin böyük zəhməti olmuşdur. Ona görə Sumqayıtın tarixini Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyildir.

Artıq şəhər statusu almasının 76-cı ilini yaşayan Sumqayıt 1950-1960-cı illərdə müəyyən inkişaf yolu keçmiş, burada bir sıra kimya və metallurgiya müəssisələri yaradılmışdı. Lakin Sumqayıtın potensialı böyük idi və şəhərdə sənayenin digər sahələrinin də inkişafı üçün geniş imkanlar vardı. Şəhərdə 1955-ci ildə Alüminium zavodu işə salınmış, 60-cı illərdə Polimer tikinti materialları kombinatı, Superfosfat zavodu yaradılmışdır. Yeni sənaye müəssisələrinin bir qisminin yaradılması və Sumqayıta şəhər statusunun verilməsi 1949-cu ildən sonraya təsadüf etsə də, bütövlükdə, ötən əsrin 50-60-cı illərində görülən işlərin miqyası Sumqayıtın mövcud potensialı ilə müqayisədə çox aşağı olmuşdur və bu vəziyyət 1969-cu ilin iyulundan Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyevin diqqətini cəlb etməyə bilməzdi.

Ulu Öndər Heydər Əliyevin bu reallıqları müdrikcəsinə dəyərləndirməsi sözün əsl mənasında Sumqayıtın sovet dövrü intibahının başlanğıcı olmuşdur. Bu mənada Ulu Öndər Heydər Əliyevin həmin dövrdə Azərbaycanda başlatdığı sənayeləşmə siyasətinin, iqtisadi islahatların öz bəhrəsini verdiyi əsas ünvanlardan biri Sumqayıt olmuşdur.

Konkret ifadə etsək, məhz Heydər Əliyevin xüsusi diqqəti nəticəsində Sumqayıtda yeni, o cümlədən yüngül sənaye müəssisələri yaradılmışdır. Buna misal olaraq 1970-ci illərin əvvəllərindən fəaliyyətə başlayan Məişət kimyası zavodunu göstərə bilərik. Xüsusi vurğulamalıyıq ki, respublika əhalisinin məişət kimyası mallarına olan tələbatını ödəyən belə bir zavod həmin dövrdə Cənubi Qafqazda ilk olaraq məhz Sumqayıtda yaradılmışdı. Bundan başqa, Kompressorlar və Şüşə zavodlarının, Üst trikotaj və Xovlu iplik fabriklərinin, Süd və Yeyinti məhsulları kombinatlarının yaradılması, Boru Prokat Zavodunun yenidən qurulması o illərdə Heydər Əliyevin respublikamızda həyata keçirdiyi sənayeləşmə siyasətinin göstəriciləri idi. Hansı ki, bu müəssisələr Azərbaycanın ittifaq miqyasında inkişafına böyük töhfələr verməklə yanaşı, respublikamızda əhalinin məşğulluğunun təmin olunmasında və nəticə etibarilə Sumqayıtın inkişafında böyük rol oynamışdır.

Sumqayıtda sənayenin inkişafı bununla yekunlaşmır. "Superfosfat" zavodunda yüksək texnologiya əsasında inşa edilən dənəvər superfosfat gübrəsi istehsalatının işə salınması, "Üzvi sintez" zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexlərinin fəaliyyətə başlaması, Sintetik Kauçuk Zavodunda yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması ilə onun istehsal gücünün xeyli artırılması şəhərdə sənayenin kompleks inkişafını uğurla tamamlayırdı. Kimya müəssisələri üçün avadanlıqların hazırlanması və onların təmir işini yaxşılaşdırmaq məqsədilə Sumqayıtda Mexaniki Təmir Zavodunun işə salınması da həmin dövrün mühüm uğurları olmuşdur.

Şəhərin neft-kimya sənayesinin daha müasir səviyyəyə çatdırılması ilə bağlı məsələlər də Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Buna misal olaraq, Almaniya və Çexoslovakiya istehsalı olan və ən yeni texnologiyalar əsasında yaradılmış EP-300 qurğusunun alınmasını göstərmək olar. Bu qurğunun alınması məhz Heydər Əliyevin təklifi sayəsində mümkün olmuşdu. Bunun üçün o dövrdə Ulu Öndər SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini N.Tixonovu respublikamıza dəvət etmişdi. Bundan sonra ittifaq rəhbərliyi Heydər Əliyevin təklifini nəzərə alaraq, EP-300 texnoloji kompleksinin alınmasına qərar vermişdi.

1970-1980-ci illərdə Ümummilli Liderimiz Heydər Əliyevin respublikanın rəhbəri olduğu dövrdə güclü iqtisadi potensiala malik Sumqayıt sənaye-iqtisadi rayonunda kimya və neft-kimya kompleksi əsaslı surətdə yeniləşdirilmiş və karbohidrogen ehtiyatlarından səmərəli istifadə üçün xeyli iş görülmüşdür. Buna görə də Sumqayıt 1970-ci illərdən sənayenin bir çox istiqaməti üzrə qabaqcıl şəhərlər sırasına yüksəlmişdi. Şəhər öz iqtisadi göstəricilərinə görə, təkcə keçmiş SSRİ miqyasında deyil, onun hüdudlarından kənarda da yaxşı tanınırdı. Eyni zamanda Sumqayıtı dostluq, gənclər, kimyaçılar, metallurqlar, energetiklər, inşaatçılar, əmək qəhrəmanları şəhəri kimi tanıyırdılar. Sumqayıtın sənaye müəssisələrində istehsal olunan məhsullar 700-dən çox şəhərə ixrac olunurdu.








Sənaye müəssisələrinin inkişafı ilə yanaşı, onların şəhərin havasını çirkləndirməsinin qarşısının alınması, şəhərin ekoloji qayğılarının yoluna qoyulması da diqqət mərkəzində olmuşdur. Bu problemlər Ulu Öndəri xüsusilə narahat edirdi. Odur ki, tezliklə Sumqayıtda hava və suyu çirkləndirən mənbələr əsasən pasportlaşdırılmış, xüsusi müfəttişlik yaradılmışdı. Habelə Sumqayıt Alüminium Zavodundan civə tullantısı dayandırılmışdı.

Ulu Öndər Azərbaycana birinci rəhbərliyi dövründə dəfələrlə Sumqayıta səfər etmişdi. Sumqayıta və sumqayıtlılara xüsusi diqqətin göstəricisi olan bu səfərlərin hər biri şəhərin həyatında dərin iz buraxmış, onun gələcək inkişafına xidmət etmişdi. 1974-cü ildə isə Heydər Əliyev Sumqayıtın 25 illik yubiley tədbirində iştirak etmişdir. Sumqayıtda sənayenin inkişafı ilə yanaşı, paralel olaraq tikinti-quruculuq işlərinin geniş vüsət alması da bu diqqətin təcəssümü idi. Təsadüfi deyil ki, 1970-ci illərdə şəhərdə yeni mikrorayonların, məhəllələrin salınması daha da sürətlənmişdi. Hər il şəhərdə 80 min kv.m. mənzil sahəsi tikilib istifadəyə verilirdi ki, bu da ölkə üzrə ən yüksək göstəricilərdən sayılırdı. Hazırda Sumqayıtın bir çox ünvanı, inzibati binaları, o cümlədən ən gözəl məkanlardan olan Ü.Hacıbəyov adına "Kimyaçılar" Mədəniyyət Sarayı həmin illərdə inşa olunmuşdur.

### İlham ƏLİYEV: "Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir"

Təəssüflə qeyd edilməlidir ki, müstəqilliyimizin ilk illərində respublikamızda yaranan dərin böhran Sumqayıtın sənaye müəssisələrindən də yan ötməmişdir. Həmin dövrdə respublikamıza rəhbərlik edənlərin yeni iqtisadi sistemə keçidi dəyərləndirə bilməmələri, idarəçilikdə buraxdıqları kobud səhvlər, keçmiş ittifaq ölkələri ilə iqtisadi əlaqələrin kəsilməsi Sumqayıtın sənayesinə böyük zərbə vurmuş, şəhərdə işsizliyə, sosial rifahın pisləşməsinə gətirib çıxarmışdı.





Xalqımızın təkidli tələbi ilə 1993-cü ildən respublikamıza rəhbərlik etməyə başlayan Ulu Öndər Heydər Əliyevin ölkəmizin inkişafı ilə bağlı qarşıya qoyduğu məqsədlərdən biri Sumqayıtın yenidən sənaye mərkəzinə çevrilməsi idi. Xatırladım ki, Heydər Əliyev 1993-cü ildə Azərbaycan Prezidenti kimi ilk səfərini də məhz Sumqayıta etmişdir. Ulu Öndər müstəqillik dövründə 6 dəfə Sumqayıta səfər etmiş, bu səfərlərin hər biri şəhərin icitmai-siyasi həyatında mühüm hadisəyə çevrilmişdir.

Böyük məmnunluqla qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyevin layiqli siyasi davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti Sumqayıtın tarixində tamamilə yeni səhifə açmışdır. Ötən dövrdə şəhərin spesifik inkişaf xüsusiyyətləri, malik olduğu sənaye potensialı nəzərə alınaraq Sumqayıtda yeni sənaye kompleksinin formalaşdırılması ayrıca diqqət mərkəzində saxlanılmış, bu istiqamətdə uzunmüddətli strategiyanın icrasına başlanmışdır. Bu strategiya mövcud sənaye müəssisələrinin qabaqcıl texnologiyalar, ekoloji standartlar əsasında bərpasını, şəhərdə müasir tələblərə cavab verən yeni müəssisələrin inşasını nəzərdə tutmaqla şəhər infrastrukturunun, maliyyə-kredit sisteminin, rabitə-kommunikasiya texnologiyalarının inkişafına, əhalinin məşğulluğunun, ixtisaslı kadrlarının çəkisinin artmasına hesablanmışdır.

İndi Sumqayıtda onlarca kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri fəaliyyət göstərir. Onların hər biri Azərbaycan iqtisadiyyatında böyük rol oynayan aparıcı istehsal müəssisələridir. "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsi, "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsi, "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsi, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azgüntex" Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan "Sağlam qida" Aqrar-Sənaye Kompleksi, "Azərsun Holdinq"in Kağız və karton emalı kombinatı və Yağ istehsalı fabriki, "Gilan" Tekstil Parkı, Mis Emalı Zavodu, "Alyans Tekstil" MMC-nin uniformalar istehsalı fabriki, "Azkontakt" MMC-nin beton boru və beton döşəmə daşı istehsalı müəssisəsi, "Texnoil" MMC mühərrik yağları istehsalı müəssisələri, Kimya Sənaye Parkındakı İnşaat Kimyəviləri Zavodu, "Tabaterra" QSC-nin tütün məmulatları istehsalı fabriki, Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, sürtkü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, "Azərtexnolayn" MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları Sumqayıtın sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər, respublikada gedən inkişaf proseslərinə layiqli töhfələr verir.

Göründüyü kimi, Sumqayıt həm də müəyyən dövrdə itirdiyi sənaye şəhəri adını özünə qaytarıb və bu istiqamətdə inamla irəliləyir. İndi bu şəhər nəinki Azərbaycanın, hətta bütün Qafqazın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Şəhərdə müasir texnologiya əsasında işləyən yüzlərlə sənayeyönümlü müəssisə fəaliyyət göstərir. Sənaye sahələrinin geniş spektrini əhatə edən bu müəssisələrin işə düşməsi həm də Sumqayıtı innovativ texnologiyaların tətbiq olunduğu avanqard sənaye şəhərinə çevirmişdir.

Prezident İlham Əliyevin dediyi kimi, Sumqayıt hazırda müasir sənaye mərkəzidir: "Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə insanların sağlamlığını nəzərə almışıq".

Sumqayıtda "SOCAR karbamid" və "SOCAR Polymer" kimi zavodların yaradılması isə nəinki bu şəhərin, bütövlükdə, respublikamızın iqtisadi həyatında mühüm hadisəyə çevrilmişdir. "SOCAR Polymer" layihəsi son 45-50 ildə öz miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. Bu zavodların hər biri respublikamızın ixrac imkanlarının yüksəlməsində, milli gəlirlərin artmasında böyük rol oynayır. Bu müəssisələrin yaradılması həm də son illərdə Sumqayıtda əhalinin məşğulluğunu əhəmiyyətli dərəcədə təmin etmişdir.

Hazırda Sumqayıt Cənubu Qafqazın ikinci ən böyük sənaye mərkəzidir. Şəhərdə yeni yaradılan sənaye müəssisələrinin əksəriyyətinin açılışında şəxsən iştirakı Prezident İlham Əliyevin Sumqayıta göstərdiyi diqqətin real təsdiqidir. Prezident İlham Əliyevin aprelin 30-da Sumqayıt Kimya Sənaye Parkında "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərinin və "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodlarının açılışında iştirak etməsi bir daha göstərdi ki, Sumqayıtda sənayenin inkişafı davamlı və sürətlidir.






1923 *Azərbaycanın özü qədər əbədi* 2025

# ideyalarının parlaq təcəssümüdür

## *Azərbaycanın yüksəlişinin mükəmməl nümunələrindən biridir*

Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidentinin 2011-ci ildə imzaladığı fərmanla yaradılan Sumqayıt Kimya Sənaye Parkı ölkəmizdə ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır. Ərazisi 613 hektar olan parkda neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Burada ümumi investisiyalarının həcmi təqribən 6 milyard manatdan artıq olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, onlardan da 24-ü artıq fəaliyyət göstərir. Bu günlərdə iki zavodun istifadəyə verilməsi ilə sənaye parkında fəaliyyət göstərən müəssisələrin sayı 26-ya çatıb. İndiyədək sənaye parkının rezidentləri tərəfindən ümumilikdə təxminən 14 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da təqribən 5 milyard manatlıq hissəsi ixracın payına düşür. Sumqayıt Kimya Sənaye Parkında 2025-ci ilin birinci rübü ərzində ötən ilin eyni dövrü ilə müqayisədə istehsal 14,2 faiz, ixrac isə 17,2 faiz artıb. Hazırda burada 6 mindən çox insan daimi işlə təmin olunub. Parkda istehsal olunan məhsullar 70-dən çox ölkəyə ixrac edilir.

Burada "Kartaş Kimya" MMC-də sement əsaslı quru qarışıqlar, su izolyasiya, döşəmə materialları, sement üyüdücü qatqıları, beton qatqıları və onun əsas xammalı istehsal olunacaq. Bunlar daha əvvəl istehsal olunmayan məhsulların istehsalını təmin edərək idxalı əvəzləyəcək. Bununla yanaşı, məhsulların Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Rusiya və Gürcüstana ixracı nəzərdə tutulur.





"Az-Tex-İmport" MMC isə İtaliyanın "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobillərinin yığımını həyata keçirəcək. Layihənin ikinci mərhələsində avtomobillərin kuzalarının istehsalı da nəzərdə tutulur. Burada ildə 100 ədəd yük avtomobili və xüsusi texnika, 300 ədəd kuza istehsal olunacaq.

Bu müəssisələrin fəaliyyətə başlaması ölkəmizdə qeyri-neft sektorunun inkişafını sürətləndirəcək, ölkənin ixrac coğrafiyasını genişləndirəcək, iqtisadiyyatın şaxələndirilməsini sürətləndirəcək, məşğulluğun artırılmasına mühüm töhfə verəcək. Hazırda bu müəssisələrdə 200 nəfərə yaxın vətəndaş işlə təmin olunmuşdur.

Sumqayıtdakı sənaye müəssisələrinin bir qismi isə Sumqayıt Texnologiya Parkında (STP) yerləşir. 2012-ci ildə yaradılan Sumqayıt Kimya Sənaye Parkının rezident üzvü olan Texnologiyalar Parkı şəhərin iqtisadi həyatında xüsusi yer tutur. STP regionda ərazisinə görə ən böyük sənaye məhsulları istehsal edən mərkəzlərdən biridir. Burada istehsal edilən məhsullar Rusiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Türkiyə bazarlarında yüksək keyfiyyəti ilə seçilir və "Made in Azerbaijan" brendi altında satılır. STP tarixində ilk dəfə mexaniki emal detallarının və metal konstruksiya çeşidlərindən olan məhsullarının Avropa sənayesinin lokomotivi sayılan Almaniyanın Venden və Köln şəhərlərinə ixracını da həyata keçirib. STP-nin ən əsas hədəflərindən biri keyfiyyətli və çoxçeşidli məhsulları və xidmətləri ilə Azərbaycanı Yaxın Şərq və Avropa ölkələrində uğurla təmsil etməkdir. STP həm də Azərbaycan Respublikasının iqtisadiyyatının sabit inkişafına öz töhfəsini verən iri vergi ödəyicilərindəndir. Hazırda 250 hektar ərazidə fəaliyyət göstərən STP-də 30-dan çox istehsalat sahəsi var və burada 2000 nəfərə yaxın işçi çalışır. Parkın nizamnamə kapitalı 225,87 milyon manatdır.

Bir məsələni də xüsusi qeyd etməliyik ki, Sumqayıtda bəzi sənaye müəssisələrinin vaxtilə şəhərin ekologiyasına necə təsir göstərməsi yaşlı nəslin xatirindədir. Bu gün isə Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərləri sırasında yer alır. Çünki şəhərdə son dövrdə yaradılmış yeni sənaye müəssisələri tamamilə modern texnologiyalar əsasında fəaliyyət göstərdiklərindən ekoloji normalara da tam cavab verirlər. Cənab Prezident İlham Əliyevin də şəhərin sənayesinin inkişafı ilə bağlı qarşıya qoyduğu əsas vəzifələrdən biri ekologiyanın qorunmasıdır.









### Qeyri-neft sektorunun öncülü

Sumqayıtın davamlı inkişafı sahəsində atılan addımlar regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının tərkib hissəsi olmaqla şəhər üzrə kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Bütün bunlar öz növbəsində Sumqayıtın əsas sosial-iqtisadi göstəricilərinin ilbəil artan dinamika ilə hərəkətinə imkan vermişdir.

Şəhərdə 2024-cü ildə ümumi məhsul və xidmətlərin həcmi 4 milyard 837 milyon 409,3 min manata çatmışdır ki, bu da 2023-cü illə müqayisədə 1,1 faiz artım deməkdir. Ümumi məhsul buraxılışında istehsal sahələrinin payı 84,3 faiz, xidmət sahələrinin payı isə 15,7 faiz təşkil etmişdir. Sənaye sektorunda da müsbət dinamika müşahidə olunmuşdur. Ötən il iri, orta, kiçik sahibkarlıq subyektləri, ev təsərrüfatları və fərdi sahibkarlar tərəfindən istehsal olunan mal və xidmətlərin həcmi əvvəlki illə müqayisədə 1,2 faiz artaraq 3 milyard 775 milyon 504,5 min manata yüksəlmişdir.

Şəhərin iqtisadi və sosial inkişafına yatırılan investisiyalar da artmışdır. 2024-cü il ərzində bütün maliyyə mənbələrindən əsas kapitala 339 milyon 160,2 min manat vəsait yönəldilmişdir. Əsas kapitala yatırılan vəsaitlərin 58,2 faizi dövlət sektorunun, 41,8 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

2025-ci ilin birinci rübünün nəticələri də şəhərin iqtisadi uğurlarının davamlı olduğunu göstərir. Belə ki, bu dövrdə ümumi məhsul buraxılışı 1 milyard 269,9 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,3 faiz çoxdur. Bu ilin birinci rübündə Sumqayıtda sənaye məhsulunun istehsalı 1 milyard 52,2 milyon manat təşkil etmişdir. Bu da ötən ilin birinci rübü ilə müqayisədə 14,4 faiz çoxdur. Digər göstəricilərə gəldikdə, ötən ilin birinci rübü ilə müqayisədə 2025-ci ilin ilk 3 ayında ticarət dövriyyəsində 13 faiz, orta əməkhaqqında 4,4 faiz artım baş vermiş, şəhərdə 670 yeni iş yeri açılmışdır. 2003-cü ildə 327 min nəfərin yaşadığı Sumqayıtın indi 428 min nəfərə yaxın əhalisi var. Bu artımın özü şəhərin iqtisadi və sosial inkişafının göstəricisidir.

Sumqayıt şəhəri 2012-ci ildən etibarən dövlət büdcəsindən dotasiya almır. Şəhərin yerli büdcəsi əsasən toplanan vergilərdən və göstərilən xidmətdən formalaşır. Şəhərdə sahibkarlığın inkişafı, yeni-yeni müəssisələrin yaradılması şəhər büdcəsinin formalaşmasını təmin edir. Müasir iqtisadiyyat modeli tələb edir ki, iqtisadi aktivlik potensialı yüksək olan bölgələr büdcədən dotasiya almadan yerli xərcləri ödəyə bilsinlər və inkişaf üçün investisiya qoya bilsinlər. Sumqayıtda bu məqsədlərə uğurla nail olunur.






### Möhtəşəm və dinamik quruculuq məkanı

Sumqayıt yalnız sənaye mərkəzi kimi tanınmır. Yaxud Sumqayıt yalnız ümumi məhsul istehsalının ildən-ilə artan həcminə görə fərqlənən şəhər deyil. Sumqayıta şöhrət gətirən həm də nümunəvi abadlıq və quruculuq işləridir. Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə şəhərdə son illərdə həyata keçirilən kompleks abadlıq və quruculuq işləri, yeni infrastrukturun, şəhər təsərrüfatının müasirləşməsi istiqamətində görülən işlər yüksək ab-hava yaratmışdır. Hansı ki, bu infrastrukturlar onilliklər boyu sumqayıtlıların ən yüksək standartlar səviyyəsində xidmətində dayanacaq.

Möhtəşəm tikinti və quruculuq işlərinin nəticəsi kimi respublikamızın yaraşıqlı və abad şəhərinə çevrilmiş Sumqayıtın son illərdə yeni ünvanları yaranmışdır. Əzəmətli Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Muğam Mərkəzi, Sumqayıt Məhkəmə Kompleksi, Olimpiya və Paralimpiya İdman kompleksləri, Əlillərin Bərpa Mərkəzi, 1 və 2 saylı "ASAN xidmət" mərkəzləri həm də öz görkəmləri ilə şəhərimizə yaraşıq verirlər.

"Kimyaçılar" Mədəniyyət Sarayının, Dram Teatrının, "Nizami" kinoteatrının son illərdə əsaslı şəkildə təmir olunan binaları ən müasir standartlar səviyyəsinə uyğunlaşdırılmışdır. Sumqayıtın yüksəlişinin digər bir nümunəsi bütün tibb müəssisələrinin təmir olunması və ya yenidən qurulmasıdır.

Sumqayıtın son illərdə yaradılan ən möhtəşəm ünvanlarından biri isə Dənizkənarı bulvardır. Şəhər dəniz sahilində yerləşməsinə baxmayaraq, burada heç vaxt bulvar olmamışdır. Hələ 1974-cü ildə Sumqayıta şəhər statusunun verilməsinin ildönümü ilə bağlı Dram Teatrının inzibati binasında keçirilən mərasimdə çıxış edən Ulu Öndər Heydər Əliyev bu məsələyə toxunmuş, şəhərdə bulvarın salınması ilə bağlı arzusunu ifadə etmişdi. Şəhərimizdə həyata keçirilmiş quruculuq tədbirləri sırasında artıq Ulu Öndərin bu arzusu da həyata keçmişdir. Uzunluğu 5,2 kilometr, ümumi sahəsi 146 hektar olan Sumqayıt Dənizkənarı bulvarı bu gün sakinlərin və şəhərimizin qonaqlarının ən çox üz tutduqları istirahət və əyləncə məkanıdır. Böyük məmnunluqla qeyd etmək istərdim ki, bir neçə il əvvəl İspaniyanın paytaxtı Madrid şəhərində keçirilən "Global Trade Leaders Club"un XXIV Beynəlxalq Üstünlük və Liderlik Forumunda Sumqayıt bulvarı "İnternational Award for Excellence & Leadership" mükafatına layiq görülmüşdür. Cənab Prezident İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt bulvarının dünyanın diqqət mərkəzinə düşməsi olduqca qürurverici haldır. "Sumqayıt bulvarı isə hesab edirəm ki, bir möcüzədir. Sumqayıt bulvarının yaradılması ilə bağlı mən hələ bir neçə il bundan əvvəl şəhər rəhbərliyi qarşısında vəzifə qoymuşdum. Sumqayıtlılar yəqin ki, xatırlayırlar, hətta bir neçə il bundan əvvəl mənim üçün təqdimat da keçirilmişdi. Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu var. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq", - deyə Prezident İlham Əliyev bildirmişdir.

Şəhər sakinlərinin sevimli istirahət yerlərindən olan Heydər parkı, Lüdviqshafen parkı, o cümlədən Sumqayıtın əsas yollarından olan Sülh prospekti, Sahil küçəsi, ümumiyyətlə, bütün küçə və prospektlər əsaslı təmir olunaraq yenidən qurulmuşdur.

Son dövr ərzində Sumqayıtda 3 məktəb üçün yeni bina inşa olunmuşdur. 2021-ci ilin sentyabrında istifadəyə verilən 1 nömrəli tam orta məktəbin yeni tikilmiş tədris binası 1800 şagird yerlikdir. Həmçinin şəhərin İnşaatçılar qəsəbəsində yerləşən 9 nömrəli tam orta məktəb üçün də yeni tədris binası tikilib. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, məktəbin binası tam sökülərək yerində müasir tələblərə cavab verən 1176 şagird yerlik yeni bina inşa edilib. Sumqayıtdakı 20 nömrəli tam orta məktəb üçün bina isə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub. Şəhərin 4-cü mikrorayon ərazisində inşa olunan bu müasir təhsil kompleksi 1100 şagird yerlikdir.

Sumqayıtın son illərdə yenidən qurulan digər bir ünvanı Mehdi Hüseynzadə adına şəhər stadionudur. Ötən əsrin 60-cı illərində istifadəyə verilmiş və ikiüç min azarkeş üçün hesablanan bu stadion müasir tələblərə cavab vermirdi və azarkeşlərin çoxu yarışları yer darısqallığından canlı izləyə bilmirdi. Dörd tərəfi açıq olan stadion əhəmiyyətli futbol yarışlarının keçirilməsi üçün uyğun məkan deyildi. Bir sözlə, yeni stadionun tikintisinə ehtiyac vardı. Bunu nəzərə alaraq, Prezidentin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə ayrılan vəsaitlə stadion ən müasir standartlar səviyyəsində yenidən quruldu və 2023-cü ildə cənab Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verildi.





Aparılan abadlıq və quruculuq işləri şəhərin Şəhidlər xiyabanını da əhatə etmişdir. 1992-ci ildə salınan Şəhidlər xiyabanı 2021-ci ildə əsaslı şəkildə təmir olunmuş, ərazisi genişləndirilərək 1,2 hektara çatdırılmışdır. Yenidən qurulan Şəhidlər xiyabanında "Qalib Əsgər" abidəsi ucaldılmış, hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılmış, Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi yaradılmışdır.

Sumqayıtda diqqət mərkəzində saxlanılan məsələlərdən biri də şəhər təsərrüfatının yenilənməsi və ən müasir standartlar səviyyəsində qurulmasıdır. Bu sırada həyata keçirilən mühüm tədbirlərdən biri çoxmənzilli yaşayış binalarının liftlərinin yenilənməsidir. Ölkə rəhbərliyinin bu sahəyə olan diqqəti sayəsində qısa müddət ərzində şəhərin lift təsərrüfatı tamamilə yenilənmiş, istismar müddətini ötmüş 600-ə yaxın lift yenisi ilə əvəz olunmuşdur.

Müasir nəqliyyat infrastrukturunun yaradılması, bu sahədə idarəetmənin təkmilləşdirilməsi, sərnişindaşımada rahatlığın və çevikliyin təmin olunması da şəhərimizin uğurları sırasında yer alır. Son illərdə şəhərin ictimai nəqliyyatı tamamilə yenilənmiş, marşrut xətlərinə Türkiyə istehsalı olan müasir avtobuslar buraxılmışdır.

Həyata keçirilən abadlıq işlərinin bir istiqamətini yaşayış binalarının təmiri və müasir qaydada üzlənməsi təşkil edir. Bu zaman binaların tarixi memarlıq elementləri, dizayn və naxışları olduğu kimi qorunub saxlanılmışdır. O cümlədən 1200-dən artıq yaşayış binasına yeni dam örtüyü vurulmuşdur və şəhər sakinlərini narahat edən daha bir problem həllini tapmışdır.

Bir neçə il əvvəl Sumqayıtın əsas problemlərindən biri də həll olunub. Söhbət "Acı dərə" kanalından gedir. Bu kanal şəhər əhalisi üçün çox böyük təhlükə mənbəyi idi. Ötən dövr ərzində aparılan quruculuq işləri çərçivəsində bu kanal boruya salınmışdır.

Yoluna qoyulan problemlərdən biri də şəhəri Saray qəsəbəsi ilə birləşdirən körpünün yenidən qurulmasıdır. Dəmiryol xətti və Samur-Abşeron kanalı üzərində yerləşən bu körpü əvvəllər ikizolaqlı idi. Son illərdə həm də qəzalı vəziyyətə düşmüş körpü şəhərin girişində böyük tıxaclara səbəb olur, narahatlığa yol açırdı. Bunları nəzərə alaraq ötən ilin dekabr ayında ərazidə yeni körpünün inşasına başlanılmış və cəmi 3 ay müddətində tikinti işləri tamamilə başa çatdırılmışdır. Novruz bayramı ərəfəsində vətəndaşların istifadəsinə verilən 4 zolaqlı yeni körpü Sumqayıtla Saray qəsəbəsi arasındakı nəqliyyatın hərəkətinin intensivliyini artırmışdır.

Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində şəhərdə həyata keçirilən abadlıq, quruculuq və tikinti işləri sumqayıtlılara xoş ovqat və sakit həyat tərzi bəxş etmiş, Sumqayıtın simasını tamamilə dəyişmişdir. Həyata keçirilən kompleks quruculuq və abadlıq işləri bu şəhəri yaraşıqlı, eyni zamanda "ağıllı şəhər" elementlərinin həyata keçirildiyi müasir, ekoloji təmiz və "yaşıl şəhər"ə çevirmişdir. İndi Sumqayıt yüksək həyat standartlarının yaradıldığı şəhər kimi tanınır. Ulu Öndər Heydər Əliyevin arzuladığı bir səviyyəyə yüksələn Sumqayıtın inkişafı və quruculuğu isə davamlıdır və şəhərimiz qarşıdakı dövrdə uğurlarının miqyasını daha da genişləndirəcəkdir.

**Zakir FƏRƏCOV,**
***Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı***

# Azərbaycanın xarici siyasətinin uğurları

## *Yaxın Şərq:* Azərbaycanın çoxqütblü xarici siyasətinin yeni istiqaməti

**Azərbaycanın xarici siyasətində Cənubi Qafqaz bölgəsindən ayrı regionda - Yaxın Şərq coğrafiyasında fəallaşması təsadüfi sayılmamalıdır. Vətən müharibəsindəki tarixi hərbi-siyasi qələbədən sonra dövlətimizin beynəlxalq aləmdə həm nüfuzunun artması, həm də ən müxtəlif səpkili proseslərə təsir etmək imkanlarını qazanması rəsmi Bakının artıq yalnız regional deyil, daha geniş çərçivədə qlobal hadisələrdə də rol oynamağa başlamış geosiyasi aktora çevrilməsi ilə nəticələnib.**




Azərbaycanın beynəlxalq siyasətdə yeni statusa yiyələnməsi, yəni orta gücə çevrilməsinin də başlıca səbəbi məhz bu amildir. Ölkəmizin balanslaşdırılmış, milli maraq və mənafelərə əsaslanan xarici siyasəti son aylar ərzində bir qədər də şaxələnərək ən müxtəlif istiqamətləri əhatə etməyə başlamışdır. Bu çoxqütblü siyasət Azərbaycanın iqtisadi imkanları, hərbi qüdrəti və siyasi sabitliyindən irəli gəlir və Prezident İlham Əliyevin məharətlə həyata keçirdiyi diplomatiyanın əsasını təşkil edir.

### Mənəvi bağlılığın geosiyasi ünvanı

Azərbaycanın müasir çağırış və təşəbbüslərin təmin olunmasına hesablanmış çağdaş xarici siyasəti ötən illərdən fərqli olaraq ciddi dəyişikliyə uğramışdır. Bu transformasiya prosesi ondan ibarətdir ki, indi rəsmi Bakının xarici siyasətinin qarşısında duran əsas vəzifə bütün resurs, imkan və alətlərin Azərbaycanın beynəlxalq müstəvidəki fərqli statuslu iştirakçı olaraq yeni geosiyasi hədəflərə nail olmasına yönəlib. Dövlətimiz dünyanın ikinci iqtisadiyyatı və Qlobal Cənubun aparıcı üzvü olan Çinlə strateji münasibətlər qurub, eyni zamanda Avropa İttifaqı ilə enerji təminatı sahəsində səmərəli işgüzar münasibətlərə malikdir. Türk dünyası Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim evimizdir. Bu baxımdan xarici siyasətimizin mühüm istiqaməti də məhz qardaş türk dövlətləridir. Afrika dövlətlərinin liderlərinin Bakıya səfərləri göstərir ki, qitə təmsilçiləri ilə təmaslar yalnız Qoşulmama Hərəkatı çərçivəsindəki əlaqələrlə məhdudlaşmır. Nəhayət, Azərbaycanın Yaxın Şərqdə fəallaşması ölkəmizin və xalqımızın islam aləmi ilə mənəvi bağlılığı ilə yanaşı, həm də Bakının müsəlman dünyasındakı siyasi və iqtisadi nüfuzu nöqteyi-nəzərindən şərh olunmalıdır.

Diplomatiyamızın Yaxın Şərq istiqaməti bizim üçün qlobal geosiyasi proseslərdə iştirakçı olmağımızla yanaşı, həm də ənənəvi xarakterlidir. Çünki Azərbaycan islam dünyasının təmsilçisidir və bu kontekstdə bizim müsəlman dövlətləri ilə həm fərqli beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli formatda hər zaman pozitiv münasibətlərimiz olub. Torpaqlarımızın işğal altında olduğu müddətdə müsəlman dövlətlərinin daimi dəstəyini hiss etmişik. Məsələn, Səudiyyə Ərəbistanı Ermənistanı ümumiyyətlə, dövlət olaraq tanımayıb və bunun da əsas məqsədi İrəvanın Azərbaycanın ərazi bütövlüyünə münasibətdə qəsbkar iddialarla çıxış etməsi olub. İslam aləminin ICESCO kimi nüfuzlu təşkilatı Azərbaycanın milli, dini və mənəvi sərvətlərinin Ermənistan tərəfindən mənimsənilməsi və məhv edilməsinə qarşı hər zaman etiraz səsini ucaldıb. Təsadüfi deyildir ki, torpaqlarımızın azad edilməsindən sonra Qarabağ və Şərqi Zəngəzura mütəmadi monitorinq xarakterli səfərləri məhz bu təşkilatın heyətləri edib və işğaldan azad edilmiş bölgədə dini obyektlərimizin ermənilər tərəfindən dağıdılması, təhqir edilməsi və məhvi faktları təşkilat tərəfindən sənədləşdirilib. Bu, bizim bir xalq olaraq ən ağrılı problemlərimizdən biridir, çünki Yer üzündən silinən məscid və abidələrimiz təkcə tarixi deyil, həm də dini maddi-mədəniyyət sərvətlərimiz olub.

Azərbaycanın Yaxın Şərq regionu ilə daha sıx siyasi və iqtisadi birgə fəaliyyəti üçün atdığı növbəti addım ötən ilin sonlarında islam dünyasının ən nüfuzlu üzvlərinin təmsil olunduqları D-8-ə üzv qəbul edilməsidir. Bu təşkilat müsəlman ölkələrinin bir növ elitar qurumudur və buradakı üzvlər islam coğrafiyasının iqtisadi baxımdan ən qabaqcıl və proqressiv dövlətləridirlər. Azərbaycanın yekdilliklə D-8-ə üzv qəbul olunması həm dövlətimizin nüfuzunun, həm də xarici siyasətimizin Yaxın Şərq kimi vacib istiqamətdə aktivləşməsinin təzahürüdür.

Yaxın Şərq siyasəti çərçivəsində olduqca mühüm istiqamətlərdən biri Suriyadır. Son ayların bir sıra hadisələri və təmasları onu göstərir ki, Azərbaycan yeni Suriyanın iqtisadi və təhlükəsizlik arxitekturasında ciddi rol oynamağa başlayıb və bunun məntiqi olaraq izlənən proseslərin nəticəsi kimi bölgədəki mövqelərini daha da möhkəmləndirəcək. Azərbaycan Suriyada hakimiyyət dəyişikliyindən sonra sabiq prezident Bəşər Əsədin zülm hakimiyyətindən əziyyət çəkən sıravi xalq üçün humanitar yardım təşəbbüsü ilə çıxış etmiş ilk dövlətlərdən biri olub. Bunun ardınca Xarici İşlər Nazirliyinin heyəti Suriyaya səfər edib və bu dövlətin yeni rəhbərliyi ilə məhsuldar görüşlər keçirib.

Aprelin 11-də Türkiyədə keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində Prezident İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü baş tutub. Prezident İlham Əliyev həmin görüşdə qeyd edib ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddətdə bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib. Dövlət başçısı ölkəmizin Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində iştirak etməyə hazır olduğunu qeyd edib. Eyni zamanda Suriya lideri də Azərbaycanın gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində ölkəsinə dəstək göstərməsinin mümkünlüyü və önəmindən məmnunluğunu qeyd edib.

Azərbaycanın son illərin geosiyasi anarxiyasından əziyyət çəkmiş və mürəkkəb çağırışlarla üz-üzə qalmış Suriyada aktiv fəaliyyəti daha bir amillə də izah olunmalıdır. Suriyadakı hakimiyyət dəyişikliyi qardaş və strateji müttəfiq dövlət olan Türkiyənin bölgədəki nüfuz və təsirini xeyli artırıb. Təbii ki, Türkiyə bu ölkədə baş verən proseslərdə ən yaxın tərəfdaş və beynəlxalq aktor qismində iştirak edir. Ankaranın proseslərdəki eksklüziv rolu və statusunu bütün dünya qəbul edir. Bu baxımdan Azərbaycanın da bu qlobal prosesdə iştirakçı olması həm də bizim qardaş Türkiyə ilə aramızda olan strateji münasibətlərin ruhundan irəli gəlir.

### Yenilənən Azərbaycan-İran münasibətləri

İranda yeni Prezident - Məsud Pezeşkianın hakimiyyətə gəlişi dövlətlərimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələsinin əsasını qoyub. İranın siyasi liderinin az öncə ölkəmizə olduqca uğurlu səfəri Bakı ilə Tehran arasındakı münasibətlərin daha pozitiv məcrada davam etdirilməsi, hətta inkişaf etdirilməsi üçün baza rolunu oynayacaq.

İran Yaxın Şərqdə baş verən proseslərin əvəzolunmaz və aktiv iştirakçılarından biridir və bu baxımdan Azərbaycanın bu coğrafiyada fəallaşması kontekstində Bakı-Tehran münasibətlərinin əhəmiyyəti daha da artır. Rəsmi Bakının son illər ərzində münasibətlərini daha da inkişaf etdirməyə çalışdığı İraq və Suriyada İranın ənənəvi güclü mövqeləri olub. Bu baxımdan Yaxın Şərqdə siyasi və iqtisadi fəaliyyət bölgənin ən nüfuzlu təmsilçilərindən biri olan İranla müsbət işguzar münasibətlərin mövcudluğunu şərtləndirir. Olduqca vacib amil bundan ibarətdir ki, Tehran Bakının Yaxın Şərqdəki təşəbbüslərini tanıyır və qəbul edir. Bakıda səfərdə olarkən Prezident Məsud Pezeşkianın bu faktı dilə gətirməsi əlahiddə ciddi faktordur: "Bəzi məqamlar var ki, hələ yazılmayıb. Amma gərəkdir ki, onları da yazaq və imzalayaq, onları mütləq həyata keçirək. Biz bunların həyata keçirilməsinə, icrasına qəti şəkildə qərarlıyıq. Mən həmin qətiyyəti həmçinin qardaşımızda görürəm. Allahın köməyi ilə digər layihələri bölgə üçün, İranın və Azərbaycanın gələcəyi üçün, hətta Yaxın Şərq bölgəsi üçün birlikdə yaradacağıq".

İran liderinin bu sözləri faktiki olaraq Suriya və Yaxın Şərqdə Azərbaycanın mövcudluğunun Tehran tərəfindən qəbul edilməsi anlamına gəlir. Onun Yaxın Şərqdə "birgə layihələr"dən danışması göstərir ki, İran Azərbaycanın Yaxın Şərq təşəbbüslərində tərəf kimi çıxış etməyi də mümkün sayır. Bu, özündə müxtəlif məzmunlu iqtisadi layihələrlə yanaşı, regional sabitliyi təmin edəcək təhlükəsizlik formatları çərçivəsində müştərək əməkdaşlığı da əks etdirə bilər.

### Türkiyə-İsrail münasibətləri və Azərbaycan

Yaxın Şərqin gündəmində duran başlıca mövzulardan biri də son illər ərzində özünün gərginliyi ilə müşayiət olunan Ankara-Təl-Əviv əlaqələridir. Həm Türkiyə, həm də İsrail Azərbaycan üçün vacib dövlətlərdir. Əgər Türkiyə qardaş ölkədirsə, İsrail də strateji tərəfdaşımızdır. Ona görə də Prezident İlham Əliyevin dediyi kimi, iki dost ölkə arasında gərgin münasibətlərin olması Azərbaycanın milli maraqlarına cavab vermir: "Dostlarınız arasında pis münasibətlərin olması hər zaman pisdir. Bu, onlar üçün pisdir, bizim üçün pisdir və dünya üçün pisdir. Çünki düşünürəm ki, legitim narahatlıqlara, kifayət qədər yüksək səviyyədə etimadsızlığa baxmayaraq, hələ də normallaşma və qarşılıqlı maraq doğuran sahələr üçün əsas tapmaq olar. Zənnimcə, proses dayanmamalıdır. Azərbaycan prosesə kömək etmək üçün əlində olan hər şeyi edir".

Rəsmi Bakının Yaxın Şərqdəki fəaliyyətinin prioritet istiqaməti iki müttəfiq arasında hamar olmayan münasibətlərin sabitləşdirilməsi prosesində iştirak etmək və maksimal şəkildə gərginliyin aradan qaldırılmasına öz töhfəsini verməkdən ibarətdir. Bu proses Prezident İlham Əliyevin şəxsi nəzarətindədir və onu göstərir ki, Azərbaycan Yaxın Şərqə yalnız iqtisadi prioritetlər müstəvisindən yanaşmır. Bakı eyni zamanda bölgədəki təhlükəsizlik problemlərinə maksimal şəkildə cəlb olunmaq, habelə sabitlik mühiti, qarşılıqlı etimad ab-havasının bərqərar edilməsində iştirak etmək niyyətindədir. Bu mürəkkəb prosesdə Türkiyə ilə İsrail arasındakı gərginliyin nizamlanmaması şəraitində uğur qazanmaq mümkün deyil. Məhz bu səbəbdəndir ki, Azərbaycan iki dost ölkə arasında əlaqələrin yaxşılaşdırılması missiyasını öz üzərinə götürüb. Bunu Prezident İlham Əliyev də qeyd edir: "Hər iki ölkə Azərbaycanın yaxın dostudur. Biz Türkiyə ilə müttəfiqik. Biz 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışıq və rəsmi surətdə müttəfiq olmuşuq. Baxmayaraq ki, bizim müttəfiqlik münasibətlərimiz de-fakto bu formal prosedurdan uzun müddət əvvəl mövcud olub. İsrail Azərbaycana dost ölkədir. Uzun illər ərzində hər ikimiz üçün çətin zamanlarda qarşılıqlı dostluq nümayiş olunub. Ona görə də, əlbəttə ki, bu iki ölkə arasındakı gərginlik bizim üçün çox narahatlıq doğurur. Artıq məlum olduğu kimi, - baxmayaraq ki, biz özümüz bunu açıq şəkildə heç vaxt bəyan etməmişik, bu, artıq kifayət qədər geniş şəkildə yayılıb, - Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. Çünki indi iki ölkə arasında baş verənlər ilk böhran deyil, yaxın keçmişdə ikincidir. İlk böhran zamanı biz ölkələri yaxınlaşdırmağa çalışmaq üçün fəal rol oynadıq. Bu, təkcə Azərbaycan deyildi, lakin deyərdim ki, Azərbaycan bu prosesdə birinci yerdə idi. Yenə də bu, bağlı qapılar arxasında baş verdi. Biz bunu heç vaxt ictimailəşdirmədik. Biz buna görə heç vaxt özümüzü tərifləməyə çalışmadıq. Biz, sadəcə olaraq, müttəfiqimiz və qardaşımız olan Türkiyəyə, dostumuz İsrailə öz əlaqələrini yenidən qurmaq üçün yardım etmək istədik".

Dövlətlər arasındakı gərgin atmosferin neytrallaşdırılmasına hesablanmış sülhpərvər, barışdırıcı missiya ilk növbədə bu təşəbbüslə çıxış edən tərəfin nüfuzuna əsaslanmalıdır. Bu gün Bakının Yaxın Şərq kimi çətin bölgədə iki regional güc mərkəzini bir araya gətirmək cəhdi Prezident İlham Əliyevin beynəlxalq nüfuzundan, Türkiyə və İsrail cəmiyyətlərində malik olduğu hörmətdən, eyni zamanda Azərbaycana bir dövlət olaraq bəslənən etimaddan irəli gələn reallıqdır.

Prezident İlham Əliyev bu ilin əvvəlində yerli televiziya kanallarına verdiyi geniş müsahibədə Azərbaycanın xarici siyasətindən bəhs edərkən yeni dünya nizamının formalaşması prosesinə toxunmuşdu. Dövlət başçısının sözlərinə görə, Azərbaycanın xarici siyasət hədəfi yeni nizamda aktiv rol oynamaq və bundan geosiyasi dividendlər əldə etməkdir. Prezident İlham Əliyevin bu bəyanatının nəticələrini az müddət keçməsinə baxmayaraq, artıq görməyə başlamışıq. Dövlətimiz yerləşdiyimiz regiondan kənarda baş verən proseslərdə iştirak edir və bununla da yeni statusunu - orta güc olduğunu əməli addımlarla təsdiq edir. Eyni zamanda Azərbaycanın geosiyasi aktor olaraq bu proseslərdə mövcudluğu həm regional iştirakçılar, həm də daha iri güc mərkəzləri tərəfindən qəbul edilir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanın xarici siyasətinin uğurlu çoxqütblü formatı bu reallığın əyani təsdiqidir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azərbaycanın apardığı siyasət sabit Suriya arealı üçün qiymətlidir

"Son vaxtlar Azərbaycanın əməkdaşlıq baxımından önəm verdiyi ölkələrdən biri də Suriyadır. 8 dekabr 2024-cü ildə Bəşər Əsəd rejiminin süqutundan sonra Bakı-Dəməşq əlaqələrində də yeni bir səhifə açıldı, münasibətlərin inkişafı üçün daha böyük imkanlar yarandı".



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. İki ölkənin əlaqələrinin dərin və qədim tarixə dayandığını deyən deputat qeyd edib ki, bunun əsası İpək yolu əsrində qurulub, Azərbaycanın müstəqillik qazandığı illərdən həm əvvəlki, həm də sonrakı dövrlərdə davam edib: "Bu ölkələrin xalqları ticarət yolları, diplomatik əlaqələr və mədəni inteqrasiya vasitəsilə bir-birilərinə yaxın olub, ortaq dəyərlər formalaşdırıblar. Azərbaycanın müstəqillik qazanmasından sonra bu əlaqələr davam edib. İlk dəfə 1992-ci il martın 28-də iki ölkə arasında diplomatik əlaqələr qurulub. Azərbaycan və Suriya arasında diplomatik əlaqələr qurulduqdan iyirmi il sonra kəsilib. Təəssüflə qeyd edək ki, Suriyanın keçmiş rejimi dövründə Azərbaycanla əlaqələr müəyyən səbəblərdən arzuolunan səviyyədə olmayıb. Suriyanın əvvəlki rejimi işğalçı Ermənistanı dəstəkləyib, Azərbaycanın ərazi bütövlüyü məsələsində birmənalı mövqe tutmayıb. Lakin onu da bildirək ki, keçmiş rejim zamanında Azərbaycana qarşı edilən haqsızlıqlar Suriya xalqının Azərbaycan xalqına münasibətini əks etdirməyib".

K.Bayramov əlavə edib ki, ölkəmizin Suriya ilə münasibətlərinin yenidən qurulması istiqamətində atdığı addımlar Azərbaycanın regional sabitlik və əməkdaşlıq siyasətinin bariz nümunəsidir. Azərbaycanın Suriyada səfirliyinin fəaliyyətini bərpa etməsi və Baş nazirin müavini Samir Şərifovun Dəməşqə səfəri iki ölkə arasında yeni əməkdaşlıq səhifəsinin açılmasına xidmət edir. Bu addımlar Azərbaycan-Suriya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidini simvolizə edir.

Deputat qeyd edib ki, əvvəllər Əsəd rejiminin Ermənistanı açıq şəkildə dəstəkləməsi səbəbindən Azərbaycan-Suriya münasibətləri soyuq olub və Azərbaycanın Suriyada diplomatik nümayəndəliyi fəaliyyət göstərməyib: "Lakin Suriyada baş verən hakimiyyət dəyişikliyi və yeni rəhbərliyin Azərbaycanla münasibətləri inkişaf etdirmək istəyi iki ölkə arasında əlaqələrin yenidən qurulmasına şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin Suriyanın keçid dövrü prezidenti Əhməd əl-Şaraaya göndərdiyi təbrik məktubu və onu Azərbaycana səfərə dəvət etməsi iki ölkə arasında siyasi dialoqun inkişafına xidmət edir. Bu cür yüksəksəviyyəli təmaslar Azərbaycan-Suriya münasibətlərinin möhkəmlənməsinə və regionda sülhün bərqərar olmasına töhfə verir. Suriyanın keçid dövrü hökuməti ilə qurulan yeni münasibətlər qarşılıqlı hörmət və faydaya əsaslanır. Suriyanın yeni rəhbərliyi ölkənin bərpası və inkişafı üçün beynəlxalq əməkdaşlığa önəm verir və bu məqsədlə Azərbaycanla enerji, infrastruktur və digər sahələrdə əməkdaşlıq etməkdə maraqlıdır. Azərbaycan da öz növbəsində Suriyanın bərpasında iştirak etməyə və bu sahədə Türkiyə ilə birgə fəaliyyət göstərməyə hazır olduğunu bildirib".

Deputat xatırladıb ki, Baş nazirin müavini Samir Şərifovun səfəri çərçivəsində iki ölkə arasında iqtisadi, enerji və humanitar sahələrdə əməkdaşlıq imkanları müzakirə edilib. Bu səfər Azərbaycan-Suriya münasibətlərinin inkişafına təkan verəcək və regionda sabitliyin təmin olunmasına töhfə verəcək. Beləliklə, Azərbaycan xarici siyasətində son 5 ildə fəaliyyət və təsir arealını daha da genişləndirməyə davam edərək proseslərə təsir etməyi bacaran beynəlxalq aktor kimi tanınır. Suriyada bir çox dövlətin proseslərdə sabitsizləşdirici mövqeyi fonunda Azərbaycanın apardığı siyasət vahid və sabit Suriya arealı üçün qiymətlidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *İran rəsmisi:* "Məsud Pezeşkianın səfəri münasibətlərin yeni inkişaf mərhələsinə keçdiyini nümayiş etdirdi"

"İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi və tarixi səfəri iki ölkə arasında strateji əməkdaşlığın möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən yüksəksəviyyəli görüşlər, imzalanan anlaşma memorandumları və verilən birgə bəyanatlar İran-Azərbaycan münasibətlərinin yeni inkişaf mərhələsinə keçdiyini nümayiş etdirdi".

AZƏRTAC xəbər verir ki, bu fikirləri İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin (IPIS) rəhbəri, nazir müavini Səid Xətibzadə jurnalistlərə açıqlamasında söyləyib. Səfərin əhəmiyyətindən bəhs edən Səid Xətibzadə bildirib: "İran və Azərbaycan arasındakı əlaqələr yalnız coğrafi yaxınlıqla məhdudlaşmır. İki xalqı birləşdirən dərin tarixi, mədəni və iqtisadi bağlar bu münasibətlərin təbii davamıdır. Bu səfər əvvəlki görüşlərin məntiqi davamı kimi qarşılıqlı etimada və siyasi iradəyə əsaslanan əməkdaşlığın daha da dərinləşdiyini ortaya qoydu. İran və Azərbaycan bölgənin bir-birinə ən yaxın və təbii tərəfdaş ölkələridir".

S.Xətibzadə qeyd edib ki, son illərdə bəzi xarici və süni maneələr əlaqələrin inkişafına müəyyən çətinliklər yaratsa da, hər iki ölkə bu əngəllərin aradan qaldırılması üçün qətiyyətli siyasi iradə nümayiş etdirir. "Tərəflər təbii münasibətlərin sürətli və davamlı şəkildə inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atmaqdadır", - deyə o bildirib.

Nazir müavini həmçinin Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş hücuma da toxunaraq qeyd edib ki, bu hadisə hər iki xalq üçün ağrılı və təəssüf doğuran bir hadisə olub. Hadisə ilə bağlı İranın təhlükəsizlik və məhkəmə orqanları tərəfindən geniş və hərtərəfli araşdırmalar aparılıb. Hücumun təşkilatçısı Yasin Hüseinzadənin məhkəmə prosesi müəyyən texniki səbəblərdən gecikmiş olsa da, İran tərəfi ədalətin tam şəkildə təmin olunacağına dair əminlik ifadə edib. O, İranın hüquq sisteminin bütün məhkəmə prosedurlarını şəffaf və qanun çərçivəsində həyata keçirdiyini, Prezident Məsud Pezeşkianın bu məsələdə Azərbaycan xalqının və hökumətinin səbrini, anlayışını yüksək qiymətləndirdiyini vurğulayıb. S.Xətibzadə iki ölkənin bu hadisəni qarşılıqlı hörmət və diplomatik kanallar vasitəsilə



ədalətli şəkildə həll edəcəyinə inandığını bildirib.

Onun sözlərinə görə, Prezident Məsud Pezeşkianın səfəri İran-Azərbaycan əlaqələrinin dərin dostluq, strateji tərəfdaşlıq əsasları üzərində qurulduğunu bir daha təsdiqləyib və gələcək münasibətlər üçün etibarlı platforma yaradıb.

# Mərakeşin xanım Şahzadəsi Beynəlxalq Muğam Mərkəzi ilə tanış olub





Ölkəmizdə səfərdə olan Mərakeş Krallığının xanım Şahzadəsi Lalla Hasnaa mayın 6-da Beynəlxalq Muğam Mərkəzi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, qonağa mərkəz haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu mərkəz Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə inşa edilib.

Qeyd olunub ki, Prezident İlham Əliyev 2005-ci il aprelin 6-da Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında Sərəncam imzalayıb. Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. 2008-ci il dekabrın 27-də istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzində 350 yerlik konsert salonu, klub, 80 nəfərlik restoran, dərs otaqları, səsyazma studiyası var. Mərakeşin xanım Şahzadəsinə Beynəlxalq Muğam Mərkəzinin foyesində nümayiş olunan ekspozisiyada yer alan milli musiqi alətləri barədə də məlumat verilib.



Sonra konsert proqramı təqdim olunub.

Konsertdə Azərbaycan muğam sənətinin nadir nümunələri səsləndirilib, milli musiqimizin zənginliyi və bədii-estetik dəyərləri nümayiş etdirilib.

Beynəlxalq Muğam Mərkəzi ilə tanışlıq qonaqda xoş təəssürat yaradıb.

Mərakeş Krallığının xanım Şahzadəsi Lalla Hasnaanı mədəniyyət naziri Adil Kərimli müşayiət edib.

# Balakəndə "Akademik Yaqub Mahmudovun elmi fəaliyyətində Şimal-Qərbi Azərbaycan tarixi məsələləri" mövzusunda konfrans keçirilib





Mayın 6-da "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Balakən Rayon İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şəki Regional Elmi Mərkəzi və AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun birgə təşkilatçılığı ilə "Akademik Yaqub Mahmudovun elmi fəaliyyətində Şimal-Qərbi Azərbaycan tarixi məsələləri" mövzusunda elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Balakən Rayon Mədəniyyət Mərkəzinin foyesində akademik Yaqub Mahmudovun əsərlərindən və AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun nəşr etdiyi, tariximizin müxtəlif dövrlərini əhatə edən kitablardan ibarət sərgi ilə tanış olublar.

Konfransın əvvəlində Yaqub Mahmudova həsr olunan sənədli filmdən kadrlar nümayiş etdirilib.

Konfransı Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev açaraq, görkəmli alimin Azərbaycan elminə verdiyi töhfələrdən bəhs edib.

AMEA-nın Şəki Regional Elmi Mərkəzinin direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Yusif Şükürlü çıxışında qeyd edib ki, Yaqub Mahmudov Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair 1000-dən çox elmi əsərin müəllifidir. Akademikin rəhbərliyi və həmmüəllifliyi ilə "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" və digər əsərlər işıq üzü görüb.

AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru Kərim Şükürov Yaqub Mahmudovun Azərbaycan tarixinin tədqiqi, öyrənilməsi və ölkəmizdə yüksəkixtisaslı tarixçi kadrların yetişdirilməsində mühüm xidmətlər göstərdiyini bildirib.

Konfransda Yaqub Mahmudovun yetirmələrinin "Azərbaycan Albaniya dövlətinin qərb sərhədləri", "Azərbaycana qarşı ərazi iddialarında ingiloy problemi", "Şimal-Qərbi Azərbaycanda çarizmin müstəmləkəçilik rejiminə qarşı müqavimət hərəkatı", "Çarizmin Şimal-Qərbi Azərbaycanda zorakı xristianlaşdırma siyasəti" və digər mövzularda məruzələri dinlənilib, müzakirələr aparılıb.

Akademik Yaqub Mahmudov elmi fəaliyyətinə verilən dəyərə görə konfransın təşkilatçılarına təşəkkürünü bildirib, gənc nəsli tariximizi sevməyə, öyrənməyə və təbliğ etməyə səsləyib.

Konfransın sonunda ədəbi-bədii kompozisiya nümayiş olunub.

# İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Baş Prokurorluqda keçirilmiş tədbirdə media subyektləri və gənclər iştirak ediblər

İnformasiya texnologiyaların sürətli inkişafı insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində cinayət təqibi orqanlarının, media subyektlərinin və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrin qurulmasını və birgə layihələrin həyata keçirilməsini labüd edir.

Bu səbəbdən media subyektləri və vətəndaş cəmiyyəti institutları ilə Baş Prokurorluq müntəzəm əlaqədədir, müasir çağırışlara cavab verən tədbirlər keçirilir.

Növbəti layihə cari ilin mayın 6-da Baş Prokurorluğun Mətbuat xidməti və Elm-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsində cinayət təqibi ilə media subyektlərinin qarşılıqlı əlaqələri" mövzusunda baş tutub.



Sözügedən tədbirdə televiziya kanallarının, informasiya agentlikləri və xəbər saytlarının, eləcə də müxtəlif qəzetlərin jurnalist və nümayəndələri, eləcə də hüquq fakültəsində təhsil alan tələbələr iştirak edib. Treninq müxtəlif formatlarda - brifinq, dəyirmi masa və təqdimat şəklində təşkil olunaraq media və prokurorluq orqanları arasında qarşılıqlı əlaqənin müxtəlif aspektlərini əhatə edib. Təqsirsizlik prezumpsiyasının media materiallarında qorunmasının əhəmiyyəti, bu prinsipin pozulmasının hüquqi və sosial fəsadları, eləcə də ictimaiyyətin obyektiv məlumatlandırılmasının vacibliyi vurğulanıb.

Prokurorluq əməkdaşları və media nümayəndələri arasında effektiv informasiya mübadiləsinin hüquqi əsasları və etik çərçivəsi geniş şəkildə müzakirə olunub. Tədbir çərçivəsində Baş Prokurorluq tərəfindən hazırlanmış "Jurnalistlər üçün hüquqi terminlər lüğəti" adlı nəşrin təqdimatı keçirilib.

Kitab jurnalistlərin hüquqi mövzularda daha dəqiq və anlaşılan məlumat verməsinə kömək məqsədi daşıyır.

Sosial media və media savadlılığı mövzusunda keçirilən sessiyalarda rəsmi məlumatların hazırlanması, yayım standartları və ictimai maraq doğuran məsələlərin dəqiqliklə çatdırılması ilə bağlı praktiki tövsiyələr verilib.

Tədbirin sonunda iştirakçılar Baş Prokurorluğun inzibati binalar kompleksi ilə tanış olub və xatirə şəkli çəkdiriblər.

Qeyd edilən treninq prokurorluq orqanlarında şəffaflığın və ictimaiyyətlə açıq ünsiyyətin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlərin tərkib hissəsi kimi təşkil olunub.

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslər ifadə veriblər

Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi mayın 6-da davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesinə ilk dəfə qatılan zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib, onları məhkəmə tərkibi, tərcüməçilər, katiblər, dövlət ittihamçıları və digərləri ilə tanış edib.

Sonra təqsirləndirilən Ruben Vardanyanın vəkili Avraam Berman müraciət edərək 2025-ci il 6 fevral tarixli iclasın protokolu ilə tanış olduqları zaman məhkəmə kollegiyasına etiraz etmək üçün əsaslar müəyyənləşdirdiklərini bildirib. Müdafiəçi qeyd edib ki, məhkəmə iclas protokolunda müdafiə tərəfinin vəsatətlərinə münasibət bildirilməyib və bu, bizdə məhkəmə kollegiyasının iş üzrə obyektiv, qərəzsiz olmayacağı barədə əsaslı şübhələr doğurur. Ona görə də vəkil məhkəmə kollegiyasına etiraz edib.

Təqsirləndirilən Ruben Vardanyan etirazı müdafiə edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev etiraza münasibət bildirərək deyib ki, müdafiə tərəfinin məhkəmə iclas protokollarında yazıların düzgünlüyü və tamlığı barədə qeydlərini vermək hüququ var. Məhkəmə iclas protokolunda hər hansı xüsusatın qeyd olunmaması məhkəmə kollegiyasına etiraz üçün əsas hesab edilmir. O, həmçinin vurğulayıb ki, müdafiə tərəfi eyni qaydadan, eyni üsuldan istifadə etməklə qeyri-müəyyən səbəbdən verdiyi etirazlarla məhkəmə prosesinin uzadılmasına nail olmaq istəyir.

Qeyd olunanlar nəzərə alınmaqla Vüsal Əliyev etirazın baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər.

Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib.

Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

İclasa sədrlik edən Zeynal Ağayev qərarı əsaslandıran zaman vurğulayıb ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olmasına dair konkret dəlillər təqdim etməyib.

Sonra zərərçəkənlər ifadə veriblər.

Zərərçəkmiş Mahir Hüseynov deyib ki, o, Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində yerləşən Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində yaralanıb. Dövlət ittihamçıları Fuad Musayev və Təranə Məmmədovanın suallarına cavabında zərərçəkmiş şəxs bildirib ki, həmin vaxt erməni hərbçilər mövqelərimizi mütəmadi olaraq atəşə tutub, eyni zamanda, ərazilərimizi minalayıb. Ermənistanın Azərbaycana qarşı mina terroru davam edib. Bəzən həmin minalar təminat yollarında aşkarlanıb.

Digər zərərçəkmiş şəxs Mədət Rzayev Laçın rayonunda xidməti fəaliyyətini icra edən zaman ağır xəsarət aldığını diqqətə çatdırıb. "Biz yüksəkliyin arxasında olduğumuz üçün onları tam görə bilmirdik. Amma onlar ağır artilleriyadan istifadə edərək bizim təminat yollarımızı vururdular", - deyə o əlavə edib.

Zərərçəkmiş Mehman Həsənov Ağdamın Mollalar kəndində yaralandığını bildirib. O, ifadəsində qeyd edib ki, həmin gün kənd ərazisində yol inşasının həyata keçirilməsi məqsədilə qazıntı və quruculuq işləri ilə məşğul imiş. Bu zaman atəş səsləri eşidib. Təxminən 80 metr aralıya düşmüş mərmi nəticəsində sağ diz nahiyəsindən xəsarətlər alıb. Ətrafda olan insanların köməyi ilə Ağdam Rayon Mərkəzi Xəstəxanasına aparılıb.

Zərərçəkmiş Seymur Qarayev deyib ki, Ağdamın Papravənd kəndi istiqamətindən Ağdərə rayonunun Canyataq kəndi istiqamətində gedən döyüş əməliyyatları zamanı Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmisinin onun yaxınlığına düşərək partlaması nəticəsində kəllə-beyin travması alıb.

Zərərçəkmiş Sadiq Baxiyev ifadəsində Ermənistan hərbçilərinin növbəti təxribatı nəticəsində ağır xəsarət alığını bildirib. Həmin hadisə nəticəsində onunla birlikdə olan hərbçi yoldaşları şəhid olub və ya yaralanıb. O deyib ki, özü düşmənin snayperlə açdığı atəş nəticəsində yaralanıb.

Zərərçəkmiş şəxs qismində tanınan Cəsarət Həsənzadə ifadəsində diqqətə çatdırıb ki, Ağdərə rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış "FAQOT" tipli tankəleyhinə idarəolunan raket mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o və yanındakı xidmət yoldaşı - gizir Akif Koroğluyev xəsarətlər alıblar.

"Yaralandığım vaxt və həmin ərazidə, həmçinin digər xidmət yoldaşlarım - əsgərlər Hüseyn Babayev və Amin Ələsgərov xəsarətlər alıblar, qrup komandiri Füzuli Məmmədov isə şəhid olub", - deyə o əlavə edib.

Zərərçəkmiş Həsən Quliyev qeyd edib ki, Ağdamın Sırxavənd kəndi istiqamətində yaralanıb. O, kəllə-beyin travması və ayağından xəsarət alıb.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası mayın 13-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

İŞİMİZ, GÜZƏRANIMIZ

# Bu il "Caspian Agro" sərgisində fermerlər üçün süni intellekt əsaslı yeniliklər təqdim olunacaq

**Mayın 13-16-da Xəzər regionunun ən böyük 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" və 30-cu Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgiləri "Bakı-Ekspo" Mərkəzində keçiriləcək. AZƏRTAC xəbər verir ki, Bakıda keçiriləcək "Caspian Agro" və 30-cu Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgilərinə həsr olunmuş mətbuat konfransı keçirilib.**




Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi Toğrul Qafarbəyli qeyd edib ki, bu il sərgidə ilk dəfə fermerlər üçün kənd təsərrüfatı sahəsində süni intellekt əsaslı yeniliklər təqdim olunacaq.

"Bu il sərgi pavilyonu genişlənib, eləcə də xarici şirkətlərin nümayəndələri artıq iştirakçıların 70 faizini təşkil edir", - deyə T.Qafarbəyli bildirib.

Tədbirlər Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilir. Həmçinin Qida Təhlükəsizliyi Agentliyi (AQTA), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK), Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası (AQİSA), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası (ASTA) "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərini fəal şəkildə dəstəkləyirlər.

Bu il "InterFood Azerbaijan" sərgisi özünün 30 illik yubileyini qeyd edir. 30 il ərzində 50-dək ölkədən 3000-dən çox şirkət və 150 mindən çox ziyarətçini qəbul edən sərgi səmərəli biznes platforması statusunu qazanıb. Sərgidə təqdim olunan yeni texnologiyalar və innovativ həllər qida sənayesi sahəsinin inkişafına və biznes əlaqələrinin genişləndirilməsinə əlverişli imkanlar yaradır. Eyni zamanda "InterFood Azerbaijan" sərgisi ərzaq təhlükəsizliyinin əsas aspektlərini əhatə edərək, onun möhkəmləndirilməsində vacib rol oynayır.

Hazırda "InterFood Azerbaijan" və "Caspian Agro" sərgilərində 30-dan artıq ölkədən 450-dək şirkət öz iştirakını təsdiq edib. Beləliklə, sərgilər "Bakı-Ekspo" Mərkəzinin bütün pavilyonlarını və açıq sahəsini əhatə edir.

İştirakçı və ziyarətçilərin istəklərini nəzərə alaraq bu il sərgilər 4 gün ərzində təşkil ediləcək. Təşkilatçılar ümid edirlər ki, bu, sərgi iştirakçıları və ziyarətçilər arasında qarşılıqlı əlaqə üçün yeni imkanlar yaradacaq və əlavə impuls verəcək.

Sərgilərin coğrafiyası Azərbaycanla yanaşı, Almaniya, ABŞ, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Cənubi Koreya, Fələstin, Finlandiya, Gürcüstan, Hindistan, İordaniya, İran, İspaniya, İsrail, İsveç, İtaliya, Kanada, Latviya, Misir, Niderland, Özbəkistan, Qazaxıstan, Rusiya, Serbiya, Şri-Lanka, Türkiyə, Türkmənistan və Yunanıstanı əhatə edəcək. Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, eləcə də ilk dəfə olaraq Misir milli qruplar şəklində sərgilərdə iştirak edəcək. Sərgiləri bir sıra xarici ölkələrdən nazirlərin başçılıq etdiyi beynəlxalq nümayəndə heyətləri ziyarət edəcək.

Regionun ən böyük kənd təsərrüfatı sərgisi olmaqla, "Caspian Agro" kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, gülçülük, tullantıların emalı, logistika, elektron kənd təsərrüfatı kimi sahələri əhatə edəcək və yenidən kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçılarını, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, kənd təsərrüfatı məhsullarının distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla minlərlə peşəkar auditoriyanı bir araya toplayaraq təcrübə, bilik və innovasiyalar mübadiləsi üçün unikal imkanlar yaradacaq.

Eyni zamanda sərgidə "Smart Agro" istiqaməti üzrə süni intellekt, "ağıllı kənd", startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və "green agro" bölmələri yer alacaq.

"InterFood Azerbaijan" sərgisində isə qida sənayesi, içkilər, şirniyyat, süd məhsulları, qənnadı və un məmulatları, meyvə-tərəvəz, qablaşdırma, qida texnologiyaları, eləcə də halal qida və digər bölmələr üzrə məhsul və xidmətlər təqdim olunacaq.

Sərgilər "Made in Azerbaijan" brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayır. Ötən il olduğu kimi, bu il də "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri çərçivəsində iştirakçılar bu brend altında məhsullarını nümayiş etdirəcəklər. Bu, qlobal kənd təsərrüfatı və qida sənayesində yerli istehsalın inkişafının və rəqabət qabiliyyətinin parlaq nümunəsidir.

"Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərinin təqdimat zonasında Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə 2-ci Beynəlxalq Aqrar İnnovasiya Forumu keçiriləcək. 2-ci Beynəlxalq Aqrar İnnovasiya Forumu çərçivəsində müasir kənd təsərrüfatı yanaşmalarında aqropark modeli, süni intellektin aqrar sahədə tətbiqi, aqrar sığorta sisteminin inkişaf perspektivləri, dayanıqlı qida sistemləri, kənd təsərrüfatı və qida elmləri sahəsində təcrübə mübadiləsi, innovativ kənd təsərrüfatı, aqrar sahədə qadınların rolu və digər vacib mövzular üzrə müzakirələr aparılacaqdır. Forumda xarici qonaqların, o cümlədən nazirlərin iştirak edəcəyi gözlənilir.

# Azərbaycan tezliklə regionda əczaçılıq mərkəzinə çevriləcək

## Ötən il ölkəmizdə 20 milyon manatlıq əczaçılıq məhsulları istehsal olunub

**Xəbər verildiyi kimi, Bakıda "Azərbaycan əczaçılıq sənayesi: dünən, bu gün və sabah" adlı beynəlxalq tədbir keçirilib.**



Tədbirin əsas məqsədi Azərbaycanın əczaçılıq sənayesinin inkişafını müzakirə etmək və bu sahədəki mövcud vəziyyəti dəyərləndirmək olub. Bu yerdə qeyd edək ki, Azərbaycan son illər əczaçılıq sektorunda ciddi inkişaf yolu keçib. Ona görə də beynəlxalq tədbirlər bu inkişafı sürətləndirmək üçün mühüm platforma rolunu oynayır.

Əczaçılıq sənayesi yalnız dərman istehsalını deyil, həm də bu sahəyə investisiyaların cəlb edilməsi, yerli istehsalın artırılması və beynəlxalq bazarlara çıxış məsələlərini əhatə edir. Xüsusən biotexnologiyalar və genetik mühəndislik kimi sahələrdəki yeniliklər Azərbaycanın əczaçılıq sənayesinin gələcəyinə böyük təsir göstərir. Bu sənaye sahəsi insanların sağlamlığını qorumaq və müalicə etmək üçün dərmanların və digər farmasevtik məhsulların hazırlanması və yayılması ilə bağlı prosesləri idarə edir.

Ölkəmizdə əczaçılıq sahəsində fəaliyyət göstərən bir çox şirkət mövcuddur. Bu şirkətlər sağlamlıq sektorunun inkişafı və əhalinin dərman ehtiyaclarının qarşılanması baxımından mühüm rol oynayırlar. Müəssisələr əsasən dərman istehsalı, distribusiya, ticarət və tibb avadanlıqları sahələrində fəaliyyət göstərirlər.

Tədbir çərçivəsində iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Pirallahı Sənaye Parkından bəhs edərkən bu barədə danışmışdır: "Sənaye parkının rezidenti olan "Diamed Co" MMC müasir texnologiyalar əsasında birdəfəlik şprislər istehsal edir. Digər bir rezident "R-Pharm" MMC müxtəlif dərman vasitələrinin qablaşdırılmasını həyata keçirir. Hazırda sənaye parkında Türkiyənin "Gen İlaç ve Sağlık Ürünleri A.Ş." şirkəti ilə birgə beynəlxalq keyfiyyət standartlarına və Azərbaycanın milli əczaçılıq təhlükəsizliyi prioritetlərinə uyğun yeni əczaçılıq zavodu tikilir. Zavodda müxtəlif doza və qablaşdırmada dərman məhsulları istehsal olunacaq".

Xatırladaq ki, əczaçılıq məhsullarının istehsalı sahəsində ixtisaslaşmış Pirallahı Sənaye Parkı Azərbaycanın qeyri-neft sektorunun inkişafına dəstək vermək, yerli istehsalı artırmaq və xarici investisiyaları cəlb etmək məqsədi ilə fəaliyyət göstərir. Parkda iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən müəssisələr üçün müasir infrastruktur və əlverişli vergi şəraiti mövcuddur. Sənaye parkının ərazisi artıq rezidentlərlə tam dolub. Sahibkarların bura marağı böyükdür. "Burada layihələrin investisiya həcmi 120 milyon manatdan çox olan 7 sahibkarlıq subyektinə rezidentlik verilib. Sahibkarlar tərəfindən görülmüş işlərə ümumilikdə 45 milyon manatdan çox investisiya yatırılıb, 160-a yaxın daimi iş yeri yaradılıb. Sənaye parkında indiyədək 64,5 milyon manatlıq məhsul istehsal edilib. Pirallahı Sənaye Parkında qeydiyyatdan keçən rezidentlərin tam gücü ilə fəaliyyətə başlaması əczaçılıq sənayesinin inkişafını, dərman vasitələri və tibbi ləvazimatlara tələbatın yerli istehsal hesabına ödənilməsini stimullaşdıracaq", - deyə nazir müavini sənaye parkı ilə bağlı faktlara diqqət çəkib.

Tədbirdə Ələt Azad İqtisadi Zonasında qeydiyyatdan keçmiş İsrailin "BioPharmax" şirkətindən də söz açılıb. Şirkət yerli istehsalı artırmaq, beynəlxalq bazarlara çıxış imkanı yaratmaq, təhlükəsiz və innovativ tibb məhsulları istehsal etmək yolu ilə Azərbaycanın iqtisadiyyatına dəyərli töhfələr verəcək. Burada 50 adda tibbi məhsul, ilk növbədə insulin istehsalı nəzərdə tutulur. Qeyd edək ki, Ələt qəsəbəsində fəaliyyət göstərən iqtisadi zona Azərbaycanın əsas ticarət marşrutlarına yaxın olması səbəbindən strateji əhəmiyyətə malikdir. Çindən Avropaya və Asiyadan Yaxın Şərqə gedən ən mühüm nəqliyyat dəhlizlərinin üstündə yerləşdiyi üçün logistika mərkəzi kimi də çox vacibdir. Ona görə də "BioPharmax" şirkətinin burada fəaliyyət göstərməsi strateji cəhətdən çox əhəmiyyətlidir.

Əlverişli şərait, təklif olunan güzəştlər Ələt Azad İqtisadi Zonasına olan marağı artırır. Artıq uzun müddətdir ki, Azərbaycanın əczaçılıq sektorunda fəaliyyət göstərən Türkiyənin "Nobel İlaç Sanayi ve Ticaret Anonim Şirkəti" tərəfindən ölkəmizdə dərman zavodunun qurulması istiqamətində müzakirələr aparılır. Şübhəsiz, sözügedən şirkətin əczaçılıq sektoruna investisiyaları bu sahədə inkişafa öz töhfəsini verəcək.

Azərbaycanın əczaçılıq sektoru son illər yerli dərman istehsalını artırıb. Bu da ölkənin xarici dərman məhsullarına olan asılılığını azaldıb və daxili bazarın tələblərini yerli istehsal hesabına daha çox qarşılamağa imkan yaradıb. Nazir müavininin tədbirdə söylədiyi faktları əlavə etsək, bu sektorun nə dərəcədə irəlilədiyini görə bilərik. Ötən il Azərbaycanda 20 milyon manatlıq əczaçılıq məhsulu istehsal edilib ki, bu da əvvəlki ilə nisbətən 81,5 faiz artım deməkdir. Təkcə dərman istehsalına gəlincə, 2024-cü ildə 9 milyon manatlıq dərman istehsal edilib ki, bununla da əvvəlki ilə nisbətən 4 faiz artım qeydə alınıb".

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın əczaçılıq sahəsindəki irəliləyişləri yalnız yerli tələbləri qarşılamaqla kifayətlənməyib, həm də beynəlxalq ticarət əlaqələrini və investisiyaları artırıb. Bu sektorda baş verən dəyişikliklər ölkəmizin gələcəkdə regionda mühüm əczaçılıq mərkəzinə çevrilməsini daha da yaxınlaşdırır. Və bu inkişaf davam edərsə, Azərbaycan əczaçılıq sənayesinin qlobal miqyasda da əhəmiyyətini artıracaq.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Əmək bazarına körpü - peşə hazırlığı

## İndiyəcən 175 prioritet istiqamət üzrə 42 mindən çox şəxs peşə hazırlığına cəlb edilib

**Məlum olduğu kimi, dünyada elm və texnologiyaların inkişafı sayəsində bir çox peşə sıradan çıxıb, yeniləri yaranıb. Bununla bağlı kadrların yenidən hazırlanması tələbatı yaranıb. Elə köhnə peşələrdə yeni texnika və texnologiyaların tətbiqi də kadrların yenidən hazırlanmasını tələb edir.**









Son dövrlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu istiqamət üzrə müxtəlif layihələr icra olunur. Nazirlikdən verilən məlumatda bildirilir ki, işaxtaran və işsiz şəxslərin məşğulluğa çıxışı üçün ən vacib vasitələrdən biri onların əmək bazarında tələb olunan peşə bacarıqlarına yiyələnməsidir. Həmin şəxslər lazımi peşə və ya ixtisası olmadığı halda münasib iş seçmək imkanından məhrum olurlar. Belə olan halda həmin şəxsə peşə (ixtisas) üzrə bacarıqların artırılması zərurəti yaranır. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi müraciət edənlər üçün peşə hazırlığı kursları təşkil edir.

Bununla əlaqədar agentlik əmək bazarının işçi qüvvəsinə ehtiyacları üzrə proqnozlara uyğun olaraq, hər il peşə və ixtisaslar üzrə istiqamətləri, cəlb ediləcək şəxslərin sayını müəyyənləşdirir. Dövlət orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslər tərəfindən təsis edilən əlavə təhsili həyata keçirən müəssisələr (universitetlər, institutlar, mərkəzlər və s.) peşə hazırlığını həyata keçirə biləcəkləri ixtisasları göstərməklə peşə hazırlığının həmin müəssisədə təşkili barədə agentliyə müraciət edirlər. Agentlik də öz növbəsində peşə hazırlığının nəzəri və praktiki hissələrini, məzmununu, müraciət etmiş müəssisələrin maddi-texniki bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, müdavimlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsini, onların gələcək məşğulluq imkanlarını nəzərə alaraq peşə hazırlığını həyata keçirəcək münasib müəssisələri seçir.

Peşə hazırlığı üzrə təşkil edilən məşğələlər nəzəri və praktik hissədən ibarət olmaqla peşə fəaliyyətinin ümumi əsasları və ixtisas sahələri üzrə təlimlər, innovasiyalar sahəsində isə təlim modulları üzrə həyata keçirilir. Peşə hazırlığının praktiki hissəsində məşğələlər yarımqruplarda aparılır və peşə hazırlığına cəlb edilmiş müdavimlər peşə hazırlığını həyata keçirən müəssisələrin təlim-istehsalat, təsərrüfat sahələrində, o cümlədən işəgötürənlərin istehsalat bazasında istehsalat təlimi və təcrübəsi keçirlər.

Peşə hazırlığına cəlb olunmuş işsiz şəxslərə hazırlıq müddətində Dövlət Məşğulluq Agentliyi tərəfindən minimum aylıq əməkhaqqının 50 faizi məbləğində təqaüd verilir. Peşə hazırlığını başa çatdırmış və ixtisas imtahanını uğurla vermiş müdavimlərə peşə hazırlığını həyata keçirən müəssisə tərəfindən möhürlə təsdiq edilmiş diplom, sertifikat və digər sənəd təqdim olunur.

Beləliklə, peşə hazırlığı işaxtaran və işsiz şəxslərin məşğulluğunun təmin edilməsinin qarantı rolunda çıxış edir. Peşə hazırlığının yekununda kursu uğurla başa vuran şəxslərin işlə təminatına da dəstək verilir. Hazırda Dövlət Məşğulluq Agentliyi tərəfindən 175 prioritet istiqamət üzrə hazırlıq kursları təşkil olunur və 2018-ci ildən başlayaraq görülmüş tədbirlər nəticəsində Dövlət Məşğulluq Agentliyi tərəfindən ümumilikdə 42 mindən çox şəxs peşə hazırlığına cəlb edilib.

Qarabağ və Şərqi Zəngəzurda təşkil olunan peşə hazırlığı kursları isə işğaldan azad olunmuş ərazilərimizdə sakinlərin məşğulluğunun təmin edilməsində əvəzolunmaz rol oynayır. Agentliyin Qarabağ Peşə Hazırlığı Mərkəzində kənd təsərrüfatı, tikinti, turizm, sənaye və.s. sahələr üzrə 50-dək peşə istiqaməti üzrə təşkil edilən peşə kursları sayəsində işsiz şəxslər həmin ərazilərdə əmək bazarının tələbatına uyğun peşələrə yiyələnirlər. Həmin ərazilərdə vətəndaşların işlə təmin edilməsi və regionun sosial-iqtisadi inkişafına dəstək vermək məqsədi ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə Dövlət Məşğulluq Agentliyi arasında faydalı əməkdaşlıq mövcuddur. Bir neçə gün öncə ANAMA-nın Qubadlı mobil bazasında Dövlət Məşğulluq Agentliyinin Qarabağ Peşə Hazırlığı Mərkəzinin nümayəndələrinin iştirakı ilə təşkil edilən təlim və kursları bitirən 137 şəxsə Qarabağ Peşə Hazırlığı Mərkəzinin Bərdə şəhərində yerləşən inzibati binasında təşkil edilən tədbirdə sertifikatlar təqdim edilmişdir. Hazırda həmin şəxslər artıq işğaldan azad edilmiş ərazilərdə icra edilən humanitar minatəmizləmə fəaliyyətində iştirak edirlər.

*Rüstəm KAMAL, "Azərbaycan"*

# Qazaxıstan neftinin BTC kəməri ilə nəqlinin artırılması üzrə dördaylıq sınaq prosesi aparılır

**Bakı-Tbilisi-Ceyhan boru kəmərinin illik ötürmə qabiliyyəti 50 milyon tondur. Hazırkı müqaviləyə əsasən, Qazaxıstan bu marşrutla ildə 1,5 milyon ton xam neft ixrac edə bilər.**



AZƏRTAC "Kazinform"a istinadla xəbər verir ki, bunu Qazaxıstan Respublikası Energetika Nazirliyinin Neftin nəqli və emalı şöbəsinin baş eksperti Sultanbek Saduaxasov deyib. O əlavə edib: "Azərbaycan bu həcmin 2,2 milyon tona çatdırılmasında maraqlı olduğunu bildirib. Biz bu istiqamətdə hər iki tərəfin uyğun dövlət qurumları ilə işləyirik".

Hazırda Azərbaycan ilə Qazaxıstan arasında 4 ay davam edəcək razılaşmanın sınaq prosesi gedir. Ekspert qrupu Qazaxıstandan tədarük olunan "qara qızıl"ın həcmini tədricən artırmaq və bazarın bunu necə qəbul etdiyini müşahidə etmək niyyətindədir.

"Kaşaqan" MMC baş direktorunun kommersiya məsələləri üzrə müavini Kuanış Keskinbayev bildirib ki, Qazaxıstan neftinin tərkibində kükürd və merkaptan var. O qeyd edib: "Azərbaycan neftinin tərkibində, ümumiyyətlə, merkaptan yoxdur, kükürd isə çox azdır. Qazaxıstandan gətirilən neft Azərbaycan məhsullarının keyfiyyətinə və qiymətinə mənfi təsir göstərəcəkmi? Bunun üçün sınaq müddəti müəyyən edilib. Bundan sonra biz müqaviləyə uyğun olaraq Qazaxıstan neftinin həcmini mərhələli şəkildə artıracağıq".

Onun sözlərinə görə, sınaq müddəti gözlənildiyi kimi keçərsə, 2025-ci ildə bu marşrutla neft ixracının həcmi 1,75 milyon tona çatdırıla bilər. Gələn il isə həcmin 2 milyon tona çatdırılması nəzərdə tutulur.

# REGİONLAR

## ADAU-da Heydər Əliyevin 102 illiyinə həsr olunmuş konfrans keçirilmişdir

**Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən "Aqrar, ekologiya və su təsərrüfatı sahələrinin inkişafında Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilmişdir.**

Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarxın nümayişi ilə başlayan konfransı giriş sözü ilə Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov açmışdır. O, Ümummilli Liderin kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması, aqrar təhsilin inkişafı və bu sahənin elmi əsaslarla qurulması istiqamətində göstərdiyi xidmətlərdən danışmışdır.

Sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin müşaviri, Aqrar, Ekologiya və Su təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Respublika Birliyinin sədri Məmməd Həsənov uzaqgörən siyasətçi Heydər Əliyevin iradəsi sayəsində aqrar sahənin prioritet istiqamət kimi formalaşdığını, fermerlərin sosial müdafiəsinin gücləndirilməsi üçün kompleks tədbirlər görüldüyünü qeyd etmişdir.



Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev isə Ulu Öndərin elmi və tədqiqat institutlarına verdiyi diqqət sayəsində aqrar elmin inkişafı üçün münbit zəmin yarandığını bildirmiş və bu sahəyə ixtisaslı elmi kadrların cəlb edildiyini vurğulamışdır.

Aqrar, Ekologiya və Su təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Respublika Birliyinin sədr müavini Fuad Məmmədov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin idarə heyəti sədrinin müşaviri Aydın Abbasov və 10 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi Azər Quliyev də çıxış edərək Heydər Əliyevin rəhbərliyi ilə su ehtiyatlarının səmərəli idarə olunması, təbii sərvətlərin qorunması və sosial ədalətin təmin edilməsi istiqamətində əsaslı addımlar atıldığını bildirmişlər.

Konfransda təhsil göstəricilərinə görə fərqlənən ADAU-nun 20 tələbəsinə Aqrar, Ekologiya və Su təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Respublika Birliyi tərəfindən birdəfəlik mükafatlar təqdim edilmişdir.

Konfansdan sonra qonaqlar universitetin maddi-texniki bazası ilə tanış olmuşlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Yevlaxdan olan şəhid ailələrinin üzvləri Naftalanda müalicə alırlar

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun Vətən müharibəsində qazandığı Zəfər xalqımızın tarixində parlaq səhifə, milli qürur və iftixar mənbəyinə çevrilmişdir. Bu qüruru bizə yaşadan şəhidlərin ailələrinə dövlət və ictimaiyyət tərəfindən daim yüksək diqqət və qayğı göstərilir.**

Naftalan şəhər və Yevlax rayon icra hakimiyyətlərinin birgə təşəbbüsü ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində sosial layihənin həyata keçirilməsinə başlanılmışdır. Layihə çərçivəsində Yevlax rayonundan bir qrup şəhid ailəsi Naftalan şəhərində yerləşən "Sun City Naftalan" Müalicə və Sağlamlıq Mərkəzində müalicə alırlar.

Qeyd edək ki, sosial layihənin icrasına 2022-ci ilin iyul ayında start verilmişdir və ötən müddət ərzində Abşeron, Nizami, Yevlax və Tərtər rayonlarının şəhid ailələri və qazilər Naftalandakı sağlamlıq mərkəzlərində müalicə almış, istirahət etmişlər.



*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Liman şəhərinin Baş planının yekun layihəsinin ictimai müzakirəsi olub

**Lənkəranda Liman şəhərinin Baş planının yekun layihəsinin ictimai müzakirəsi keçirilib. Lənkəran ŞİH başçısı Taleh Qaraşov bildirib ki, yeni baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə hazırlanıb, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırılıb və planın işlənməsi zamanı müasir şəhərsalma ənənələri tam şəkildə öz əksini tapıb.**




Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşı Şahnaz Bədəlova bildirib ki, Limanın Baş planı müasir dövrün tələbləri nəzərə alınmaqla hazırlanıb. Onun sözlərinə görə, layihə 22 dövlət qurumu ilə razılaşdırılıb və hazırda Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilmə mərhələsindədir. Komitə yetkilisi onu da bildirib ki, baş plan dövlət büdcəsi hesabına içraçı təşkilat "Arxin-M LTD" MMC tərəfindən Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə uyğun hazırlanıb.

İcraçı təşkilat "Arxin-M LTD" MMC-nin nümayəndəsi Rafiq Mirzəyev baş plan hazırlanarkən ərazidə ilkin məlumatların toplanıb təhlil edildiyini, rayon və şəhər ictimaiyyəti ilə görüşlər və müzakirələr keçirildiyini, şəhərin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini və prioritetlərini müəyyən edən proqnozlaşdırılma sənədlərindən istifadə olunduğunu vurğulayıb. O, baş plana əsasən, şəhərsalmanın inkişafının layihənin başlanğıc (istinad) ili - 01.01.2022-ci il, birinci növbə - 2029-cu il və hesabat dövrü - 2042-ci il olaraq 3 mərhələyə ayrıldığını qeyd edib. R.Mirzəyevin sözlərinə görə, hesabat müddətinin sonuna qədər Liman şəhərinin əhalisinin artaraq 14000 nəfərə çatması gözlənilir. Əhalinin artım səviyyəsinə əsasən, rahat həyat şəraitinin təmin edilməsi üçün müasir yaşayış komplekslərinin inşası, mövcud şəhər infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur. Həmçinin iqtisadi imkanların genişləndirilməsi və sakinlərin məşğulluğunun təmin edilməsi üçün sənaye ərazilərinin yenidən qurulması, ictimai-işgüzar zonaların yaradılması planlaşdırılır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Hələlik işlər pis getmir

**Pambıqçılığın inkişafı istiqamətində dövlət dəstəyi tədbirləri bu sahə ilə məşğul olan fermerlərin gəlirlərinin artmasına və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərir.**

Salyan rayonunda da aqrar bölmənin ənənəvi sahələrindən olan pambıqçılığın inkişafı üçün tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri də rayon rəhbərliyinin tez-tez pambıq əkini sahələrinə baş çəkməsi, fermerlərlə görüşməsi və onların problemləri ilə maraqlanıb tədbir görməsidir. Bu cür görüşlər zamanı sahələrə aqrotexniki qulluq tədbirləri, yeni əkin üsullarının məhsuldarlığa müsbət təsiri, düzgün toxum seçimi, suvarma məsələləri və digər mövzularda fikir mübadiləsi də aparılır. Söz düşmüşkən qeyd edək ki, rayon üzrə səpin aparılan təsərrüfatlarda sahələr vaxtında şumlanıb, arata qoyulub, malalanaraq hazır vəziyyətə gətirilib. Pambıq istehsalçıları lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin ediliblər. İndi qalır yüksək məhsuldarlıq əldə etmək üçün əkin sahələrində aqrotexniki becərmə qaydalarına ardıcıl və düzgün əməl olunması.

## Təlim proqramının mövzusu uşaqlarla bağlı idi

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Neftçalada "Uşaqdan-uşağa" layihəsi üzrə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Uşaq hüquqları: İnkişaf üçün birləşək!" və "İnternetdən təhlükəsiz istifadə edək!" mövzularında təlim proqramları təşkil edilib.**



Uşaq Səfirlər Məclisinin Şirvan şəhəri, Neftçala, Hacıqabul, Salyan, Biləsuvar, Cəbrayıl rayonları üzrə regional nümayəndələri və fəallarının iştirak etdikləri tədbirdə çıxış edən dövlət komitəsinin şöbə müdiri Cəmilə Bağırova uşaqdan-uşağa prinsipi ilə keçirilən bu cür təlimlərin faydalı və məhsuldar nəticələr verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, günümüzün aktual məsələlərinin uşaqlara aşılanması, onların bu proseslərdə iştirakının təmin edilməsi diqqət verilməli vacib məqamlardandır və uşaqların maraqlarına toxunan məsələlərdə onların iştiraklarının təmini sahəsində fəaliyyətin gücləndirilməsi üçün mütəmadi tədbirlər həyata keçirilir.

Çıxış edən Şirvan-Salyan Regional Təhsil İdarəsinin sektor müdiri Mahir Zahidov isə bu kimi layihələrə qeyri-hökumət təşkilatlarının da cəlb edilməsini dəstəklədiyini, belə maarifləndirici layihələrin uşaqların inkişafında böyük rolu olduğunu qeyd edib. Sonra "Azərbaycan Uşaqlarının İnkişaf Platforması" İctimai Birliyinin sədri Müslüm Məmmədov çıxış edərək təşkilat haqqında iştirakçılara məlumat verib. Uşaqların cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafına töhfə verməsini təmin etməyi əsas məqsədi kimi müəyyən edən platformanın günün tələblərinə cavab verən və uşaqların fərdi inkişafına töhfə olan müasir mühiti formalaşdıracağını bildirib.

Uşaq Səfirlər Məclisinin üzvü Ömər Eyvazlı və Dəniz Hüseynli internetdən istifadə zamanı təhlükəsizlik qaydalarına əməl etməklə fərdi məlumatların qorunması qaydalarını iştirakçıların diqqətinə çatdırıblar. Məclis üzvləri Meliha Qurbanova və Murad Qasımov isə uşaqların hüquqları və onların müdafiəsi ilə bağlı mexanizmləri əhatə edən təlim keçiblər. Onlar uşaqların inkişafında rol oynayan ailə və cəmiyyət amillərindən söz açaraq bildiriblər ki, uşaqlar öz üzərində işləməyi və təsiretmə bacarıqlarını formalaşdırmalıdırlar.

İnteraktiv şəkildə davam edən təlimdə iştirakçılar komandalar quraraq uşaq inkişafı və internet təhlükəsizliyinə dair öyrəndikləri bilikləri intellektual oyun vasitəsilə nümayiş etdiriblər. Qalib gələn komandaya simvolik hədiyyələr təqdim olunub. Yekunda uşaqlar fəal iştiraklarına görə sertifikatla təltif ediliblər.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Qusar Dövlət Ləzgi Dram Teatrında anşlaqdır

### Teatrın kollektivi üçün ən yüksək mükafat tamaşaçı alqışıdır

**Qusar Dövlət Ləzgi Dram Teatrı onilliklərdir şimal bölgəmizin mədəniyyət pərəstişkarlarına, teatrsevərlərinə şərəflə xidmət edir. Ötən dövr ərzində teatr rayonun mədəni həyatının salnaməçisinə çevrilib, zəngin sənət ənənələri yaradıb.**











Teatr rəsmən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyul 1992-ci il tarixli qərarı, mədəniyyət nazirinin 26 iyul 1992-ci il tarixli əmri ilə yaradılıb. Lakin bu mədəniyyət ocağının tarixi daha əvvəllərə gedib çıxır. 1963-cü ildə əslən həmin bölgədən olan Əkbər Fərzəliyev Qusarda Ləzgi Xalq Teatrının təşkili üçün Mədəniyyət Nazirliyi tərəfindən rayona göndərilir. Bu həmin Əkbər Fərzəliyev idi ki,1955-ci ildə "Bəxtiyar" filmində ilk dəfə kütləvi epozodlarda iştirak etmişdi. Sonra o, C.Cabbarlı adına Azərbaycan Dövlət Kinostudiyasında aktyor işləmiş, Həsən Seyidbəylinin ssenarisi əsasında quruluşçu rejissor Lətif Səfərovun çəkdiyi "Qızmar günəş altında" filmində çəkilmişdi.

1965-1970-ci illər Ləzgi Xalq Teatrının inkişafında parlaq dövr olmuşdur. Teatrda Qəni Qəniyev, Əskər Əmirəhmədov, Nora Əlimova, İmaməli İlyasov, Qiyafəddin Hacıyev, Pəri Həbibullayeva, Rəhimxan Qaraxanov, Hacəli Əhmədov, Həsən Əhmədov, Bünyam Zalov, Qəzənfər Həmidov, Fətulla Rəhimxanov, Firuddin Abdulkərimov, Balakərim Səfərov kimi sənət adamları yetişərək peşəkar sənət məbədinin təşəkkülündə əhəmiyyətli rol oynamışlar. Təkcə o faktı demək kifayətdir ki, 1992-ci ildən 2017-ci ilədək bu teatrda 150-dən artıq əsər səhnələşdirilmişdir. 25 ildə bu sayda əsərin yüksək peşəkarlıqla tamaşaçılara çatdırılması teatrın böyük potensialından və yaradıcılıq axtarışlarından xəbər verir. Kollektiv Azərbaycan klassiklərinin, eləcə də müasir yazıçı və dramaturqların yaradıcılığına müraciət edərək səhnələşdirdikləri əsərlərlə çoxlu tamaşaçı rəğbətini qazanmışdır. Teatr yerli dramaturqlardan Asef Mehmanın, Mirzəli Rüstəmovun, Şafiddin Gereyxanovun və başqa yazarların əsərlərindən də yararlanaraq qusarlıların maraqla qarşıladıqları tamaşalar hazırlamışdır.

Hazırda Qusar Dövlət Ləzgi Dram Teatrı yeni inkişaf dövrünü yaşayır. Burada səhnələşdirilən hər bir tamaşa zəngin bədii tərtibatı, dolğun rejissor işi, usta aktyor oyunu ilə mədəni hadisəyə çevrilir. Bu uğurda teatrın quruluşçu rejissoru Bağır Əhmədovun, quruluşçu rəssam Marina Mahmudovanın xüsusi xidmətləri var.

Yarandığı gündən bəri bu teatrın səhnəsində bir çox sənətkar yetişmişdir. Onlar Azərbaycan mədəniyyətində özünəməxsus yer tutmuşlar. Qusar teatrsevərləri sənətinin vurğunu olan Yalçın Qaraxanov, Lalə Qurbanova, Rəhilə Hacıbəyova, Rübabə Qasımova, Kəmalə Səfərova, Tacir Şahbazov, Yuri Kərimov, Tofiq Mustafayev, Elnur Hacıyev, Həsrət Nəsrullayev, Sədaqət Əlimuradova, Şəküfə Mirzəğayeva, Diana Cəfərova, Arzu Məmmədrzayeva, Emma Xeyirbəyova və başqalarının adlarını iftixarla və minnətdarlıqla çəkirlər. Məhz bu cür sənətkarların sayəsində Qusar Dövlət Ləzgi Dram Teatrının öz dəst-xəti yaranıb.

33 yaşlı teatr Azərbaycanın teatr tarixinə də öz töhfəsini vermişdir. Belə ki, kollektiv respublikada keçirilən müxtəlif teatr fesivallarında və müsabiqələrində yaxından iştirak etmişdir. Dağıstanın Qasımkənd rayonunda dəfələrlə rəngarəng proqramlarla çıxış edən teatrı qonşu ölkədə də yaxşı tanıyırlar. Qusarlı sənətkarlar Moskvada çıxış edərək bir əyalət teatrının nəyə qadir olduğunu əyani göstərmişlər.

Bu istedadlı kollektivə 2011-ci ildən Əməkdar mədəniyyət işçisi Faiq Qardaşov rəhbərlik edir. Teatrın quruluşçu rəssamı Marina Mahmudova, quruluşçu rejissoru Fəxri mədəniyyət işçisi Bağır Əhmədovdur. B.Əhmədov 2023-cü ildə Prezident mükafatına layiq görülmüşdür. Aktyor, Fəxri mədəniyyət işçisi Həsrət Nəsrullayev isə Prezident mükafatını 2022-ci ildə almışdır. Keçən il aktrisa Lalə Qurbanovaya da bu ali mükafatı almaq nəsib olmuşdur. Onun həmkarı Yalçın Qaraxanov isə Fəxri mədəniyyət işçisi adı ilə mükafatlandırılmışdır. Amma xidmətləri dövlət tərəfindən bu cür yüksək qiymətləndirilən teatr kollektivi hesab edir ki, onların işinə verilən ən yüksək mükafat tamaşaçı alqışlarıdır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Masallının yollarının təmirinə yerli xeyriyyəçilər də qoşulublar

**Masallı rayonunda əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün bir sıra küçə və kənddaxili yollarda təmir-bərpa işləri aparılır.**

47 saylı Yol İstismarı MMC tərəfindən Lürən ərazisində 1,5 km məsafədə mərkəzi yola asfalt örtüyü döşənmiş, Lürən-Musaküçə yolu və Binə Xocavar-Çaxırlı yolu cari təmir olunmuşdur. Musaküçə ərazisində isə xeyriyyəçilər tərəfindən 250 metr kənddaxili yola qreyder verilmişdir. Şıxlar kəndində də yola Yeddioymaq bələdiyyəsi və xeyriyyəçilər tərəfindən çınqıl tökülərək hamarlanmışdır. Həmçinin Boradigah ərazisində bələdiyyə sarayına, eləcə də Köhnə Alvadı kəndində ərazi nümayəndəliyi və bələdiyyənin təşəbbüsü, xeyriyyəçilərin maddi dəstəyi ilə məscidə gedən yollara çınqıl tökülmüş, Yeyənkənd ərazisində kənd sakinləri tərəfindən qəbiristanlığa gedən 400 metr yol qreyderlə hamarlanmışdır. Köhnə Alvadı ərazisində paybəlli torpaq sahələrinə gedən yol da xeyriyyəçilər tərəfindən təmir olunmuşdur. Bunlardan əlavə, yerli xeyriyyəçilər qəbiristanlığa və Bədəlan ərazisinin Çayqıraq kəndində körpüyə gedən yollara çınqıl tökərək hamarlamışlar. Bədəlan kənd tam orta məktəbinə gedən yol isə ərazi nümayəndəliyi tərəfindən təmir olunmuşdur. Eyni zamanda Təzə Alvadı və Türkoba ərazilərində işıqforlar, yol nişanları qoyulmuş və nişanlanma xətləri çəkilmişdir.

*"Azərbaycan"*



# Məktublar: problemlər, rəylər, təkliflər...



● MƏMNUNLUQ

## Əkin sahələrim suvarma suyu ilə təmin edildi



**Son illər ölkəmizin hər yerində olduğu kimi, Goranboyda da əhalinin su ilə təminatı sahəsində çoxsaylı tədbirlər həyata keçirilir. Xüsusilə əkin sahələrinin suvarma suyu ilə vaxtında təmin olunması və əkinçilərin daha çox məhsul istehsalına nail olması üçün bütün imkanlardan istifadə edilir.**

Yaşadığım Borsunlu rayonunda su ilə az təmin olunan kəndlərdəndir. Əhalinin isə ən çox dolanışığı əkinçilikdən çıxır. Odur ki, su qıtlığı üzündən bir çox çətinliklərimiz olur. Lakin rayon rəhbərliyi çalışır ki, bu çətinliyi aradan qaldırsın. Elə bu günlər pay torpaqlarımın suvarılmasında yaranan çətinlik qısa vaxtda aradan qaldırıldı. Bir şəhid atası kimi mənə qayğı göstərilərək əkin sahəmə yeni su xətti çəkildi. İndi torpaqlarımda məhsul yetişdirmək üçün bütün imkanlarım var.

Hörmətli redaksiya! Xahiş edirəm şəhid ailələrinə diqqət və qayğı göstərən rayon rəhbərliyinə minnətdarlığımı çatdırasınız.

*Məhəmməd QURBANOV,*
*Goranboy rayonunun Borsunlu kənd sakini, şəhid atası*

● MİNNƏTDARLIQ

## İndi yağışlı havada da çətinlik çəkmirik



**Xızı rayonunun Sitalçay kəndindəki Nicat Allahverdiyev adına tam orta məktəbin məzunlarının hər yandan xoş sorağı gəlir. Kəndin mərkəzində yerləşən məktəbimizdə onlarla müəllim şagirdlərin dərin bilik qazanması və layiqli vətəndaş kimi yetişməsində var güclərini sərf edir.**

Lakin bir problemimiz vardı. Bu da məktəbə gedən yolun bərbad halda olması idi. Yağışlı havalarda yollar daha bərbad olurdu. Məktəbə gəlib-getmək daha da çətinləşirdi.

Kollektivimiz vəziyyətdən çıxış yolunu əlaqədar təşkilatlara müraciət etməkdə gördü. Sağ olsunlar, səsimizə səs verdilər. Qısa zamanda yolda təmir işlərinə başlanıldı, yola asfalt döşəndi. İndi yağış yağanda da şagirdlərimiz rahat şəkildə məktəbə gedib-gəlirlər. Müəllim və məktəblilərimiz onlara bu rahatlığı bəxş edənlərə minnətdardırlar.

*Xəyal QOCAYEV,*
*Nicat Allahverdiyev adına Sitalçay tam orta məktəbin riyaziyyat müəllimi*

● NAİLİYYƏT

## Lənkəranlı məktəbli bir il ABŞ-də təhsil alacaq

**Qönçə İlkin qızı Məhərrəmovanın adı indi cənub mirvarisi Lənkəranda böyük hörmətlə çəkilir. Bu da səbəbsiz deyil.**



Lənkəran şəhər 7 saylı tam orta məktəbinin 11-ci sinif şagirdi Qönçə FLEX (Gələcək Liderlərin Mübadilə Proqramı) mübadilə proqramını qazanıb. İstedadlı, mehriban, doğma Azərbaycanı ürəkdən sevən, yaxşılardan görüb-götürməklə həyatı dərk edən vətənpərvər qız 12-ci sinfi Amerika Birləşmiş Ştatlarında (ABŞ) oxuyacaq. Söz verib ki, xalqımıza məxsus mənəvi keyfiyyətlərini özündə yaşatmaqla ölkəmizi layiqincə təmsil edəcək, doğma Lənkərana başucalığı olacaq.

Qönçənin qazandığı FLEX ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşən tam təqaüdlü mübadilə proqramıdır. Proqram çərçivəsində seçilmiş istedadlı, yüksək dünyagörüşünə malik məktəblilər bir il ərzində ABŞ-də yaşayır, yerli məktəblərdə təhsil alır və mədəni mübadilədə iştirak edirlər. Bu müddət ərzində FLEX gənclərə liderlik bacarıqlarını inkişaf etdirmək, yeni təcrübələr qazanmaq və Amerika mədəniyyətini yaxından öyrənmək imkanı verir.

*Zəfər ORUCOĞLU*

● ƏNƏNƏ

## Qəbiristanlıqda abadlıq və təmizlik işləri görülüb

**Qazaxda şəhər və kənd qəbiristanlıqlarında iməciliklərin keçirilməsi artıq ənənəyə çevrilib. Rayonda istər bayram ərəfələrində, istərsə də adi günlərdə mütəmadi olaraq bütün qəbiristanlıqlarda təmizlik işləri aparılır.**

Hər il olduğu kimi, bu il də Qazax rayonunun sakinləri doğma və əzizlərinin uyuduqları məzarlıqlarda səliqə-sahman yaradıblar.

Söz yox ki, qəbiristanlıqlar hər kəsin tez-tez üz tutduğu müqəddəs məkanlardandır. Odur ki, hər birimiz bu xeyirxah işdə nümunə olmalı, əzizlərimizin uyuduğu bu məkanda aparılan abadlıq və təmizlik işlərində fəal iştirak etməliyik.

*Nüsrət ADIGÖZƏLOV,*
*Qazax şəhər sakini*

● YOLSUZLUQ

## Küçəmizin təmir olunmasını səbirsizliklə gözləyirik

**Yollar Bakının ümumi inkişaf səviyyəsinin göstəricisidir. Bu baxımdan şəhərin mərkəzi küçə və prospektləri göz oxşayır, müasir standartlara cavab verir.**

Amma şəhərimizin bütün yolları haqqında bunu deyə bilmirik. Xüsusilə Bakıətrafı qəsəbə və kənd yollarında tez-tez rast gəlinən problemlərdən biri asfalt örtüyünün sıradan çıxmasıdır. Yolların dağılması nəqliyyat vasitələri ilə yanaşı, piyadalar üçün də narahatlıq yaradır. Sürücülər və piyadalar üçün təhlükə törədən bu cür hallar avtomobillərin texniki vəziyyətinə mənfi təsir edir, eyni zamanda qəza riskini də artırır.



Yaşadığımız Biləcəri qəsəbəsi, Füzuli küçəsinin də yolu bərbad vəziyyətdədir. Çala-çuxurlar nəinki piyadaların, hətta avtomobillərin gediş-gəlişinə maneə yaradır. Yağışlı günlərdə isə küçə ilə hərəkət etmək ümumiyyətlə mümkün olmur. Uşaqlar məktəbə getməyə çətinlik çəkir, üst-başları palçığa batır. Yay günlərində isə toz-torpaq göyə qalxır. Bəzən taksi sürücüləri, təcili yardım maşınları da bu yola girməkdən imtina edirlər. Sakinlər aidiyyəti qurumlara müraciət etsələr də, müsbət cavab ala bilmirlər, işə məsul olanlar küçənin acınacaqlı vəziyyətini görməzdən gəlirlər.

Sizin qəzetin vasitəsilə bir daha küçəmizdə yaranmış yol probleminin aradan qaldırılmasını əlaqədar təşkilatlardan xahiş və tələb edirik. Ümid edirik ki, yaxın zamanda küçəmizin dağılmış asfalt örtüyü təmir olunacaq. Keyfiyyətli yollar həm vətəndaşların rahatlığı, həm də şəhərin ümumi görünüşü üçün çox vacibdir.

*Vüqar HACIYEV, Mülayim HACIYEVA,*
*Vüsalə KƏRİMOVA, Zaur HACIYEV,*
*Biləcəri qəsəbəsi, Füzuli küçəsinin sakinləri*

● FOTO





*Baharın gəlişi ilə paytaxtın hər küçəsi, hər daşı sanki dirçəlib. Gül-çiçəyə bürünmüş parklar, çiçək açan ağaclar sakinlərin, paytaxta gələn qonaqların üzünə xoş təbəssüm bəxş edir. Bakı küləyi Xəzərin qoxusunu çiçəklərlə qarışdırıb şəhərə yayır, insanlar baharın ılıq nəfəsindən zövq alırlar. İstirahət məkanlarında əkilmiş rəngbərəng zanbaqlar, müxtəlif çiçəklər, ekzotik bitkilər göz oxşayır. Şəhərin mərkəzində, Dənizkənarı Bulvar ərazisində əkilmiş güllər paytaxta əlavə gözəllik, təravət bəxş edir.*

***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***





● PROBLEM

## Biz deməkdən yorulduq, MTK söz verməkdən yorulmadı

**Hamıya məlumdur ki, çoxmərtəbəli binalarda liftlər olmadan yaşamaq çətindir. "Akkord" şirkətinin Yeni Yasamal yaşayış massivi Əsəd Əhmədov 18 ünvanında inşa etdiyi "Sever" adlanan binada liftlərin böyük əksəriyyətinin artıq sıradan çıxması sakinlərdə ciddi narazılıq yaradıb.**

Uzun müddətdir ki, binanın yük lifti işləmir. Halbuki hər mənzildən kommunaldan əlavə son 1-2 ayda 50, 20 və 10 manat liftin təmiri üçün pul yığılıb. Yığılan vəsaitin əvəzində iki sərnişin lifti təmir olunub. Yük liftinin təmiri üçün isə yenə pul toplanmağa başlanılıb.

Çoxmənzilli binada sakinlərdən hər ay kommunal ödənişlər alınır və bu vəsaitin bir hissəsi cari təmir işləri üçün nəzərdə tutulur. Onların sırasında liftlərin də təmiri var. Əslində isə olan vəziyyət tam fərqlidir. Yaşadığımız bina istifadəyə veriləndən bəri binanın fasadında heç bir təmir işləri görülmədiyindən küləkli və yağışlı havalarda suvaqlar qopub tökülür. Bu da sakinləri, yoldan keçənləri təhlükə ilə üz-üzə qoyur. Liftlərin təmiri isə mənzil sahiblərindən alınan əlavə vəsaitlər hesabına aparılır ki, bu da sakinlər arasında haqlı narazılıq yaradır.



Buna görə də bina təsərrüfatını idarə edən tərəfin bu xərcləri əvvəlcədən nəzərə alması vacibdir. Məntiqlə belə də olmalıdır. Təəssüf ki, bəzən məntiqlə qanunlar, yazılmış qaydalar tərs mütənasib olur. Necə ki, bizim liftimiz bu tərs mütənasibin fəsadını yaşayır.

MTK qayda-qanunlardakı boşluqdan istifadə edərək ciblərini doldurur, aidiyyəti qurumlar isə məsələyə biganə yanaşırlar. Biz deməkdən, yazmaqdan yorulduq, "Akkord" eşitməkdən yorulmadı. Ona görə də son ümid olaraq sizin qəzetə müraciət etmək qərarına gəldik. Xahiş edirik səsimizi əlaqədar təşkilatlara çatdırasınız.

*Rahib QULİYEV,*
*Əsəd Əhmədov küçəsi, 18 saylı binanın sakini*

● TARİXİ ABİDƏLƏRİMİZ

## Çıraqqala tariximizin silinməz səhifəsidir

**Ölkəmizin mədəni irs siyahısında Çıraqqala abidəsinin də özünəməxsus yeri var. Sasanilər imperiyasının Azərbaycanda hökmranlığı dövrünə aid olan bu abidənin təməli III-IV, bəzi mənbələrə görə isə V-VI əsrlərdə qoyulub.**

Dəniz səviyyəsindən 1232 metr yüksəklikdə yerləşən Çıraqqala mərkəzi ilə birlikdə 17 bürcdən ibarət olub və düzbucaqlı forması ilə diqqəti cəlb edib. Lakin indi həmin bürclərin ancaq üçü salamat qalıb. Bu tikili həm də qala rolunu oynayıb. Əslində, təqribən Xəzər dənizindən Baba dağının ətəklərinə qədər uzanan səddin üç böyük qalasından biri olub. Uzunluğu 120 kilometr olan səddin divarlarının qalınlığı bəzi yerlərdə 8 metrə çatır. Baba dağına qədər sədd divarlarının hündürlüyü 5-7, bəzən də 7-11, eni isə 30-35 metrə qədərdir.

Sovet hakimiyyəti dövründə yüksək aşınmaya məruz qalan abidənin yalnız yerli əhalinin və mədəni irs mühafizəçilərinin səyləri sayəsində müəyyən hissəsi qorunub və günümüzə qədər gəlib çatıb.

Şübhəsiz ki, tarixi öz yaddaşında yaşadan hər bir abidə müvafiq mədəni irs qanunlarına və konvensiyalara uyğun qorunmalıdır. Bu baxımdan Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı sərəncam xüsusi əhəmiyyət kəsb edir. Məhz həmin sərəncama əsasən, Çıraqqala abidəsinin qorunması üçün dövlət tərəfindən bərpa-konservasiya işləri aparılıb, burada qədim dövrlərə aid maddi mədəniyyət nümunələri aşkar edilib. Bərpadan sonra görüləcək işlər turizm baxımından abidənin səmərəli istifadəsinə və tanıdılmasına kömək edəcək.



Bu gün abidənin tarixi əhəmiyyətini və vəziyyətini dərindən dərk etmək üçün daha ətraflı araşdırmalar aparılmalıdır. Hazırda tarixi sənədlər, xəritələr və arxeoloji məlumatlar toplanılmaqla Gil-gilçay səddi üzərində yerləşən abidələrin oxşarlığını müəyyən etmək üçün çalışmalar var. Ümid edirik ki, arxeoloqlarımızın əməyi nəticəsində gələcəkdə Çıraqqala abidəsinin mövcud vəziyyətinin, struktur xüsusiyyətlərinin, materiallarının və dekorativ elementlərinin dəqiq sənədləşdirilməsi aparılacaq. Müasir dövrdə fotoşəkillər, rəsmlər və 3D modellərdən istifadə edilməklə abidənin ilkin görünüşünün müəyyən edilməsi ümdə arzularımızdandır. Bu metodologiyalar abidənin davamlı və səmərəli şəkildə qorunmasına kömək edə bilər.

"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun əməkdaşları olaraq biz də qoruğun ərazisinə daxil olan abidələrlə yanaşı, digər tarixi abidələrimizi də təbliğ və tədqiq edir, onların qorunub gələcək nəsillərə çatdırılması üçün əlimizdən gələni əsirgəmirik.

*Günel PİRQULUYEVA,*
*"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru*





# Mədəniyyət





● Mədəniyyət paytaxtı



# Şuşada Azərbaycan ruhu

## Əzəli sakinlərinə qovuşan, tarixi şöhrətini özünə qaytaran Zəfər qalamızın mədəniyyəti də dirçəlir

**8 noyabr 2020-ci ildə 28 illik iztirabdan, ayrılıqdan, həsrətdən sonra azadlığına qovuşdurulan vətən qibləmiz Şuşanın başındakı duman, çən-çiskin açıldı, Qarabağın büllur sarayının üzərində yenidən Günəş parladı və zərrin şəfəqləri ilə bütün Azərbaycana nur saçmağa başladı. Onilliklərin ardından bu qədim yurdumuzda qələbə, bayram tonqalları çatıldı, düşmənin viranə qoyduğu məscidlərimizdə yenidən namaz qılındı, azan sədaları ucaldı, qurudulan bulaqlar çağladı, Cıdır düzündə düşmən tapdağı altında qalaraq solan əfsanəvi xarıbülbüllər açıldı.**

Azərbaycan xalqının qəlbində özünəməxsus yeri olan Şuşa şəhərinin Prezident İlham Əliyev tərəfindən mədəniyyət paytaxtımız elan edilməsi isə bu diyarın ənənəvi mədəniyyətinin dirçəldilməsi istiqamətində atılan müstəsna addım oldu.

2021-ci il mayın 7-də qəbul edilən bu qərar Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə imzalandı.

### Qədim şəhərin tərəqqisində Ulu Öndər imzası

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezidentin sərəncamında vurğulanır ki, Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur: "1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır".

Qədim mədəniyyət beşiyimiz Şuşaya hər zaman zəngin tarixi abidə, eyni zamanda Azərbaycan xalqının qəhrəmanlıq qalası kimi baxan və bunu hər dəfə dilə gətirən Ulu Öndər Heydər Əliyev şəhərin inkişafı, tərəqqisi, burada azərbaycançılıq məfkurəsinin rişələnməsi üçün xeyli işlər həyata keçirib.

Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə 1970-ci illərdə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə xüsusi qərarlar qəbul edilmişdi. Qərarlara uyğun olaraq, Şuşanın keçmişdə tikilmiş binaları, tarixi abidələri, məscidləri bərpa edilmiş, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana, ayrı-ayrı inzibati binalar tikilmişdi. Həmçinin Şuşa mötəbər statusa qaldırılmış və ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi.



Sonradan Ulu Öndər xatirələrində qeyd edirdi ki, o, hələ 1967-ci ildə Şuşada olarkən görkəmli şair Vaqifin məzarını ziyarət etmək istəmiş, lakin məzarı tapa bilməmişdi. Ulu Öndərin göstərişi ilə məzar tapılmış və Heydər Əliyev bərbad halda olan dağılmış məzarı ziyarət etmişdi. Buna görə də 1980-1981-ci ildə Ulu Öndər Heydər Əliyevin göstərişi ilə Vaqifin məzarı üstündə böyük şairin şanına layiq möhtəşəm abidə, türbə ucaldılmışdı. 1977-ci ildə inşasına başlanan məqbərə Şuşa şəhərinin məşhur yerində - Cıdır düzünə yaxın bir ərazidə tikilmişdir. Vaqifin möhtəşəm abidəsinin təntənəli açılışı isə 14 yanvar 1982-ci ildə Heydər Əliyevin iştirakı ilə baş tutmuşdur...

1982-ci ildə Ümummilli Lider Heydər Əliyev Şuşaya səfəri zamanı həm də orada Vaqifin məqbərəsi ilə yanaşı, Poeziya Evinin də açılışında və Vaqif Poeziya Günlərində iştirak etmiş və həmin vaxt Vaqif Poeziya Günlərinin keçirilməsi barədə göstəriş vermişdi. Bununla da hər il avqust ayında Vaqif Poeziya Günlərinin keçirilməsi ənənəvi hal almışdı.

1982-ci ilin avqustunda da Şuşaya gələn Ulu Öndər Heydər Əliyevin iştirakı ilə şair Xurşidbanu Natəvanın abidəsinin açılışı həyata keçirilmişdi.

Bütün bu tarixi faktlardan da göründüyü kimi, Şuşa Heydər Əliyev üçün adi şəhər yox, müstəsna əhəmiyyətə malik tarixi, mədəni, mənəvi ruhu azərbaycançılığa köklənmiş müqəddəs yer idi.

### Şuşada Zəfər dirçəlişi

Şuşanın inkişafı və dirçəldilməsi Ulu Öndər Heydər Əliyevin layiqli siyasi davamçısı Prezident İlham Əliyevin də gündəliyində duran ən vacib məsələlərdəndir.

2021-ci il yanvarın 14-də mədəniyyət paytaxtımız Şuşaya yollanan Qarabağın xilaskarı İlham Əliyevin azadlığından sonra bu zəfər qalasına ilk səfərində Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün güllələnmiş heykəllərini də özü ilə bərabər gətirməsi həm də mədəniyyət paytaxtımızın mənəvi, mədəni ruhunun da tezliklə dirçəldiləcəyinin, əzəli sakinlərinin doğma yurdlarına qayıdışının rəmzi mesajı oldu...

Prezidentin yuxarıda sözügedən tarixi qərarından cəmi beş gün sonra - 12-13 may 2021-ci ildə Qarabağın mirvarisi Şuşada yenidən şöhrətli "Xarıbülbül" Musiqi Festivalı keçirildi. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra yenidən doğmalarına, qonaqlarına qucaq açdı. Festivalda çıxış edən Prezident İlham Əliyev vurğuladı ki, Şuşa Azərbaycan xalqının milli sərvətidir. Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir: "Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu".

Mədəniyyət paytaxtımızda yaşanan tarixi günlərdən biri də 2021-ci ildə müstəqil Azərbaycanın 15 İyun Qurtuluş Günündə - Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan - Türkiyə əlaqələrini ən yüksək zirvəyə daşıyaraq, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamaları oldu.

Şanlı zəfərdən sonra mədəniyyət paytaxtımızda Vaqif Poeziya Günlərinə uğurlu start verən qalib lider İlham Əliyev bir daha Şuşada milli ruhun dirçəlişinin təntənəsini dünyaya nümayiş etdirdi.

Zəfər qalamız Şuşanın azadlığının ilk ad günündə - 8 noyabr 2021-ci ildə də Müzəffər Ali Baş Komandan yolunu Şuşadan salmışdı. Qələbə günündə Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyev hərbçilər qarşısında çıxış edərək söylədi ki, hər il işğal dövründə düşmən bizim üçün müqəddəs olan Şuşada may ayında Şuşanın işğalını bayram edirdi. May ayında bu il, bax, burada, Cıdır düzündə "Xarıbülbül" festivalı keçirildi, muğam səsləndi. Avqust ayında Vaqif Poeziya Günləri keçirildi, Vaqifin və digər dahi şairlərimizin şeirləri səsləndi: "Artıq bu torpaqlarda, bu səmada bu torpaq üçün, bu səma üçün yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixdə belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir...

...Bax, budur bizim milli ruhumuz, budur Azərbaycan ruhu".

### Yaşadılan Heydər Əliyev irsi

2022-ci il isə Prezidentin sərəncamı ilə Azərbaycanda "Şuşa ili" elan edildi. Həmin sərəncamda vurğulanırdı ki, Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir: "Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır".

2020-ci il Şuşa qələbəsi təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının zəfər rəmzinə çevrildi. Bu baxımdan Qarabağın incisi Şuşanın 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" statusunu daşıması da təsadüfi olmadı.

Təməli yüz illər əvvəl Pənahəli xan tərəfindən qoyulan tarixi şəhərimiz və mədəniyyət paytaxtımız Şuşa azadlığından sonra beynəlxalq tədbirlərə, konfranslara mütəmadi evsahibliyi edən möhtəşəm ünvan statusu qazanıb.

Dövlətimiz tərəfindən işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Şuşada da geniş bərpa və quruculuq işləri aparılır. Qeyd edək ki, Şuşanın Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur.

Şuşada həyata keçirilən bərpa və quruculuq işlərində Heydər Əliyev Fondu birbaşa iştirak edir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığına əsasən, fond azad edilən torpaqlarımızda, o cümlədən Şuşada ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan məscidləri, dini, mədəni abidələri, eləcə də bu bölgəmizdə tarixən var olan mədəni ənənələrimizi bərpa edir.

Ötən müddətdə Vaqifin məqbərəsi yenidən qurulub, Yuxarı və Aşağı Gövhər ağa, Saatlı, Mamayı məscidləri bərpa olunub. Mehmandarov məscidi və Mehmandarovun evi bərpa edilib. Şirinsu hamamı əsaslı təmir edilib, Üzeyir bəy Hacıbəylinin ermənilər tərəfindən dağıdılmış evi yenidən qurulub.

Şuşada qısa zaman ərzində aparılan hərtərəfli quruculuq və bərpa işləri sayəsində artıq bu şəhərə də sözün əsl mənasında yenidən can verilib.

Zəfər qalamız, mədəniyyət paytaxtımız Şuşada həyata keçirilən istər tikinti-quruculuq, istərsə də mədəniyyət sahəsində bütün işlər onu göstərir ki, tarixi şəhərimizin şan-şöhrəti özünə qaytarılır.

Ölkəmizdə birinci dəfə hakimiyyətdə olduğu illərdə Qarabağın, Şuşanın dirçəldilməsi, milli ruhunun özünə qaytarılması üçün müstəsna işlər həyata keçirən Ulu Öndərin doğum günündə - 10 may 2024-cü ildə Şuşaya ilk köçən sakinlərlə görüşü zamanı Prezident İlham Əliyevin vurğuladığı kimi: "Mən 2020-ci il noyabrın 8-də xalqa müraciətimdə demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bax, bu gün biz dirçəldilən Şuşanı görürük".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

● İncəsənət xadimlərimiz

# Azərbaycanı dünyada tanıdan memar

## Görkəmli memar Mikayıl Hüseynovun anadan olmasından 120 il ötür




**O, səksən yeddi illik ömrünün əlli ildən çoxunu memarlıq elminin inkişafına həsr edib. Söhbət görkəmli memar, SSRİ Memarlıq Akademiyasının həqiqi üzvü, Böyük Britaniya və İrlandiya Kral Asiya Cəmiyyətinin fəxri üzvü, akademik Mikayıl Hüseynovdan (bəzi mənbələrdə Useynov) gedir. O, yarım əsrdən uzun sürən yaradıcılığı dövründə Azərbaycanın qədim ənənələrə malik olan milli memarlıq sənətini yeni axtarışları, özünəməxsus üslubu, dəst-xəti ilə zənginləşdirib.**

Mikayıl Hüseynov 1905-ci ilin aprelində Bakıda zadəgan ailəsində dünyaya göz açıb. Uşaqlıq çağlarından istedadı və öyrənmək marağı ilə yaşıdlarından fərqlənib. Sonralar ona şöhrət gətirəcək memarlıq sənətini də uşaqkən özü seçib. Müsahibələrinin birində kiçik yaşlarından kibrit dənələri, plastilin və ağac qırıntılarından müxtəlif "konstruksiyalı binalar" tikdiyini yada salıb. On yaşı tamam olanda qohumları ona Leonardo da Vinçi haqqında kitab və İtaliya şəhərlərinin mənzərələrini əks etdirən filmoskop hədiyyə ediblər. Görkəmli memar Mikayıl Hüseynov uzun illər o kitab və filmoskopdan ayrıla bilmədiyini, eləcə də həmin hədiyyələrin onun memarlıq sənətinə sevgisini daha da qüvvətləndirdiyini deyib.

1911-ci ildə Bakı Realnı Məktəbinə gedib. Təhsilini 1921-ci ildə II dərəcəli 5-ci məktəbdə tamamlayıb. 1922-ci ildə Azərbaycan Politexnik İnstitutunun (hazırda Azərbaycan Texniki Universiteti) Mühəndis-inşaat fakültəsinin memarlıq şöbəsinə daxil olub. Tələbəlik illərində də seçilib. Onun 1924-cü ildə Şirvanşahlar Saray Kompleksini araşdırması mütəxəssislərin diqqətini cəlb edib və bu, böyük rəğbətlə qarşılanıb. Dahi şair Nizami Gəncəvinin abidəsinin layihə müsabiqəsində iştirakı da gənc memar Mikayıl Hüseynova uğur qazandırıb. Mükafata layiq görülüb.

Azərbaycan Politexnik İnstitutunu 1929-cu ildə fərqlənmə diplomu ilə bitirib. Mikayıl Hüseynov "Bakı şəhərində mədəniyyət sarayı və kitabxana" mövzusunda diplom layihəsi müdafiə edərək mühəndis-memar diplomu alıb.

1930-cu ildən memarlıq fəaliyyətinə başlayıb. Həmin illərdə respublikada həyata keçirilən geniş inşaat işlərinə qoşulan gənc memar "Azərdövlətlayihə"də əvvəlcə assistent olaraq çalışıb. Sonra memarlıq emalatxanasına rəhbərlik ona həvalə olunub. Mikayıl Hüseynovun rəhbərliyi ilə emalatxananın yaradıcı heyəti sayca az olan, böyük maraqla, yorulmaq bilmədən çalışan gənc memarlardan təşkil edilib.

1930-1959-cu illərdə M.Hüseynov sonralar "Azərdövlətmemarlayihə"də (indiki "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutu) 1-ci memarlıq emalatxanasının rəhbəri olub. 1960-1990-cı illərdə "Azərdövlətlayihə"də məsləhətçi, 1947-1992-ci illərdə Azərbaycan Memarlar İttifaqının sədri vəzifəsində işləyib.

Mikayıl Hüseynov yüksək peşəkarlıqla həyata keçirilən 200-dən çox layihənin müəllifi olub. Layihələri əsasında Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə, həmçinin Moskvada, Düşənbədə və başqa şəhərlərdə bir çox yaşayış evi, ictimai bina, məşhur elm və mədəniyyət ocaqları inşa edilib.

Onun layihələri əsasında paytaxtımızdakı "Alimlər Evi", Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası (Bakı Musiqi Akademiyası), Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Nizami Kino Mərkəzi, Azərbaycan Politexnik İnstitutu, "Bakı Soveti" işçiləri üçün yaşayış (hazırda Azərbaycan Respublikası Nazirlər Kabineti binası) və digər binaları tikilib.

Mikayıl Hüseynovun yaradıcılığında Mirzə Fətəli Axundzadə adına dövlət kitabxanası, Azərbaycan SSR Elmlər Akademiyasının binaları kompleksi, hazırkı "Azadlıq" meydanının rekonstruksiyası, "Nizami", "Elmlər Akademiyası" metrostansiyaları, "Azərbaycan", "Abşeron", "Moskva" mehmanxanaları, Baş poçt idarəsi "Qlavpoçtampt" xüsusi yer tutub. Eyni zamanda paytaxtımızın küçə və meydanlarını bəzəyən Nizami Gəncəvi, Məhəmməd Füzuli, Üzeyir bəy Hacıbəyli, Səməd Vurğun, Mehdi Hüseynzadə, Həzi Aslanov, Ayna Sultanova abidələrinin layihələri də onun yaradıcı əməyinin bəhrəsidir.

Uzun illər məsul vəzifələrdə çalışan Mikayıl Hüseynovun elmi-pedaqoji fəaliyyəti də tədqirəlayiqdir. O, respublikamızda yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm xidmətlər göstərib. Alimin onlarca elmi-nəzəri əsəri memarlıq tariximizin öyrənilməsində dəyərli mənbə hesab edilir.

Mikayıl Hüseynovun ictimai fəaliyyəti də geniş olub. O, SSRİ Ali Sovetinin IV və V çağırış deputatı (1954-1962), Azərbaycan SSR Ali Sovetinin deputatı (3-cü, 6-cı, 11-ci çağırışlar) seçilib.

1985-ci ildə İngiltərə kraliçası II Yelizavetanın himayəsi altında olan Böyük Britaniya Asiya Cəmiyyəti tərəfindən təşkil edilən "Bakının memarlığı" sərgisində Mikayıl Hüseynovun əsərləri nümayiş etdirilib. Sərgi materiallarına keçirilən baxış və müzakirələrdən sonra azərbaycanlı memar Böyük Britaniya və İrlandiya Kral Asiya Cəmiyyətinin fəxri üzvü seçilib.

Çoxşaxəli yaradıcılığı, gərgin əməyi yüksək dəyərləndirilib. Bir çox orden və medalla təltif olunub, fəxri adlara layiq görülüb. Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq memarı, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, memarlıq doktoru, professor Mikayıl Hüseynov hər zaman tükənməz yaradıcılıq həvəsi, sənətinə böyük ehtiram və məsuliyyətlə çalışıb.

Onun təşəbbüsü ilə 1992-ci ildə Beynəlxalq Şərq Memarlıq Akademiyası yaradılıb. İlk prezidenti də akademik Mikayıl Hüseynovun özü olub. Həmin ilin iyununda isə o, Beynəlxalq Memarlar Akademiyasının Moskva şöbəsinin fəxri üzvü seçilib.

Milli memarlığın inkişafında müstəsna xidmətlər göstərən görkəmli alim Mikayıl Hüseynov 7 oktyabr 1992-ci ildə Bakıda dünyasını dəyişib. Fəxri xiyabanda dəfn edilib.

Azərbaycan memarlıq sənətinin öz ənənələrindən uzaqlaşmadan yeni dövrün tələblərinə yüksək səviyyədə cavab verməsində, gündən-günə inkişaf etməsində və dünyada tanıdılmasında əməyi böyük olan istedadlı sənətkar incəsənət tariximizdə əbədi yer tutub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Milli Kitabxanada "Maqsud İbrahimbəyov-90" adlı biblioqrafik icmal onlayn rejimdə istifadəçilərə təqdim edilib




**Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən Xalq yazıçısının yubileyi münasibətilə "Maqsud İbrahimbəyov-90" adlı biblioqrafik icmal hazırlanaraq onlayn rejimdə istifadəçilərə təqdim olunub.**

Kitabxanadan bildirilib ki, icmalda "Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı", Xalq yazıçısının həyat və fəaliyyətini əks etdirən yazı, Əməkdar jurnalist Əli Nəcəfxanlının yubileylə bağlı dərc etdirdiyi "Ədəbiyyatımızın zadəgan nasiri" adlı məqalə yer alıb, yazıçının müxtəlif dillərdə çap edilmiş kitabları, həmçinin ona həsr edilmiş kitab və dövri mətbuat materialları əks olunub. Sonda "Əlavələr" hissəsində isə ictimai xadimə Əməkdar incəsənət xadimi, Xalq yazıçısı adlarının verilməsi, adına Yaradıcılıq Mərkəzinin açılması, ədibin "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri ilə təltif edilməsi haqqında fərman və sərəncamlar verilib.

# Brüsseldə "Tervuren" festivalında Azərbaycan stendi qurulub

"Fireland" Azərbaycanlılar Birliyi Brüssel şəhərində hər il ənənəvi keçirilən "Tervuren" festivalında Azərbaycan stendi ilə iştirak edib.





AZƏRTAC xəbər verir ki, Belçika Krallığındakı səfirliyimizin dəstəyi ilə hazırlanan stendə əcnəbilərə Azərbaycana aid müxtəlif mövzularda məlumatlar verilib.

"Fireland" rəqs qrupunun və həmçinin Belçikada təhsil alan azərbaycanlı gənclərin rəqs nömrələri böyük maraqla qarşılanıb, festival iştirakçılarının da rəqs etməsinə səbəb olub.

Stendin bir hissəsində isə Azərbaycan mətbəxi və içkiləri qonaqlara təqdim olunub. Samovar çayı, feyxoa, heyva və zoğal kompotları, o cümlədən Azərbaycan şərabları iştirakçıların stendə marağını daha da artırıb. İştirakçıların əksəriyyəti bu dadların onlar üçün yenilik olduğunu vurğulayıblar.

Müxtəlif mövzulu bukletlər, Azərbaycan musiqisi, milli rəqslər və təamlar Azərbaycan stendini ən çox izlənən stend etmişdir. Tədbirin təhlükəszilik işlərinə nəzarət edən polis idarəsi sonda təşkilatçılara "ən çox izlənən stend Azərbaycan stendi oldu, dəfələrlə izdihamın səbəbini öyrənmək üçün stendinizə yaxınlaşmalı olduq", - deyə bildiriblər.

Qeyd edək ki, "Tervuren" festivalı hər il may ayında Brüssel şəhərində keçirilir. Festivalda Brüssel və ətrafındakı şəhərlərdən müxtəlif ictimai, mədəni və diaspor təşkilatlardan yüzlərlə stendlər quraşdırılır. Artıq iki ildir ki, "Fireland" Azərbaycanlılar Birliyi bu festivalda Azərbaycan stendi ilə iştirak edir.

# Kanadada "Azərbaycan İrs Günü" adlı tədbir təşkil olunub

Kanadanın Ontario Qanunvericilik Assambleyasında ilk dəfə olaraq "Azərbaycan İrs Günü" adlı tədbir keçirilib.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Toronto şəhərində fəaliyyət göstərən "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin təsis edilməsinin 10-cu ildönümünə həsr olunmuş tədbir Azərbaycanın və Kanadanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Tədbirin moderatoru Kanadanın sabiq multikulturalizm və vətəndaşlıq naziri Toni Ruprext olub. O, "Vətən" təşkilatının Azərbaycanın zəngin tarixi-mədəni irsinin, adət-ənənələrinin Kanadada təbliği istiqamətində əvəzsiz rol oynadığını qeyd edib. T.Ruprext dəfələrlə bu təşkilatın tədbirlərinə qatıldığını və hər dəfə Azərbaycanla bağlı yeni, maraqlı məlumatlar öyrəndiyini bildirib.

Mərkəzin rəhbəri Lalin Həsənova qonaqlara iştirakları üçün minnətdarlığını ifadə edib və təşkilatın yaranma tarixindən söz açıb. O, həmçinin Toronto şəhərindəki Kanada Azərbaycan Evinin fəaliyyətini də diqqətə çatdırıb. "Biz elə bir ölkədə məskunlaşmışıq ki, köklərimizə bağlılığımızı itirməmək üçün bizə hərtərəfli imkanlar yaradılıb və biz də bunu dəyərləndiririk", - deyə mərkəzin rəhbəri vurğulayıb.

Tədbirdə çıxış edən Ontario parlamentinin üzvləri - Rudi Kuzetto, Mohamed Firin, Maykl Tibbolo, Şərif Sabavi, Kris Qlover, Ceymi Vest, Kristin Vonq-Tam, Stefani Buman, Andrea Hezel mərkəzin böyük işlər gördüyünü, bu işlərin sayəsində Azərbaycan haqqında dolğun informasiya əldə etdiklərini söyləyiblər. Deputat Andrea Hezel yubiley münasibətilə rəsmi təbrik məktubunu Lalin Həsənovaya təqdim edib. Tədbirin təşkilində xüsusi rolu olan deputat bu barədə öz sosial şəbəkə hesabında paylaşım edib.

Tədbirdə Azərbaycan Evinin nəzdində fəaliyyət göstərən "Mənim Azərbaycanım" həftəsonu məktəbinin rəqs müəllimi Orxan İslamovun rəhbərliyi ilə şagirdlərin rəqsləri və nağara müəllimi Cəmhur Hüseynovun rəhbərliyi ilə nağara qrupunun ifaları alqışlarla qarşılanıb.

Günel İsmayılovanın pianonun müşayiəti ilə "Təbriz" Azərbaycan Musiqi və Rəqs Ansamblının rəhbəri Şervin Şadpurun ifasında səsləndirilən "Vətən" mahnısı tədbirə xüsusi ahəng qatıb.

Mərasimdə Kanada rəsmiləri, icma üzvləri ilə yanaşı, Türkiyə, Özbəkistan, Başqırdıstan, Krım Tatarları, Türkmənistan və s. türk xalqlarının icma rəhbərləri də iştirak ediblər.

Qeyd edək ki, "Vətən" İncəsənət və Mədəniyyət Mərkəzi xalqımızın milli dəyərlərini yaşadaraq yeni nəsillərə ötürməklə yanaşı, Azərbaycanın haqq səsinin Kanadada çatdırılması istiqamətində mühüm işlər də görür.

# Paşinyan üçün impiçment təhlükəsi

## Ermənistanda revanşistlər yenidən fəallaşıb

Ermənistanda siyasi müstəvidə müşahidə edilən qütbləşmə getdikcə dərinləşməkdə, bu kontekstdə iqtidar və müxalifət arasında münasibətlər tam gərginləşməkdədir. Tərəflərin biri-birlərinə qarşı kompromat xarakterli hücumlarının artması, gözdənsalma kampaniyasını genişləndirmələri vəziyyəti daha kritik həddə çatdırır. İndi həm hakimiyyət, həm də revanşistlər 2026-cı ilin parlament seçkilərinə hazırlaşırlar. Belə bir gərgin vəziyyət isə qarşıdakı dövrdə Ermənistanda xaosun qaçılmaz olduğunu deməyə əsas verir.

Artıq kilsə və revanşistlər yenidən fəallaşıb. Onlar açıq şəkildə Paşinyan hakimiyyətinə qarşı mübarizəyə başlayıblar. Ölkənin ikinci böyük şəhəri Gümrüdə keçirilən yerli seçkilərdəki nəticə də revanşistləri bir qədər ruhlandırıb. Paşinyana gəldikdə, isə hələlik o, mövqeyini qoruyub saxlamaqdadır. Amma Qərbdən, xüsusən də ABŞ-dən gələn yardımların kəsilməsindən sonra Paşinyanın da vəziyyəti ağırlaşıb. O, revanşistlərdən çəkindiyindən yenə də bir sıra məsələlərdə qəti addımlar atmaq istəmir.

Bütün bunlar azmış kimi Ermənistanda baş nazir Nikol Paşinyanın impiçmenti tələb olunur. "Biz yatmırıq" vətəndaş hərəkatının təşəbbüskarları Edqar Kazaryan və Narek Malyan Paşinyana etimadsızlıq təşəbbüsü ilə çıxış edərək parlamentin deputatlarına məktublar göndəriblər.

E.Kazaryan parlamentdə baş nazir Paşinyana etimadsızlığın ifadəsi olan impiçment prosesinin uğurlu olacağına əminliyini bildirib: "Məndə belə təəssürat yaranıb ki, impiçmentin əleyhinə olanlar onun uğursuzluğundan deyil, uğurundan narahatdırlar. Bu proses mütləq müvəffəqiyyətlə başa çatacaq - bütün rəqibləri məğlub etməklə. Heç kim öz xırda ambisiyalarını, maraqlarını rəhbər tutaraq xalqın iradə və istəyi qarşısında müqavimət göstərə bilməz. Xalq isə Nikol Paşinyanın istefasını istəyir".

Ermənistan parlamentinin keçmiş deputatı Ruben Hakopyan isə öz "Facebook" səhifəsində yazıb ki, bu günlərdə müxalifət meydanında açıq seçki kampaniyası gedir, bunun kulminasiya nöqtəsi hazırda Nikolun impiçmenti təşəbbüsüdür. Onun sözlərinə görə, indiki məqamda impiçmentin reallığa çevrilmək şansı demək olar ki, yoxdur: "Edqar Kazaryanın səmimiliyinə şübhə etmədən, düşünürəm ki, o da əmindir ki, indiki məqamda bunun reallığa çevrilmək şansı demək olar yoxdur. Söhbət ondan getmir ki, baş nazirliyə namizəd yoxdur. Ancaq mən həm də düşünmürəm ki, təşəbbüsün praktiki qeyri-reallığına görə baş nazirliyə namizəd kimi hansısa ictimai xadim bu təşəbbüsdə iştiraka razı olar. Əgər impiçment uğursuzluğa düçar olarsa, bu, parlament müxalifətinin onsuz da kifayət qədər aşağı olan reytinqinə təsir edəcək və bu, hazırkı baş nazirin mövqelərinin möhkəmlənməsinə birbaşa töhfə verəcək", - deyə Hakopyan qeyd edib.

Bütün bunların fonunda erməni diasporu ilə Hayastan hakimiyyəti arasında fikir ayrılıqları, qarşılıqlı narazılıqlar artır. Diaspor yalnız hakim dairələrin, bir qrup məmurun faydalandığını əsas gətirərək yardımını azaldıb. Bu yardımların azalması, bəzən isə dayanması ölkədə iqtisadi vəziyyəti də pisləşdirir. Məlumatlara görə, Rusiya KİV-ində Paşinyan əleyhinə yer alan məqalələrin sifarişçisi də erməni diasporudur. Diasporun dəstəyinin itirilməsi isə Paşinyanın hakimiyyətdəki mövqeyini sürətlə laxladır. Bu da Paşinyan iqtidarı üçün əsas zərbələrdən biri hesab olunur. Məhz bu səbəbdən müxalifət Paşinyan rejimini yıxmaq üçün əlavə imkanlar qazanır.

Beləliklə, Ermənistanda hazırda baş verənlər bu ölkəni sürətlə hərtərəfli iflasa doğru aparır. Çünki İrəvan xarici himayədarları olmadan yaşaya bilmək iqtidarında olan ölkə deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Dahiliyin zaman ölçüsü
Heydər Əliyev irsi dünən, bu gün və sabah
Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Mərakeşin xanım Şahzadəsi Lalla Hasnaa ilə görüşüb
Müasir dünyada tolerantlığın klassik Azərbaycan nümunəsi
Azərbaycanın Yaxın Şərq siyasəti diplomatiyamızın növbəti uğurudur
Azərbaycanın tərəqqisinə sevinməyənlər

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində**

**Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarından olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı**

***müsabiqə keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 20 may 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 21 may 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***


# Fridrix Merts Bundestaqda səsvermənin ikinci turunda Kansler seçilib

Almaniyada Xristian Demokratlar İttifaqının (CDU) lideri Fridrix Merts Bundestaqda keçirilən səsvermənin ikinci turunda Federal Kansler seçilib.



AZƏRTAC xəbər verir ki, F.Mertsin Kansler seçilməsi üçün parlamentin 630 deputatından 316-sının səsi tələb olunduğu halda onun lehinə 325 deputat səs verib. Yeni Kansler ona göstərilən etimada görə deputatlara minnətdarlığını bildirib.

Xatırladaq ki, koalisiya hökumətində yer alan partiyalar - CDU, Xristian Sosialistlər İttifaqı (CSU) və Sosial Demokrat Partiyası (SPD) parlamentdə 328 deputat mandatına sahib olduğundan F.Mertsin ilk turda Kansler seçilməsi gözlənilirdi. Lakin gözlənilmədən birinci turda F.Mertsin Kansler seçilməsinin lehinə 310, əleyhinə 307 nəfər səs vermiş, 3 nəfər bitərəf qalmışdı. Birinci turdakı məğlubiyyətdən sonra partiyaların parlament fraksiyaları arasında aparılan məsləhətləşmələr nəticəsində ikinci turun da bu gün keçirilməsi qərara alınmışdı. Bundestaq seçkisindən və uğurlu koalisiya danışıqlarından sonra təyin edilmiş Kanslerin parlamentdə səsvermənin birinci turunda uğursuzluğa düçar olması Almaniya tarixində ilk dəfə baş verir.

Almaniya Konstitusiyasının 63-cü maddəsinə əsasən, birinci turda Kansler lazımi səs çoxluğunu toplaya bilmədikdə iki həftə ərzində səsvermənin ikinci turu keçirilməlidir. Bu seçkilərdə də deputatlardan yarıdan çoxunun səsi lazımdır. Zəruri hallarda digər şəxsin namizədliyi irəli sürülə bilər. Əgər həmin vaxt da tələb olunan çoxluq əldə olunmasa, üçüncü tur keçirilir. Üçüncü turda Kanslerin seçilməsi üçün səsvermədə iştirak edən deputatların sadə səs çoxluğu kifayət edir.

Seçkilərdən sonra Kansler Fridrix Merts Almaniya Prezidenti Frank-Valter Ştaynmayer tərəfindən rəsmən bu vəzifəyə təyin ediləcək və parlamentdə and içəcək. Sonra yeni kabinet təsdiqlənəcək və koalisiya hökuməti rəsmən fəaliyyətə başlayacaq.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının kollektivi kafedranın dosenti Asim Bayramova anası

**ƏLVİDA HACIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əli, Mobil, Rafiq, Nail və Hacı Müşfiq Hüseynovlar, Fazil Allahverdiyev, Namiq və Zəfər Azadovlar, İlham və Tural İbrahimovlar, Əlövsət Əliyev, Şahin Aslanov, Hidayət, Mircəfər və Mircəlil İsmayılovlar Umud Rəhimoğluna və Müstəqim İsmayılova əzizləri

**FATMA ƏKBƏR QIZI MİRZƏYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3536
Sifariş 925

Qiyməti 60 qəpik